Xalqın qəzeti!
# Xalq qəzeti
№ 127 (30821) 22 iyun 2025-ci il, bazar
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Vətəndaş məmnunluğu ideyasını ön plana çəkən idarəetmə modeli



***Prezident İlham Əliyev:***

**Rəhbərin təvazökarlığı rəhbərin yaraşığıdır. Rəhbərin mənəvi haqqı olmalıdır ki, öz tabeliyindəki insanlardan nəyisə tələb etsin. Əgər bu mənəvi haqq yoxdursa, nə istəyirsiniz deyin, nə istəyirsiniz edin, sizə nə hörmət, nə də ki, rəğbət olacaq...**

**Müstəqilliyi, müstəqil həyatımızı hər şeydən üstün tutan insanlar önə çəkilməlidir, vətənpərvər, milli ruhda, milli dəyərlər əsasında tərbiyə alan insanlar önə çəkilməlidir və əlbəttə ki, bu insanların peşəkarlığı da yüksək səviyyədə olmalıdır. Ona görə kadr siyasəti bu prinsiplər əsasında qurulmalıdır**

səhifə ⇨ 4

# Şuşa və Ağdamın dirçəlişi diplomatları heyrətləndirdi

**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Şərqi Zəngəzur və Qarabağa səfər çərçivəsində iyunun 21-də Şuşa şəhərində olublar. Nümayəndə heyətini Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müşayiət edib.**

Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonaqlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və şəhər işğaldan azad olunandan sonra burada aparılan bərpa-quruculuq işləri barədə məlumat verib. Bildirib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpası da həyata keçirilir.

(ardı 3-cü səhifədə)



# Orta Dəhlizin yüksəlişi



**Son illər qlobal ticarət coğrafiyasında baş verən dəyişikliklər və geosiyasi gərginliklər nəqliyyat-logistika zəncirlərinin yenidən formalaşdırılmasına səbəb olub. Məhz bu kontekstdə Azərbaycanın Orta Dəhliz – Şərq-Qərb nəqliyyat arteriyası üzərində oynadığı rol ön plana çıxır. 2025-ci ilin aprel ayında Prezident İlham Əliyevin Pekinə dövlət səfəri çərçivəsində imzalanan "Beynəlxalq multimodal daşımalar haqqında" Azərbaycan–Çin hökumətlərarası sazişi və "Bir kəmər, bir yol" təşəbbüsünün birgə irəlilədilməsi planı bu strateji istiqamətin siyasi akt kimi təsdiqlənməsi oldu. Deyə bilərik ki, bu sənədlər Azərbaycanın nəqliyyat diplomatiyasının geosiyasi miqyasda yüksələn yeni mərhələsinin rəsmi manifestidir.**

Son 20 ildə Azərbaycanın həyata keçirdiyi nəqliyyat siyasəti iqtisadi yönümlü texniki strategiya olmaqla yanaşı, milli təhlükəsizlik, siyasi sabitlik və xarici siyasətin əsas sütunlarından birinə çevrilib. Məhz bu yanaşma göstərir ki, Azərbaycan geoiqtisadi potensialının yalnız iqtisadi faydalılığı ilə kifayətlənmir, həm də ölkənin strateji müstəqilliyini möhkəmləndirən mühüm vasitəyə çevrilir.

(ardı 7-ci səhifədə)

# Paşinyanın Türkiyə səfəri: Ankara–Bakı–İrəvan oxu



Səhifə ⇨ 6

# Fransa səfiri Şuşada açıqlama verir…

*Azərbaycanın bölgədə yaratdığı reallığı, Qarabağda apardığı bərpa-quruculuğu qəbul etməmək mümkün deyil*




**İşğal dövründə ərazilərimiz böyük maddi və mədəni itkilərə məruz qalıb. Yüzlərlə mədəniyyət, təhsil, tibb müəssisəsi, ticarət obyektləri, rabitə və bir çox sənaye müəssisəsi məhv edilib. Bu vandalizm təkcə maddi deyil, mənəvi yaddaşa edilən hücum idi. Lakin xalqın yaddaşı itmir, mədəniyyətin ruhu ölmür. O ruh bu gün yeni məktəblərdə, bərpa olunan abidələrdə, salınan yollarda və doğma yurda dönən insanların qəlbində yaşayır.**

(ardı 7-ci səhifədə)

# Strateji-iqtisadi üstünlüyün nəqliyyat-tranzit imkanları



səhifə ⇨ 8




# Erməni xalqı yalana sitayişin faciəsini yaşayır

səhifə ⇨ 10

# Uydurma "hücum"un yaratdığı qorxu sindromu



Səhifə ⇨ 6

# Dövlət qulluqçularının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

### 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Əliyev Niyaz Novruz oğlu
Səlimov Rauf Ağaməmməd oğlu

### "Tərəqqi" medalı ilə

Abbasova Yeganə İzzət qızı
Abdullayev Dəyanət Qurbanəli oğlu
Baxşəliyeva Validə Hüseyn qızı
Əliyev Gülağa Əlisa oğlu
Əliyev Ramazan Hümmət oğlu
Əliyev Şahrza Hacı oğlu
Əliyeva Gülşad Hüseyn qızı
Əlizadə Nuridə Rəşid qızı
Əsədov Vüqar Həsən oğlu
Əzənmədov Habil Həsən oğlu
Hacıyeva Səriyyə Qasım qızı
Kərimov Musa Camal oğlu
Kərimova Vüsalə Nadir qızı
Qasımov Murad Fikrət oğlu
Qasımova Xəyalə Nurəddin qızı
Quliyev Balarəhim Mirzəağa oğlu
Məcidov İlkin Sabir oğlu
Məmmədova Həcər Əli qızı
Məmmədova Rəna Balakişi qızı
Mikayılov Rövşən Alı oğlu
Nəzərova Aybəniz İslam qızı
Orucəliyev Ramiz İman oğlu
Orucova Kamalə Nəriman qızı
Sadıqov İlqar Hacıbala oğlu
Sadıqov Qurban Rza oğlu
Sadıqova Səbinə Vaqif qızı
Səfərova Aygün Fikrət qızı
Süleymanov Nüsrət Süleyman oğlu
Tağıyev Teymur Aqil oğlu
Vəliyev Adil İsrayıl oğlu
Vəliyev Mirabbas Yaqub oğlu
Yaqubov İsmayıl Məmməd oğlu

### "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə

Abbasov Mübariz Səlim oğlu
Abbasov Rəşid Əli oğlu
Abbasov Səhhət Hafiz oğlu
Abbasova Sevil Rafiqovna
Abdulbağıyev Kamil Məhbub oğlu
Abdullayev Elmir Dəyanət oğlu
Abdullayev Elnur Ələkbər oğlu
Abdullayev Habil Şamil oğlu
Abdullayev Rufət Rəhman oğlu
Ağayev Emin Nazim oğlu
Alpaşayeva Alidə Mail qızı
Aslan Cəmilə Aslan qızı
Ataşov Vaqif Bəyalı oğlu
Babayev Qurban Teymur oğlu
Babayeva İrana Səttər qızı
Bağırov Nəriman Sadıq oğlu
Bağırov Nofəl Yunsur oğlu
Baxşəliyeva Nərgiz Rəhman qızı
Balakişiyev Xalid Əli oğlu
Balakişiyev Malik Abbas oğlu
Bayramov İslam Aydın oğlu
Bayramov Nadir Mirzə oğlu
Bayramova Aysel Məhərrəm qızı
Bayramova Ləman Rəsul qızı
Bədəlov Rüfət Abbas oğlu
Bəşirova Surəyya Seyfəddin qızı
Cabbarov Mikayıl Cabbar oğlu
Cavadov Cavid Ərzuman oğlu
Cəfərova Səbinə Şirqasım qızı
Dadaşov Elşən Hacırza oğlu
Davudov Aral Qəyum oğlu
Eyvazov Sənan Qəni oğlu
Ədilov Şahmar Nazim oğlu
Əfəndiyev Sərdar Nəsrəddin oğlu
Əhmədov Elşən Kərim oğlu
Əhmədov Rövşən Əliağa oğlu
Əhmədova Aidə Fazil qızı
Əhmədova Aytən Balamirzə qızı
Əhmədzadə Rüfət Əhməd oğlu
Ələkbərli Pərvanə İsmayıl qızı
Ələkbərova Elmira Sabir qızı
Ələsgərova Səkinə Fərhad qızı
Ələskərov Saleh Adil oğlu
Əliyev Elçin Rafail oğlu
Əliyev Elşən Tofiq oğlu
Əliyev İlqar Şamil oğlu
Əliyev Mahir Məzahir oğlu
Əliyev Mehman Cəfər oğlu
Əliyev Rauf Karlen oğlu
Əliyev Səbuhi Fəxrəddin oğlu
Əliyev Vüqar Yaşasın oğlu
Əlizadə Anar Yusif oğlu
Əlizadə Kənan Rafiq oğlu
Əlizadə Tahir Vitalyeviç
Əmirov Elvin İlham oğlu
Əmirova Səbinə Ağa Bala qızı
Əsgərov Ruslan Yusif oğlu
Əzimova Günəş Qurtuluş qızı
Əzizov Ramal Rəsul oğlu
Əzizov Teymur Məmməd oğlu
Əzizov Ziyad Məzahir oğlu
Fərəcov Vüsal Eldar oğlu
Fəttayev Elvin Sabir oğlu
Hacıxəlilov Elgün Xanlar oğlu
Hacıyev Ruslan Cavanşir oğlu
Hacıyeva İranə Abasağa qızı
Hacıyeva Rəna Adil qızı
Həsənalıyev Şikar Əjdər oğlu
Həsənli Anar Tarif oğlu
Həsənli Qumaş Salman qızı
Həsənova Sevgili Mehdi qızı
Həsənova Ülviyyə Cavanşir qızı
Həsənzadə Taleh Abbas oğlu
Həşimov Həşim Salman oğlu
Həziyev İntizar Möhsün oğlu
Hüseynov Firuz Aydın oğlu
Hüseynova Səidə İslam qızı
Hüseynzadə Əhməd Vidadi oğlu
Xaspoladov İsmət Qərib oğlu
Xələfova Şəhla Əvəz qızı
Xəlilov Ramil Abuzər oğlu
Xəlilova Dürdanə Rəhim qızı
Xıdırov Anar Akif oğlu
İbayeva Nüşabə Mansur qızı
İbrahimli Nicat Qalib oğlu
İbrahimova Arzu Mahir qızı
İldırımzadə İlham Yusif oğlu
İlyasov İqbal Azad oğlu
İmamlı İsrayıl İsmayıl oğlu
İmamverdiyeva Sevda Şakir qızı
İmanov Nail Hidayət oğlu
İmanov Ramiz İsmayıl oğlu
İmanova Nuranə Nazim qızı
İmanzadə Qoçaq İsmayıl oğlu
İsgəndərov Tural Arif oğlu
İskəndərov Cavid Nizami oğlu
İsmayılov Ceyhun Elman oğlu
İsmayılov Eldar Adil oğlu
İsmayılov Əsəd İsmayıl oğlu
İsmayılov Fuad Faiq oğlu
İsmayılova Mahirə Camal qızı
Kamilov Rizvan Famil oğlu
Kazımov Samir Qabil oğlu
Kazımova Zenfira Yaşar qızı
Kərimov İlyas Elxan oğlu
Kərimov Rəşad Malik oğlu
Kərimov Vasif Ülfət oğlu
Qarayev Elmar Ufad oğlu
Qarayev Fuad Firdovsi oğlu
Qarayev Rəşad İmran oğlu
Qarayev Tamerlan Azər oğlu
Qasımov Aydın Qnyaz oğlu
Qasımova Qönçə Əli qızı
Qədimova Vəfa Akif qızı
Qədirov Elgün Nizaməddin oğlu
Qədirov Pərviz İsrayıl oğlu
Qəniyev Fərid Əli oğlu
Quliyev Elxan Arif oğlu
Quliyev Gəray Qulu oğlu
Quliyev Yusif Asif oğlu
Quliyeva Aynur Hüseyn qızı
Quluzadə Tural Afət oğlu
Qurbanova Gülay Əjdər qızı
Qurbanova Nigar Fərhad qızı
Mahmudov Müşviq Volodya oğlu
Mahmudov Nazim Şahin oğlu
Mahmudov Ramiz Veys oğlu
Mehralıyev Allahverdi Tanrıverdi oğlu
Məmmədbəyova Nüşabə Faiq qızı
Məmmədov Abbas Məcid oğlu
Məmmədov Anar Fikrət oğlu
Məmmədov Ceyhun Adil oğlu
Məmmədov Elman Telman oğlu
Məmmədov Elşad Aydın oğlu
Məmmədov Elvin Təvəkgül oğlu
Məmmədov Fazil Arif oğlu
Məmmədov Xaliq Əbülfəz oğlu
Məmmədov Rasim Zakir oğlu
Məmmədov Saleh Bəhrəm oğlu
Məmmədov Sani Akif oğlu
Məmmədov Səbuhi Tahir oğlu
Məmmədov Vasif Qəndəli oğlu
Məmmədov Vüsal Vaqif oğlu
Məmmədova Fəridə Mehman qızı
Məmmədova Gülnar İsmayıl qızı
Mikayılova Natalya Sahibəli qızı
Miriyeva Lalə Hüseyn qızı
Muradov Rövşən Əliheydər oğlu
Muradova Rəvanə Zakir qızı
Mursaquliyev Abdulla Həmid oğlu
Murtuzov Elxan Zumrat oğlu
Musayev Rasim Budaqoviç
Musayeva Səfurə Rəhman qızı
Mustafayev Kamil Şöhrət oğlu
Mustafayev Ülvi Xanlar oğlu
Müştaqova Məlahət Yunis qızı
Nəcərov Əliyulla Elbrus oğlu
Nəsibov Mehman Bayram oğlu
Nuriyev Elnur Zakir oğlu
Orucov Rəşad Lətif oğlu
Orucov Zamin Əhməd oğlu
Ramazanova Aytən Zəfər qızı
Rəcəbov Nazim Kazım oğlu
Rzayev Elnur Ənvər oğlu
Rzayeva Gülsüm Aydın qızı
Sadıxov Zaur Muxtar oğlu
Sadıqova Ulduz Əlihüseyn qızı
Salehov Taleh Valeh oğlu
Salmanov Zaur Nizami oğlu
Seyidov Ağa Seyidağa oğlu
Səfərəliyev Eldəniz İsbəndiyar oğlu
Sərdarov İkram Nağı oğlu
Səttarov Rəcəb Məqsədoviç
Süleymanlı Vüsal Müseyib oğlu
Süleymanov Vüqar Məmməd oğlu
Süleymanova Suzanna Otello qızı
Şixbalayev Tariyel İmam oğlu
Şirinova Rahu Şahin qızı
Şükürov Səfər Ramiz oğlu
Tağıyev Nizaməddin Şəmşi oğlu
Tağıyeva Leyla İlham qızı
Tanrıverdili Beyrək Əzizxan oğlu
Tarverdiyeva Aytən Şəmsəddin qızı
Vəliyeva Gülmira Rasim qızı
Yusibov Elnur Nağı oğlu
Yusifli Maarif İmran oğlu
Yusifli Ülkər Oruc qızı
Zalov Rəşad Məhərrəm oğlu
Zeynalov Elxan Dursun oğlu
Zeynalov Pərviz Akif oğlu
Zeynalov Təbriz Əmirxan oğlu
Zeynalova Lamiyə Ruslan qızı
Zəkəriyəzadə Fuad Rauf oğlu.

**2.** Dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə "Əməkdar dövlət qulluqçusu" fəxri adı verilsin:

Fərəcov Fazil Salman oğlu
Həsənov Asəf Rəhim oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 iyun 2025-ci il**

# Azərbaycan Prezidentinin islamofobiya ilə bağlı müraciəti BMT-nin sənədi kimi yayılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 26-27-də Bakıda keçirilən "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq elmi konfransın iştirakçılarına müraciəti BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.**



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin mətbuat xidmətindən bildirilib ki, müraciət BMT Baş Assambleyası və BMT Təhlükəsizlik Şurasının rəsmi sənədi statusunda Təşkilatın bütün üzv dövlətlərinə təqdim olunub. Bu fakt Prezident İlham Əliyevin islamofobiya ilə mübarizədə beynəlxalq çağırışlarının, tolerantlıq və multikulturalizm dəyərlərinə verdiyi önəmin dünya miqyasında yüksək qiymətləndirildiyini bir daha nümayiş etdirir.

Müraciətdə dövlətimizin başçısı islamofobiyanın artmaqda olan təzahürlərinə diqqət çəkib, bu neqativ meylin beynəlxalq sülhə və təhlükəsizliyə təhdid yaratdığını vurğulayıb. Prezident İlham Əliyev bildirib ki, dini dözümsüzlük, ayrı-seçkilik və nifrət çağırışları ilə mübarizə birgə beynəlxalq səylərlə mümkün ola bilər.

Bu müraciətin BMT səviyyəsində sənəd kimi tanınması Azərbaycan Respublikasının multikulturalizmə və dini həmrəyliyə əsaslanan siyasətinə verilmiş beynəlxalq dəstəyin daha bir təzahürüdür.

Qeyd edək ki, mayın 26-27-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq elmi konfrans təşkil olunub.

İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününün 3-cü ildönümünə həsr olunan elmi konfransın xarici tərəfdaşları sırasında G20 Dinlərarası Forumu (IF20), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), ICESCO, Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzi (DICID), İnsan Qardaşlığının Ali Komitəsi, Müsəlman Ağsaqqallar Şurası, Almaniya Müsəlmanlarının Mərkəzi Şurası, EULEMA - Avropa Müsəlman Liderləri Məclisi və Beynəlxalq Müsəlman Forumu da yer alıb.

Beynəlxalq elmi konfransa 40-a qədər ölkədən 200-ə yaxın iştirakçı - alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri qatılıblar.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – 28 May - Müstəqillik Günü münasibətilə Zati-alinizə və hörmətli ailənizə ən səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuruq.

Sizə möhkəm cansağlığı, uğurlar, səxavətli xalqınıza davamlı tərəqqi və firavanlıq arzu edirik.

Bu fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında bütün sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olduğumuzu bir daha bildiririk.

**Dərin hörmətlə,**

***Əbdüllətif Camal RƏŞİD,***
***İraq Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə şəxsi rifah, Azərbaycan xalqına isə xoşbəxtlik və firavanlıqla bağlı ən xoş arzularımı bildirirəm.

**Hörmətlə,**

***ANRİ,***
***Lüksemburqun Böyük Hersoqu***

# M.Ş.Şəkiliyevin Qax Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Musa Şaban oğlu Şəkiliyev Qax Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 iyun 2025-ci il**

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin iyul ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 4, 11, 25 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 4, 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 7 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 2 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 2 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | 3 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 25 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 25 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | 28 |
| *** | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 9 |

**Qeyd:** Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.

Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.

Qəbul saat 14:00-dan başlayır.

Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.

# Şuşa və Ağdamın dirçəlişi diplomatları heyrətləndirdi



(əvvəli 1-ci səhifədə)

Nümayəndə heyətinin Şuşa ilə tanışlığı dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin ev-muzeyindən başlayıb. Üzeyir Hacıbəylinin evi XIX əsrdə inşa olunub. 1959-cu ildə bina ev-muzeyi kimi fəaliyyətə başlayıb. Görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir Hacıbəylinin ev-muzeyi Şuşa şəhəri işğal edilən tarixədək fəaliyyət göstərib.

Muzeydə Hacıbəylilər ailəsinə məxsus ev əşyaları, həmçinin bəstəkarın şəxsi əşyaları, fotomateriallar, kitablar - ümumilikdə 1700 eksponat qorunub saxlanılırdı. Şuşa şəhəri ermənilər tərəfindən işğal edildikdən sonra muzey fəaliyyətini dayandırmış, eksponatları talanmış, binası isə dağıdılmışdı. Muzeyin mövcud 1700 eksponatından yalnız 136-sını qorumaq mümkün olub.

Şuşa şəhəri işğaldan azad olunandan sonra Üzeyir Hacıbəylinin ev-muzeyi bərpa olunub. Muzey binasında Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri zamanı yeni ekspozisiya yaradılıb.

Nümayəndə heyəti sonra "Şirin su" hamamına baxıblar. "Şirin su" hamamı 1880-ci ildə inşa edilib. Vaxtilə şəhərin digər hamamlarında ərazilərdəki şor quyu sularından istifadə olunurdu. Bu hamam isə Xan qızı Xurşidbanu Natəvanın Şuşaya çəkdirdiyi şirin su ilə təchiz edilib. Məhz buna görə də hamam "Şirin su" hamamı adlandırılıb. Şuşa şəhəri 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra "Şirin su" hamamında abidənin memarlıq üslubuna aid olmayan dəyişikliklər edilmiş, əlavə tikililər inşa olunmuş, hamam yararsız vəziyyətə salınmışdı. "Şirin su" hamamı 2022-2024-cü illərdə bərpa olunub.





Merdinli məhəlləsinə gələn qonaqlara məlumat verilib ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri memarlıq abidələri ilə yanaşı, həm də məhəllələri ilə tanınır. Qədim Şuşada 17 məhəllə olub. XVIII əsrin sonları, XIX əsrin əvvəllərində salınmış Merdinli məhəlləsi şəhərin mərkəzi hissəsində yerləşir. Merdinli məhəlləsindən bir çox tanınmış şəxsiyyətlər çıxıb. Şuşa şəhərinin digər tarixi məkanları kimi, Merdinli məhəlləsi də erməni vandalizminə məruz qalıb.

Diplomatik korpusun nümayəndələri Şuşa şəhərinin Qarabağ küçəsində həyata keçirilən tikinti işləri ilə də tanış olublar. Bu küçədə dövlət-özəl tərəfdaşlığı çərçivəsində ümumilikdə müxtəlif təyinatlı 10 binanın inşası aparılır. İnşa olunan binalar arasında mehmanxana, ofislər, iaşə obyektləri var. Binaların tikintisində Şuşanın daşlarından istifadə olunur.

Qonaqlar Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün ev-muzeyində də olublar. Görkəmli musiqiçi 1982-ci ildən ev-muzeyi kimi fəaliyyət göstərən bu evdə anadan olub və uşaqlıq illərini burada keçirib. Muzeydə Bülbülün uşaqlıq illərinə aid şəkillər, şəxsi əşyalarından bəziləri, o cümlədən onun qavalı da nümayiş etdirilirdi. Muzeydə Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyətini əks etdirən 9 minə yaxın sənəd toplanmışdı. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırmışdı. Şuşa şəhəri işğaldan azad olunandan sonra Prezident İlham Əliyevin tapşırığına əsasən muzeydə təmir-bərpa və yenidənqurma işləri aparılıb.

Səfər çərçivəsində xarici diplomatlar Şuşa şəhərində birinci yaşayış kompleksində yaradılan şəraitlə də tanış olublar. Təməli 2021-ci ildə qoyulan yaşayış kompleksinin açılışı 2024-cü il mayın 10-da olub. Bütün evlər Şuşanın ənənəvi üslubunda inşa edilib. İyirmi üç binadan ibarət yaşayış kompleksində sakinlərin rahat yaşaması üçün hər cür şərait yaradılıb.

Xarici diplomatlar sonra Mehmandarovların malikanə kompleksinə gəliblər. Malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa edilib. Mehmandarovlar ailəsinə məxsus kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir. Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən Mehmandarovların malikanə kompleksində, həmçinin ailə məscidi və ərazidəki bulaqda təmir-bərpa işləri həyata keçirilib.



Sonda Cıdır düzünə gələn diplomatik korpusun nümayəndələri buradan açılan təbiət mənzərəsini seyr ediblər. Cıdır düzü dağlar qoynunda yerləşən şəhərin yeganə və ən böyük hamar ərazisidir. Elə bu səbəbdən də qədimdən burada Qarabağ igidlərinin cıdır yarışları, çövkən oyunları, Novruz və digər el şənlikləri keçirilib. Cıdır düzü bütün zamanlarda şuşalıların və Şuşaya təşrif buyuran qonaqların ən sevimli məkanı, seyrəngahı olub. 44 günlük Vətən müharibəsində qəhrəman Azərbaycan əsgərləri böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxıb, canları və qanları bahasına Şuşanı işğaldan azad ediblər.

Səfər iştirakçıları Cıdır düzündən açılan təbiət mənzərəsini seyr ediblər.

Qeyd edək ki, diplomatik korpusun nümayəndələri ötən gün Laçında görülən işlərlə tanış olublar.

***

**Sonra Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş Ağdama səfəri başlayıb.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov nümayəndə heyətinə Ağdam şəhərində həyata keçirilən quruculuq işləri barədə məlumat verib.

Nümayəndə heyəti əvvəlcə Ağdam Muğam Mərkəzi ilə tanış olub. Ağdam Muğam Mərkəzinin təməli 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub və 2025-ci ilin mayın 10-da istifadəyə verilib. Mərkəzdə kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 474 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb. Muğam Mərkəzinin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib.

Diplomatik korpusun nümayəndələri sonra İmarət kompleksinə gəliblər. Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq tikililərdən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. İşğal dövründə digər tarixi-mədəni və dini abidələr kimi, Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş İbrahimxəlil xanın, onun oğlu, Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı, görkəmli şair, rəssam Xurşidbanu Natəvanın məzarları İmarət kompleksində yerləşir. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də buradakı qəbiristanlıqda dəfn ediliblər. Ağdam şəhəri işğal edildikdən sonra qəbiristanlıq erməni vandalizminin qurbanı olub. İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də dağıdılıb.

İşğaldan azad edildikdən sonra Ağdam İmarət Kompleksində restavrasiya və arxeoloji tədqiqat işləri həyata keçirilib.

Qonaqlar Ağdam Sənaye Parkına da baş çəkiblər. Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün əlverişli investisiya mühiti yaradılıb. Belə ki, sahibkarlar dövlət vəsaiti hesabına infrastrukturla təmin edilirlər. Sənaye Parkında hazırda investisiya portfeli 260 milyon manatdan çox olan 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Parkın artıq 70 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib.

"Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətinin divar kağızları istehsalı zavoduna gələn nümayəndə heyətinə bildirilib ki, investisiya həcmi 8 milyon manat olan müəssisə Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur. Müəssisə il ərzində 2,1 milyon ədəd rulon divar kağızı istehsal etmək gücündədir. Artıq müəssisədə istehsal olunan divar kağızlarının xaricə ixracına başlanılıb.

Diplomatlar "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı zavodunun fəaliyyəti ilə də tanış olublar.

Şuşa və Ağdamla tanışlıqdan sonra diplomatlar Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinə gələrək, buradan sürət qatarı ilə Bakıya doğru yola çıxıblar.

*XQ*

# Ceyhun Bayramov İƏT-in 51-ci sessiyasında




**İyunun 21-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyəyə işgüzar səfəri çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının İstanbul şəhərində keçirilən 51-ci sessiyasında çıxış edib.**

Çıxışda İƏT coğrafiyasında artan geosiyasi gərginliklərin fonunda meydana gələn siyasi, iqtisadi, humanitar, ətraf mühit və təhlükəsizlik çağırışları, onlarla mübarizədə əməkdaşlıq, habelə postmünaqişə dövründə regional vəziyyətdən bəhs olunub. Azərbaycanın 2026-cı ildə təhvil alacağı İƏT sədrliyini İslam dünyasının həmrəyliyi və inkişafına töhfə vermək üçün ciddi tarixi fürsət olaraq dəyərləndirdiyi qeyd olunub. Dünyada artan İslamofobiya meyillərinin narahatlıq doğurduğu, ölkəmizin bu təhdidin bütün forma və təzahürlərini qətiyyətlə pislədiyi və islamofobiya ilə mübarizədə İƏT çərçivəsində göstərilən təşəbbüsləri dəstəklədiyi vurğulanıb. Qəzzada mövcud humanitar vəziyyətə toxunulub və bununla bağlı təxirəsalınmaz tədbirlərin görülməsinin əhəmiyyəti qeyd edilib. Yaxın Şərqdə gərginliyin coğrafiyasının genişlənməsinin, İran İslam Respublikasına qarşı həyata keçirilmiş hərbi əməliyyatların narahatlıq doğurduğu, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri əsasında diplomatik prosesin bərpasına çağırış etdiyi bildirilib. Ölkəmizin Cammu və Kəşmir münaqişəsinin BMT Təhlükəsizlik Şurası, o cümlədən İƏT-in müvafiq qətnamələrinə uyğun olaraq, sülh yolu ilə həllini tam dəstəklədiyi qeyd olunub.

Nazir, həmçinin postmünaqişə dövründə regional bərpa, quruculuq və sülh səyləri, habelə normallaşma prosesini təhdid edən çağırışlardan ətraflı bəhs edib. O, çıxışı zamanı indiki Ermənistan ərazilərindən qovulmuş azərbaycanlıların, Qərbi Azərbaycan İcmasının hüquqlarının bu ölkə tərəfindən kobud şəkildə pozulmasının, onların hüquqlarının inkar olunmasının dayanıqlı sülh və etimad quruculuğuna maneə olduğu xatırlanıb.

***

**Həmin gün Xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının İstanbul şəhərində keçirilən 51-ci sessiyası çərçivəsində İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər naziri Ayman Əs-Səfadi ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə İordaniya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, Yaxın Şərq bölgəsində regional vəziyyət, İsrail-İran qarşıdurması müzakirə olunub.

Azərbaycan ilə İordaniya arasında mövcud olan dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafı, ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyi vurğulanıb. Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının yaxın zamanlarda təşkilinə hazırlıq məsələləri nəzərdən keçirilib.

***

**Dünən Xarici işlər naziri Ceyhun Bayramov tədbir çərçivəsində özbəkistanlı həmkarı Baxtiyor Saidov ilə də görüşüb.**

Görüşdə Azərbaycan və Özbəkistan müttəfiqliyinin siyasi, iqtisadi, nəqliyyat-kommunikasiyalar, humanitar və sair aspektləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Danışıq zamanı BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanların mövcudluğu qeyd edilib.




Regionda baş verən son hadisələrə toxunan nazirlər, Yaxın Şərqdə artan gərginlik, xüsusilə İsrail-İran qarşıdurmasının narahatlıq doğurduğunu diqqətə çatdırıblar.

***

**Ceyhun Bayramov tədbir çərçivəsində malayziyalı həmkarı Mohamad Hasan ilə də görüşüb.**

Görüş zamanı Azərbaycanla Malayziya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri, Yaxın Şərqdə vəziyyət və İsrail-İran qarşıdurması müzakirə olunub.

Nazirlər siyasi dialoqun genişləndirilməsi, qarşılıqlı yüksəksəviyyəli səfərlərin təşkili, iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi, təhsil, energetika, yüksək texnologiyalar və turizm sahələrində geniş əməkdaşlıq imkanlarının olduğunu vurğulayıblar. Bu yaxınlarda Xarici İşlər nazirlikləri arasında aparılmış siyasi məsləhətləşmələrin münasibətlərin inkişafına töhfəsi məmnunluqla qeyd edilib.

Azərbaycan ilə Malayziya arasında Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN) çərçivəsində də əməkdaşlığın dərinləşdirilməsinin vacibliyi vurğulanıb və bu istiqamətdə qarşılıqlı dəstəyin davam etdirilməsinin əhəmiyyəti qeyd olunub. Ölkəmizin inkişaf etməkdə olan səkkiz ölkəni birləşdirən D-8 təşkilatına üzvlüyə qəbul olunmasının əhəmiyyəti xüsusilə vurğulanıb.

***

**Xarici işlər naziri Ceyhun Bayramov tədbir çərçivəsində Suriyanın keçid hökumətinin xarici işlər və xaricdə yaşayan suriyalılar naziri Əssad Həsən Əş-Şibani ilə də görüşüb.**

Görüş zamanı Azərbaycan və Suriya arasında ikitərəfli münasibətlərin bərpası və inkişafı məsələləri, həmçinin regional təhlükəsizlik gündəliyindəki mövcud çağırışlar ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov uzun fasilədən sonra Dəməşqdə Azərbaycan Respublikasının səfirliyinin fəaliyyətinin bərpa olunmasının ikitərəfli münasibətlərdə yeni mərhələnin başlanğıcı olduğunu qeyd edib, Suriya ilə siyasi dialoqun, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycanın Suriyada sabitliyin və dayanıqlı sülhün bərqərar olunmasını dəstəklədiyi bildirilib, həmçinin Suriyaya qarşı tətbiq olunan birtərəfli sanksiyaların ləğv olunması təqdir olunub, həmçinin Yaxın Şərqdəki cari gərginliklər ətrafında fikir mübadiləsi aparılıb. İsrail-İran qarşıdurması nəticəsində bölgədə yaranmış eskalasiyanın narahatlıq doğurduğu, vəziyyətin diplomatik yollarla tənzimlənməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

*XQ*

**23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür**

# Vətəndaş məmnunluğu ideyasını ön plana çəkən idarəetmə modeli

**İdarəetmənin xarakteri hər bir ölkənin dövlətçilik sisteminin fundamental sütunlarından birini təşkil etməklə yanaşı, siyasi sabitliyinin, hüquqi və institusional dayanıqlılığının təminatında mühüm rol oynayır. Azərbaycan Respublikasında dövlət idarəetmə sisteminin müasir çağırışlara cavab verən şəkildə formalaşdırılması prosesi onilliklər ərzində mümkün olmuş, bu sahədə əsaslı struktur və məzmun dəyişiklikləri baş vermişdir. Bu islahatların başlıca məqsədi çevik, şəffaf və vətəndaşyönümlü idarəetməni təmin etmək, xalqla dövlət arasında inam və etimadı gücləndirməkdir.**



İnkişaf etmiş dövlətlərin təcrübəsi təsdiqləyir ki, demokratik inkişafın mühüm şərtlərindən biri çağdaş tələblərə uyğun, səmərəli idarəetmə sistemini təmin edən, intellektual səviyyəyə malik kadr potensialının formalaşdırılmasıdır. Bu isə yalnız hüquq və azadlıqların üstün tutulduğu, idarəetmənin sosial sifarişə əsaslandığı, qanunun aliliyinə söykəndiyi cəmiyyətlərdə mümkündür.

Azərbaycan siyasi ənənəsində idarəetmə modellərinə münasibət tarixən milli dəyərlər və ədalət anlayışı ilə şərtlənmişdir. Xüsusilə dövlət müstəqilliyinin bərpasından sonra bu dəyərlərin tətbiqi idarəçilik praktikasında özünü qabarıq göstərmiş, cəmiyyətin demokratik inkişafına xidmət edən ardıcıl kadr islahatları həyata keçirilmişdir. Milli maraqlara xidmət edən idarəetmə modelinin formalaşması üçün monolit və peşəkar komandanın formalaşması, idarəetməyə yeni ruh və məzmun gətirilməsi bu gün də əsas hədəflərdən biridir. Strateji sektorlarda yüksək ixtisaslı, ictimai və dövlət maraqlarına sadiq kadrların yerləşdirilməsi inkişafın zəruri şərtinə çevrilmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən kadr siyasəti bütün dönəmlərdə milli və dövlət maraqlarının təminatına xidmət etmiş, milli kadrların irəli çəkilməsi dövlətçiliyin güclənməsinə sanballı töhfələr vermişdir.



1969-cu ildən başlayaraq ulu öndərin siyasi iradəsilə Azərbaycanda həyata keçirilən kadr islahatları həm hüquq-mühafizə, həm də təhsil, elm və hərbi sahələrdə sistemli yanaşmaların təməlini qoymuşdur. Bu islahatlar dövlətçilik ənənələrinin bərpası və yeni nəsil milli kadrların yetişdirilməsi baxımından dönüş nöqtəsinə çevrilmişdir.

Ulu öndərin məşhur "Qoy, ədalət zəfər çalsın!" tezisi hələ sovetlər birliyi dövründə böyük əks-səda doğurmuşdur. Böyük strateq qanunçuluğu və mənəvi saflığı idarəetmənin ayrılmaz komponenti kimi qəbul edir, hüquq pozuntularına qarşı qətiyyətli mövqe nümayiş etdirirdi. Dövlət qulluğunda fərdi məsuliyyət, xalq qarşısında hesabatlılıq, vicdanla işləmək meyarları onun formalaşdırdığı idarəetmə mədəniyyətinin əsasını təşkil edirdi. Ümumiyyətlə, milli kadrlara üstünlük verilməsi sovet dönəmində milli kimliyin qorunması baxımından əhəmiyyətli olmuş və bu siyasət 1991-ci ildə müstəqilliyin bərpası zamanı öz bəhrəsini vermişdir.

1991–1993-cü illərdə ölkənin yaşadığı siyasi və iqtisadi böhran göstərdi ki, təsadüfi şəxslərin hakimiyyətə gəlişi, idarətmədə qeyri-peşəkarlıq, siyasi məsuliyyətsizlik dövlətçiliyi ciddi təhlükə ilə üz-üzə qoya bilər. AXC–Müsavat hakimiyyəti dövründə kadrların siyasi mənsubiyyətə və şəxsi münasibətlərə əsasən təyinatı dövlət idarəçiliyini sarsıdan qərarların qəbuluna gətirib çıxarmışdı. Belə bir vəziyyətdə ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan dövlətçiliyi öz xilaskarını tapdı. Onun rəhbərliyi ilə ölkədə siyasi sabitlik bərqərar edildi, idarəetmədə intizam, məsuliyyət qaydaları yenidən formalaşdırıldı. Komandada fəaliyyət göstərən məmurların məsuliyyət hissi artırıldı, onların fəaliyyətinə yüksək meyarlarla yanaşmaq ənənəsi bərpa edildi.

Ulu öndər Heydər Əliyev yaxşı işləyən dövlət qulluqçularını mükafatlandırmaqla yanaşı, verilmiş göstərişləri lazımi səviyyədə yerinə yetirə bilməyən, qulluq səlahiyyətlərini aşan, xalq kütlələrində açıq narazılıq doğuran hərəkətlərə yol verən məmurları müşavirələrdə açıq ifşa edir, bu addım digərlərinə yaxşı örnək olurdu: "Azərbaycanın dövlət başçısı, prezidenti kimi mənə yaxşı işdən savayı heç bir mükafat vermək, xoş söz demək lazım deyil. Bunların heç biri mənə lazım deyil. Yaxşı işləyin, iş görün. Amma təmiz iş görün, mənəvi saflığı təmin edin. İşlərin yaxşı getməməsinin səbəblərindən biri də mənəviyyatın pozulmasıdır. Vəzifəli şəxs hamı üçün əxlaq nümunəsi olsun, saflıq nümunəsi, mənəvi təmizlik, işgüzarlıq nümunəsi olsun. Əgər bu, yoxdursa, əksinə, vəzifəli şəxslər rüşvət alırlarsa, yaxud insanların hüquqlarını tapdalayırlarsa, digər ayrı yollara gedirlərsə, onda başqalarından nə gözləmək olar?!" – bu sitat bir daha təsdiqləyir ki, Ulu öndər dövlət idarəçiliyində məmur məsuliyyəti meyarlarını düzgün müəyyənləşdirmiş, hər bir komanda üzvünün işinə xalqın rəyi əsasında qiymət vermiş, özünün zəngin təcrübəsini onlara təlqin etməyə çalışmışdır.

1995-ci il 12 noyabr tarixdə qəbul edilmiş mütəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası Azərbaycan dövlətçiliyinin hüquqi bazasını müəyyənləşdirmiş, idarəetmədə səlahiyyət bölgüsünü – qanunverici, icra və məhkəmə hakimiyyətinin müstəqil fəaliyyətini təmin etmişdir. Bu sənəd müasir hüquqi dövlətin təməlini qoymuş, idarəetmədə hüququn aliliyini, vətəndaşların hüquq və azadlıqlarının təminatını prioritet elan etmişdir.

Ümummilli lider Heydər Əliyevin 29 dekabr 1998-ci il tarixli "Azərbaycan Respublikasında dövlət idarəetmə sistemində islahatların aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında" fərmanı da bu mənada mühüm əhəmiyyət kəsb edir. Fərmanda göstərilirdi ki, cəmiyyətin demokratikləşməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarəetməsində dərin islahat başlanılması prinsipi müəyyənləşdirilmişdir. Fərmanda dövlət idarəetmə sisteminin səmərəliliyinin artırılması, iqtisadiyyatın tənzimlənməsi, dünyaya inteqrasiyasının təmini baxımından beynəlxalq standartlara cavab verən idarəetmə sisteminin, eləcə də hüquqi bazanın yaradılması vacibliyi vurğulanırdı.

Ümummilli liderin "Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında" 3 yanvar 1999-cu il tarixli fərmanının dövlət idarəçiliyi işinin təkmilləşdirilməsi, bu sistemdə mütəxəssislərin hazırlanması baxımından müstəsna əhəmiyyəti xüsusi vurğulanmalıdır. Müstəqillik dövründə dövlət idarəçiliyi sahəsində müasir təfəkkürə, yüksək savada malik ixtisaslı mütəxəssislərin yetişdirilməsi olduqca vacib məsələdir. Akademiyanın 26 illik fəaliyyəti də məhz bu məqsədlərin gerçəkləşdirilməsinə yönəlmişdir. Bu elm ocağı öz vəzifələrini uğurla yerinə yetirməyə çalışır və dövlət quruculuğu prosesinə mühüm töhfələr verməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2000-ci il tarixdə imzaladığı "Dövlət qulluğu haqqında" Qanun isə dövlət idarəçiliyinin norma və prinsiplərini, mahiyyətini, həyata keçirilmə formalarını əhatə edən təkmil sənəddir. Bir sıra beynəlxalq təşkilatlardan müsbət rəy almış həmin Qanun Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində münasibətləri, dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir. Qanunda göstərilir ki, dövlət qulluğu Azərbaycan Respublikası Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının vəzifə səlahiyyətlərini yerinə yetirməsidir.

Qanun dövlət orqanlarının struktur qurumlarında qulluq keçən dövlət qulluqçularına şamil edilir. Qanunun Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğuna qəbul olunmaq hüququna, bu sahədə müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə dair müddəaları prokurorluq, ədliyyə, milli təhlükəsizlik, daxili işlər, gömrük, vergi, xarici işlər və s. orqanlarında dövlət qulluğu keçən şəxslərə də aiddir. Hərbi qulluqçular, o cümlədən müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrin işçiləri isə qanunla dövlət qulluqçusu sayılmırlar.

Qanuna əsasən, Azərbaycan Respublikası Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması, qəbulu, icrası və icrasına nəzarət, eləcə də dövlət orqanlarının səmərəli fəaliyyəti və dövlət qulluqçuları tərəfindən qulluq funksiyalarının icrasının təmin edilməsi dövlət qulluğunun əsas vəzifələri kimi təsbit olunmuşdur.

Eyni zamanda, vətəndaşların dövlət qulluğuna müsabiqə əsasında cəlb edilməsi və bu sahədə şəffaflığın təmin olunması, vətəndaşların öz qabiliyyətlərinə, xidmət nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunda hər hansı bir vəzifəni tutmaqda hüquq bərabərliyi, irqindən, etnik mənsubiyyətindən, dilindən, cinsindən, sosial mənsubiyyətindən, ailə, əmlak və qulluq vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən və s. asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi, onların sosial və hüquqi müdafiəsi, özləri və ailələri üçün layiqli həyat səviyyəsinin təmin edilməsi, dövlət orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş zərərə görə dövlət orqanlarının məsuliyyət daşıması qanunda öz əksini tapmışdır.

Göründüyü kimi, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi idarəetmə və kadr siyasəti müstəqil Azərbaycanın dövlət idarəçiliyi sisteminin təməlini təşkil edir. Bu strateji xətt son 22 ildə Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir. Kadr potensialının formalaşdırılması, peşəkar və vətənpərvər dövlət qulluqçularının hazırlanması ölkənin davamlı inkişafını təmin edən əsas amillərdəndir.

Son illərdə bu sahədə həyata keçirilən ardıcıl islahatlar dövlət idarəetməsinin effektivliyini artırmaqla yanaşı, vətəndaş məmnunluğunun yüksəldilməsinə, dövlətin ictimai institutlarla qarşılıqlı fəaliyyətinin daha şəffaf və hesabatlı mexanizmlərlə tənzimlənməsinə şərait yaratmışdır. Dövlət qulluqçularının cəmiyyət və dövlət qarşısında rolunu və məsuliyyətini qiymətləndirmək məqsədilə 23 iyun tarixi Azərbaycan Respublikasında Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi qeyd olunur. Prezident İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis edilmiş bu bayram BMT Baş Məclisinin Dövlət Qulluğu Günü ilə bağlı qərarına uyğunlaşdırılmış, dövlət qulluğunun milli və beynəlxalq səviyyədə əhəmiyyətini əks etdirən mühüm tarixə çevrilmişdir. Bu sərəncam həm də dövlət qulluqçularının peşəkarlığına, etik davranışına və xalqla səmərəli münasibət qurmaq bacarığına verilən siyasi qiymətin bariz nümunəsidir.

2018-ci ildən sonra ölkəmizdə geniş vüsət alan institusional islahatlar idarəetmənin səmərəliliyinin artırılması ilə yanaşı, dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi məqsədinə də xidmət edir. Dövlət başçısının təşəbbüsü ilə ardıcıl olaraq həyata keçirilən sosial islahatlar çərçivəsində dövlət qulluqçularının məvacibləri mərhələli şəkildə artırılır. Bu proses dövlət qulluğuna olan marağın artmasına, bu peşənin cəmiyyətdə nüfuzunun yüksəlməsinə, insan kapitalının dövlət sektoruna cəlb edilməsinə münbit şərait yaradır. İslahatların ümumi məntiqi göstərir ki, dövlət idarəçiliyində keyfiyyət dəyişiklikləri yalnız hüquqi mexanizmlərlə deyil, həm də sosial-siyasi, mənəvi komponentlərlə uzlaşdırılaraq həyata keçirilir. Dövlət qulluqçularının sosial rifahının yüksəldilməsi, əməyin stimullaşdırılması və peşəkarlığının təşviqi idarəçilik keyfiyyətinin artırılması ilə bilavasitə bağlıdır.

Prezident İlham Əliyev dövlət qulluğu institutunun davamlı inkişafını strateji prioritet kimi müəyyənləşdirir, kadr siyasətində çeviklik, şəffaflıq və peşəkarlığın artırılması istiqamətində mühüm addımlar atır. Aparılan sistem xarakterli islahatlar – dövlət qulluqçularının fəaliyyətinin çevik, şəffaf və innovativ meyarlar üzərində qurulması, ilk növbədə, vətəndaş məmnunluğunun artırılmasına yönəlmişdir. Dövlət başçısının siyasi iradəsi ilə son 7 ildə mərkəzi və yerli icra hakimiyyəti strukturlarında geniş kadr dəyişiklikləri aparılmışdır. Bu dəyişikliklər dövlət idarəetməsində yeni düşüncə tərzinin və müasir yanaşmaların tətbiqini sürətləndirmiş, ictimai rəyin daha həssas nəzərə alındığı mühitin formalaşmasına zəmin yaratmışdır.

Həyata keçirilən kadr siyasəti, ilk növbədə, gənc, yüksək ixtisaslı, təşəbbüskar və ictimai fəallığı ilə seçilən şəxslərin dövlət idarəçiliyinə cəlb edilməsini hədəfləyir. Yeni təyin olunan şəxslərin öz sahələrində kreativ yanaşmaları, vətəndaşlarla açıq dialoq qurmaq bacarığı və idarəetmədə şəffaflığa üstünlük vermələri dövlət xidmətlərinə olan etimadın artmasına səbəb olur. Paralel olaraq, yeni idarəetmə tələblərinə uyğunlaşmaqdan imtina edən, korrupsiya və digər hüquqazidd əməllərlə məşğul olan məmurlara qarşı sərt tədbirlərin görülməsi qanunun aliliyinin təminatı baxımından mühüm rol oynayır.

Prezident İlham Əliyevin tez-tez vurğuladığı mühüm məqamlardan biri də dövlət qulluqçularının insanlarla səmimi münasibət qurması, təvazökar davranması və nümunəvi vətəndaş obrazını formalaşdırmasıdır. Dövlət qulluqçusunun həm də dövlətin vətəndaş qarşısında təmsilçisi və siması olması yanaşması bu sahədə etik və mənəvi meyarların aktuallığını artırır.

Son on beş ildə ölkədə yaradılmış "ASAN Xidmət", "ASAN Kommunal" və "DOST" mərkəzləri də dövlət-vətəndaş münasibətlərində yeni mərhələnin başlanğıcını qoymuşdur. Bu xidmətlərin əsas məqsədi dövlət idarəçiliyində vətəndaşa xidmət anlayışını önə çəkmək, bürokratik maneələri aradan qaldırmaq, operativliyi və şəffaflığı təmin etməkdir. Müasir dünya Azərbaycan brendi olan "Asan Xidməti"i öyrənir və tətbiqi məqsədilə ölkəmizin dəstəyindən istifadə edir. Bu günlərdə daha bir ölkədə - Efiopiyada "ASAN xidmət" modeli əsasında yaradılmış "MESOB" dövlət xidmət mərkəzinin rəsmi təqdimatının keçirilməsi deyilənləri təsdiq edir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya" dövlət idarəetməsinin mühüm institutlarından biri olan dövlət qulluğu sisteminin inkişafı məqsədi ilə əsas hədəfləri müəyyən edən çoxşaxəli mükəmməl sənəddir. Strategiyanın məqsədi dövlət qulluğunda insan resurslarının idarə edilməsində müasir texnologiyaların tətbiqi, kadr potensialının artırılması, dövlət qulluqçularının etik və peşəkar keyfiyyətlərinin yüksəldilməsi, dövlət idarəetməsinin səmərəliliyinin artırılmasıdır. Strategiyanın həyata keçirilməsi dövlət idarəetməsində şəffaflıq, hesabatlılıq və peşəkarlıq prinsiplərinin güclənməsinə real töhfə vermişdir.

Sonda xüsusi vurğulamaq istərdik ki, 23 iyun – Dövlət Qulluqçularının Peşə Bayramı Günü təkcə dövlət qulluqçularının peşə bayramı deyil, həm də dövlətin idarəetmədə keyfiyyət, səmərəlilik və insan amilini əsas götürən islahatlarının strateji yanaşmasının təzahürüdür. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində dövlət qulluğu sistemi davamlı təkmilləşir, vətəndaşa xidmət prinsipi əsas meyara çevrilir. Bu addımlar dövlət idarəetməsinin modernləşdirilməsi prosesinin dönməz və sistemli xarakter daşıdığını göstərir. Azərbaycanın dövlət qulluğu modeli təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də uğurlu və effektiv idarəetmə nümunəsi kimi tanınır.

***İsaxan VƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor***

# Milli Məclisin növbəti iclası

**İyunun 21-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib.**






Parlamentin sədri Sahibə Qafarova iclasda 16 məsələnin müzakirə ediləcəyini, gündəliyin ilk 5 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi barədə məlumat verib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Torpaq Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Mülki Məcəllədə, "Notariat haqqında" və "İcra haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov "Yaşayış minimumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Pambıqçılıq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Qiymətli kağızlar bazarı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Qanun layihələri ayrı-ayrılıqda müzakirə olunduqdan sonra üçüncü oxunuşda qəbul edilib.

Parlamentin sədri gündəliyin növbəti 2 məsələsinin bir oxunuşda qəbul ediləcək qanun layihələri olduğunu bildirib. O, növbəti məsələnin "Azərbaycan Respublikası Hökuməti ilə Şimali Makedoniya Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu deyib. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bu məsələ barədə məlumat verib. Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Bədəl Bədəlov "Elektroenergetika haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumatı nəzərə çatdırıb. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

S.Qafarova gündəliyin digər 6 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu nəzərə çatdırıb. O, növbəti məsələnin "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (birinci oxunuş) olduğunu bildirib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsini təqdim edib.

Komitə sədri bildirib ki, Konstitusiya Qanunu layihəsində Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına 2 yeni maddənin əlavə edilməsi, 1 maddənin çıxarılması, bir sıra maddələrdə və Preambula hissəsində isə dəyişikliklər edilməsi nəzərdə tutulur. Layihəyə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmağı ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının Preambulasında da öz əksini tapacaq.

Konstitusiyaya əlavə edilməsi nəzərdə tutulan "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı 3-1-ci maddəyə əsasən, Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Prezidentə tabe olan Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi həyata keçirir.

Layihəyə əlavə edilməsi nəzərdə tutulan "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması" adlı 28-1-ci maddədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatının tələbi ilə və ya Konstitusiyanın müvafiq maddələrində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra edə bilmədikdə ölkə Prezidenti tərəfindən buraxılması qeyd olunur.

Diqqətə çatdırılıb ki, sənəddə nəzərdə tutulan dəyişikliklərdən biri də "Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi" adlı 5-ci maddənin çıxarılmasıdır. Digər dəyişikliyə əsasən, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifləri əsasında Azərbaycan Prezidenti tərəfindən təyin ediləcək. Layihədə, habelə Azərbaycan Prezidentinin və ya Milli Məclisin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qapalı iclasının keçirilə bilməsi nəzərdə tutulur. Bununla yanaşı, layihəyə əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər və Ali Məclisin deputatlarının statusuna dair qanunlar 31 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 23 səs çoxluğu ilə qəbul ediləcək. Habelə Ali Məclisin sədri seçilmək üçün Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşamaq tələbi aradan qaldırılacaq.

Qeyd edilib ki, digər dəyişiklik Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətləri başçılarının Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin edilməsi ilə bağlıdır. Həmçinin layihəyə əsasən, Muxtar Respublikanın Nazirlər Kabineti Naxçıvan Ali Məclisinə tabe olmayacaq və iş qaydasını Azərbaycan Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirəcək.

Sənədə əsasən, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının qərar deyil, sərəncam adlandırılması təklif olunur. Habelə Muxtar Respublikanın Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları yox, qanunlar qəbul ediləcək. Layihədə, həmçinin Azərbaycan Konstitusiyasına uyğunlaşdırma, dəqiqləşdirmə və texniki xarakterli bir sıra dəyişikliklər nəzərdə tutulub.

Məsələ ilə bağlı müzakirələrdə deputatlar öz fikir və qeydlərini açıqlayıblar. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanunu layihəsinin (birinci oxunuş) mahiyyəti barədə danışıb.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi ilə əlaqədar olaraq, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa müvafiq dəyişikliyin edilməsi təklif olunur. Burada məqsəd Naxçıvan Konstitusiyasına ediləcək dəyişikliklərdən sonra "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 2.10-cu maddəsində yarana biləcək uyğunsuzluğun aradan qaldırılmasıdır. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

"Polis haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Komitə sədri Əli Hüseynli məlumat verib. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

"Müdafiə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev təqdim edib. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin 13-cü məsələsini - Mülki Məcəllədə, Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib.

O bildirib ki, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan layihədə bir çox qanunlarda və məcəllələrdə dəyişikliklər nəzərdə tutulub.

VI çağırış Milli Məclisin fəaliyyəti dövründə Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında qanun qəbul edildiyini deyən komitə sədri bu qanunla süni torpaq sahələrinə xüsusi status verildiyini, bu sahədə həm hüquqi bazanın gücləndirildiyini, həm də hüquqi boşluqların aradan qaldırıldığını bildirib. Qanunun qəbulundan sonra yaradılan süni torpaq sahələrində və ona bitişik sahilboyu zolaqda, yeni infrastruktur layihələrinin icra olunduğu deyən komitə sədri süni torpaq sahələrinin yaradılması ilə bağlı qanunun qəbulunun bütövlükdə ölkəmiz üçün pozitiv nəticələrini və iqtisadi səmərəliliyini vurğulayıb.

Əli Hüseynli diqqətə çatdırıb ki, təqdim olunmuş qanun layihəsində "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Qanuna yeni 3-1-ci fəslin ("Süni torpaq sahələrində sahibkarlıq fəaliyyəti" adlı) əlavə olunması təklif edilib. Bu qanunun məqsədi konseptual baxımdan başlıca olaraq süni torpaq sahələrində sahibkarlığın və investisiya fəaliyyətinin həyata keçirilməsinin təşviq olunmasıdır.

Layihənin 8-1-ci maddəsi süni torpaq sahələrində bütövlükdə sahibkarlığın inkişafına şərait yaradılmasını ehtiva edir, 8-2-ci maddəsində isə kazino oyunlarının yalnız süni torpaq sahələrində, qanunvericiliyin tələbləri nəzərə alınmaqla təşkil edilməsinə icazə verilir. Komitə sədri vurğulayıb ki, qanun layihəsi mövcud normativ bazanın dəqiqləşdirilməsinə, eləcə də oyun biznesinin leqallaşdırılması yolu ilə dövlət nəzarətinin artırılmasına xidmət edir. Bu qeyd olunan məsələlərin tənzimlənməsi məqsədilə layihədə digər qanunvericilik aktlarına müvafiq dəyişikliklər təklif edilir.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov qanun layihəsi barədə çıxış edib. O bildirib ki, təqdim edilən layihəyə görə, süni torpaq sahələrində qanunla qadağan olunmayan bütün sahibkarlıq fəaliyyəti növləri həyata keçirilə bilər. Qeyd olunub ki, süni torpaq sahəsi dedikdə, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan torpaq sahəsi başa düşülür. Bu sahədə isə ən perspektivli fəaliyyət istiqaməti məhz premium və elit turizmin inkişaf etdirilməsi ilə bağlıdır. Ölkəmizdə premium seqmentli turizmin inkişafı və müvafiq infrastrukturun qurulması üzrə təşəbbüslər və perspektivlər var. Turizmin bu seqmenti yüksək keyfiyyət standartları, müasir infrastruktur, komfort istirahət şəraiti ilə yanaşı, əyləncə xarakterli tamamlayıcı elementlərin olmasını da tələb edir. Təqdim edilən layihə süni torpaq sahələrində sahibkarlıq fəaliyyətinə hərtərəfli şərait yaratmaqla yanaşı, premium turizmin bir komponenti olaraq "oyun turizmi"nin təşkili üçün də hüquqi əsaslar yaradır. Belə bir hüquqi bazanın yaradılması təşəbbüsü heç də ölkə ərazisində "oyun biznesi"nin təşviqi və ya təbliği anlamına gəlmir. Komitə sədri vurğulayıb ki, layihədə 9 normativ-hüquqi akta edilən dəyişikliklərin heç biri bu cür oyunların keçirilməsini təşviq etmir. Əksinə, xüsusi reqlamentləşmə və məhdudiyyətlərin tətbiqi gözlənilir. Bir çox ölkələrdə "oyun biznesi" üçün liberal iqtisadi və hüquqi rejim formalaşdırıldığı halda, layihəyə görə ölkəmizdə bu sahə üzrə ciddi nəzarət və tənzimləmə nəzərdə tutulur. Eyni zamanda, 21 yaşadək şəxslərin uduşlu oyunlara buraxılmasına yol verilmir. Bütün bunlar onu göstərir ki, layihədə bu məsələyə liberal deyil, mühafizəkar yanaşma var. Belə bir mövqe həm də həssas vətəndaş kateqoriyalarını qorumaq niyyətindən irəli gəlir.

İkincisi, layihəyə əsasən bu cür oyunlar xüsusi və məhdud bir ərazidə - yalnız və yalnız süni yaradılmış torpaq sahələrində təşkil edilə bilər. Bu artıq coğrafi məhdudiyyətin tətbiq edilməsi deməkdir.

Üçüncüsü, ölkəmizin quru ərazisində, başqa sözlə, materik hissəsində "oyun biznesi"nin təşkili və keçirilməsi qadağan edilib. "Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" 1998-ci il 27 yanvar tarixli Prezident Sərəncamı bu gün də qüvvədədir. Həmin Sərəncam ölkə ərazisində pul uduşlu oyunların keçirilməsinə qarşı sərt tədbirlərin görülməsi ilə bağlı tapşırıqlardan ibarətdir. Buna görə də, layihə heç də qeyri-qanuni fəaliyyət göstərən ənənəvi və ya virtual kazinoların leqallaşdırılmasını nəzərdə tutmur. Hər bir halda bu leqallaşma deyil. Əksinə, təqdim edilmiş layihənin qəbul edilməsi qeyri-qanuni pullu oyunların təşkilinə qarşı mübarizəni həm aktuallaşdıracaq, həm də sərtləşdirəcək.

Dördüncüsü, pul uduşlu oyunların keçirildiyi əyləncə yerləri sərt lisenziyalaşma əsasında fəaliyyət göstərəcəklər. Bu "Lisenziyalar və icazələr haqqında" Qanuna dəyişikliklərdə əksini tapır. Lisenziyaların alınmasına görə yüksək məbləğdə dövlət rüsumunun müəyyən edilməsi də bu sahədə məhdudiyyətin bir göstəricisidir. Belə ki, rüsumun təklif edilən məbləği hər il təkrar ödənilmək şərti ilə 340 min manat təşkil edir. Bu məqsədlə "Dövlət rüsumu haqqında" Qanuna dəyişikliklər təklif olunur. İcazə və lisenziya tələb olunan fəaliyyət sahələrindən heç biri bu məbləğdə dövlət rüsumuna cəlb edilmir.

Komitə sədri bildirib ki, reallıqda əyləncə və oyun turizmi bölgəyə xarici turist axınını artırır, otellər, restoranlar və digər xidmət sahələri üçün yeni iş yerlərinin açılmasına səbəb olur, xarici və yerli investisiyaların turizm infrastrukturuna cəlb edilməsinə imkan verir, büdcə üçün əlavə gəlir mənbəyi yaradır, ölkəyə xarici valyuta axını kanallarından birinə çevrilir. Bununla belə, müzakirə etdiyimiz layihə qətiyyən ölkəmizdə "kazino iqtisadiyyatı"nın və ya şəbəkəsinin qurulmasını nəzərdə tutmur. Əgər belə təsəvvürlər varsa, tamamilə yanlışdır. "Oyun biznesi" yalnız və yalnız elit turizmin sadəcə bir tamamlayıcı elementi və ya komponentidir. Oyun biznesinin gələcəkdə iqtisadiyyatımıza müəyyən dolayı təsirləri olsa da, o Azərbaycanda nə sahibkarlıq fəaliyyətinin, nə qeyri-neft sektorunun əsasını təşkil etmir. Nə dövlətimiz, nə də cəmiyyətimiz ölkəmizin gələcək iqtisadi inkişafı ilə bağlı gözləntilərini tamamilə bu sahə ilə bağlamır. Oyun biznesi ölkəmizdə lisenziyalaşdırılan və icazə tələb edən 160-a yaxın sahibkarlıq və iqtisadi fəaliyyət növündən yalnız biridir. Bundan başqa, Azərbaycanda 2024-cü ilin nəticələrinə əsasən, fəaliyyətdə olan sahibkarlıq subyektlərinin sayı 322 mindən çoxdur. Bunun təkcə 76 mini hüquqi şəxs olan sahibkarlardır. Bir çox hallarda "oyun biznesi"nin təşkili çirkli pulların yuyulması təsəvvürünü yaradır. Lakin təqdim edilən layihənin müddəalarına əsasən, "oyun biznesi" "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunun təsir dairəsinə düşür. Bu məqsədlə, adıçəkilən qanuna bununla bağlı müvafiq dəyişikliklərin edilməsi təklif olunur. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin sədri gündəliyin son 3 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu deyib. O, növbəti 2 məsələnin Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib.

Sonra Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının qanun layihəsi (ikinci oxunuş) barədə məlumatı təqdim edib. Komitə sədri Azər Əmiraslanov "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb.

Sonra Sadiq Qurbanov "Elektroenergetika haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

---

# Müstəqilliyimiz əbədidir: Azərbaycan dünya birliyində artıq özünə layiq yer tutub




**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 8-ci kitabı çapdan çıxıb.**

Bu kitabda yer alan materiallar 1995-ci il iyunun 23-dən sentyabrın 20-dək olan dövrü əhatə edir. Nəşrə Ulu Öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri, məktubları daxil edilib.

Kitabda ümummilli lider Heydər Əliyevin 1995-ci il 15-17 mart hadisələrinə həsr olunmuş toplantıda geniş nitqi, Bolqarıstan və Rumıniyaya səfərlərinə dair materiallar verilib. Bolqarıstan Xalq Məclisində nitq söyləyən ulu öndər Heydər Əliyev Azərbaycanın çoxmillətli respublika olduğunu, burada yaşayan bütün xalqların milli mənsubiyyətindən, dilindən, dinindən, siyasi baxışından asılı olmayaraq, eyni hüquqa malik olduğunu diqqətə çatdırıb. Həmin nitqində Ümummilli lider Azərbaycanın dünyada layiqli yer tutduğunu vurğulayaraq deyib: "Azərbaycan Respublikası dünya birliyində artıq özünə layiq yer tutubdur, beynəlxalq təşkilatların əksəriyyətinin üzvüdür və bu təşkilatlarda öz sülhsevər, mütərəqqi xarici siyasətini həyata keçirir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bundan sonra da qoruyacaq və bir müstəqil dövlət kimi, bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr yaradılması yolu ilə gedəcəkdir".

Çoxcildliyin 8-ci kitabına ümummilli lider Heydər Əliyevin Buxarestdə Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı üzvlərinin dövlət və hökumət başçılarının Zirvə toplantısında nitqinin mətni də daxil edilib.

Ulu öndər Heydər Əliyev iştirak etdiyi bütün tədbirlərdə, dövlət və hökumət başçıları ilə görüşlərində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyondan çox insanın doğma yurdundan didərgin düşdüyünü, həmçinin erməni işğalçı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin həyata keçirilməsinin vaxtı çatdığını vurğulayıb.

Oxucular bu kitabda ulu öndərin Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın iclasında nitqinin mətni ilə də tanış ola bilərlər.

Dahi rəhbər Heydər Əliyev 1995-ci il avqustun 18-də Məhəmməd peyğəmbərin mövludu günü münasibətilə Təzədir məscidində dindarlarla görüşüb. Həmin görüşdə Ümummilli lider gələcək nəsillərin də İslam yolu ilə getməsinin vacibliyini bildirib: "Biz bu bayramı böyük iftixar hissi ilə qeyd edirik. Ona görə ki, bizim müqəddəs "Qurani-Kərim" kitabımız var. Ona görə ki, biz müsəlmanlar Allahın qoyduğu yol ilə, Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedərək nailiyyətlərdən-nailiyyətlərə çatmışıq. Bu günlər biz bir daha Məhəmməd peyğəmbərin qoyduğu yola sədaqətimizi, hörmətimizi, ehtiramımızı bildiririk. Bir daha dua edirik ki, bütün gələcək nəsillər də bu yolla getsinlər. Həyatımızda rastlaşdığımız çətinliklərdən çıxmaq üçün Allah-taala, müqəddəs İslam dinimiz bizə dayaq olsun, kömək olsun. Müstəqil Azərbaycan Respublikası öz tarixinin mürəkkəb bir dövrünü yaşayır. Bu dövrün çox müsbət, xoşbəxt cəhətləri də var. Eyni zamanda, ağır, çətin, kədərləndirici cəhətləri də var". Ümummilli liderin nitqinin mətni 8-ci cilddə verilib.

Bu nəşrdə ümummilli lider Heydər Əliyevin respublikada kənd təsərrüfatının inkişafı və aqrar islahatların həyata keçirilməsi məsələlərinə həsr olunmuş geniş müşavirədə nitqi də yer alıb.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Uydurma "hücum"un yaratdığı qorxu sindromu

## *Yaxud İrəvanın "təcavüzkar Azərbaycan" nağılının son akkordları barədə*

**Erməni cəmiyyətini müharibə qorxusu altında saxlamaq rəsmi İrəvanın diplomatik gedişi imiş. Yaxın tarixdən məlumdur ki, hər bir konkret şəraitdə ictimai diqqəti əsas məsələdən yayındırmaq üçün təzə "səbəblər" axtarılır. Əgər bunun üçün real zəmin yoxdursa, əvəzində uydurma səbəblər dövriyyəyə buraxılır. Bu zaman ictimai rəyi manipulyasiya etməkdən ötrü feyk-xəbərlər işə salınır. Amma heç bir halda informasiya siyasətinin mahiyyəti dəyişmir: "Bakı İrəvana "yerinə yetirilməsi mümkün olmayan şərtlər" irəli sürür, bunlar yerinə yetirilməzsə, Azərbaycan təcavüzə əl atacaq".**

Rəsmi İrəvan erməni cəmiyyətində məhz qorxu fonunda çox böyük problemlərlə üzləşə biləcəyi qənaətini formalaşdırmaq məqsədini, müəyyən mənada, reallaşdırmağı bacardı. Fəqət, qorxu ilə yaradılmış bu qənaətin uzun müddət duruş gətirəcəyi mümkün deyildi. Axı, bölgənin bütün ölkələri və xalqları kimi haylar da yaxşı başa düşürlər ki, artıq rəsmi Bakı qlobal miqyasda söz sahibinə çevrilib və proseslərdə yaxından iştirak edir. Anladılar ki, Ermənistandan fərqli olaraq, Azərbaycan regionda və dünyada cərəyan edən proseslərdə nəzərə alınan ciddi aktordur. İndi onlar beyinlərini məşğul etmiş ikinci problemlə çarpışırlar. Bu, reallığı olduğu kimi qəbul və həzm edə bilməmək sindromudur. Əslində, haylar, ən azı, son 200 ildə özlərinə düşmən hesab etdikləri Azərbaycanın böyük nüfuz və söz sahibi olacağı qorxusu ilə yaşayıblar. İndi qorxulu yuxularının çin olduğunu görmək və bununla barışmaq heç də asan deyil.

*

Qayıdaq Ermənistan hakimiyyətinin beynəlxalq dövriyyəyə buraxmağa çalışdığı "təcavüzkar Azərbaycan" mifinə. "Kollektiv Qərb"in də hərtərəfli dəstək verdiyi saxta ittihamlar nə hansısa fakt və sübutla, nə sülh danışıqlarının real dinamikası ilə, nə də müharibəyə hazırlıqdan xəbər verə biləcək rəsmi bəyanatlarla təsdiqləndi. Bunun bariz nümunəsini 2024-cü ildə təxribatçı dezinformasiyalar, siyasi bəyanatlar dalğasının Bakıda planlaşdırılan COP29 iqlim sammiti ərəfəsində geniş vüsət almasında gördük. Bir il əvvəl bəzi erməni analitiklər iddia etdilər ki, "Azərbaycan özünün danışıqlarda mövqeyini daha da gücləndirmək üçün BMT-nin sammitindən sonra ərazi məsələlərini həll etməyə çalışacaq". Bu feyk-tezis ildırım sürətilə sosial mediada, Qərbin ermənipərəst ekspert dairələrində əks-səda doğurdu. İntəhası, son nəticədə bu iddiaların da məntiqdən və sübutdan məhrum olduğu ortaya çıxdı. COP29-un üstündən aylar keçsə də, "proqnozlaşdırılan hücum" baş vermədi.

Amma Qərbin haypərəst ideoloji maşını öz işində idi. Xaricdəki erməni lobbisinə satılmış bəzi media qurumları, siyasi şərhçilər öz qiymətləndirmələrinə yenidən baxmaq əvəzinə, sadəcə olaraq, gündəmi dəyişdilər. Misal üçün, Ermənistan parlamentinin keçmiş deputatı Tatevik Ayrapetyan bəyan etmişdi ki, "Antoni Blinken, Ursula Fon der Lyayen və baş nazir Paşinyan arasında görüş (2024-cü il aprelin 5-də Praqada keçirilib - red.) ərəfəsində Bakı Ermənistana növbəti hücuma hazırlaşır". Bu zaman, o, Azərbaycan Müdafiə Nazirliyinin "yeni eskalasiya baş verəcəyi təqdirdə məsuliyyəti Ermənistan tərəfi və müttəfiqləri daşıyacaq" bəyanatına istinad etmişdi. Ayrapetyan şərti sərhəddə artan erməni təxribatları fonunda bunu "Bakının təcavüzkar niyyətinin" sübutu kimi göstərirdi.

2025-ci ilin yanvarında "qaçılmaz hücum" mövzusu davam etdirildi. Bu dəfə Nerses Kopalyanın müəllifi olduğu və "Azərbaycan nə üçün tezliklə Ermənistana hücum etməli olduğunu düşünür" başlıqlı analitik hesabat formasında. Amma yenə də Azərbaycanın təcavüzə hazırlaşdığını göstərən heç bir sübut göstərmədən. Bu cür nağıllar ara-sıra ictimai rəyin menyusuna salınır. İntensiv tirajlanan yeni müharibə



ilə bağlı dezinformasiya istər rəsmilərdə, istər siyasi cameədə, istərsə də ictimaiyyətdə, bir növ, qorxu sindromu formalaşdırıb. Haylar uydurduqları versiyanı o qədər təkrarladılar ki, sonda özləri də "Azərbaycanın Ermənistana gözlənilən hücumuna" inanmağa başladılar.

*

Sülh danışıqlarında Bakıya siyasi təzyiq vasitəsi kimi üfürülən avantürist bəyanatların müəlliflərindən bəzilərinin Ermənistanın xüsusi xidmət orqanları ilə əlaqəli işlədiyi şübhə doğurmur. Təlimat əsasında hərəkət edənlərin məqsədləri Azərbaycana qarşı beynəlxalq təzyiqi artırmaq, Ermənistanı müdafiəyə ehtiyac duyan tərəf kimi təqdim etmək və onun "mümkün təcavüzün qurbanı" obrazını yaradaraq Qərb paytaxtlarından dəstək qazanmaq idi. Bu məqsədlərə çatmaqdan ötrü Bakının hətta ən neytral bəyanatı belə İrəvana təhdid kimi qələmə verilir və şərh olunurdu.

Erməni ictimaiyyətini kütləvi zombiləşdirməyə yönəlik bu cür dez-fəaliyyətə baş vuranlar Azərbaycanla sülh müqaviləsini bağlamaq ideyasını pozmağa, bunu təhlükəli addım kimi təqdim etməyə çalışırlar. Bu zaman arqumentasiya aşağıdakı "sadə məntiqə" əsaslanır: əgər Azərbaycan onsuz da "hücuma keçəcəksə, o zaman hər hansı sülh təşəbbüsləri erməni tərəfini zəiflədəcək". Yəni, Azərbaycana qarşı ittihamlar müxalifətin əlində təkcə "xarici düşmənə" qarşı deyil, həm də daxili siyasi rəqibə – baş nazir Paşinyana və onun münasibətlərin nizamlanması, barışıq kursuna qarşı mübarizə alətinə çevrilirdi.

Maraqlı paradoks yaranır: Ermənistan daxilində əks mövqedə olan siyasi qüvvələr eyni taktikadan yararlanırlar: Bakını "təcavüzə" hazırlaşmaqda ittiham etmək.

Təsadüfi deyil ki, "hücum", "qaçılmazlıq", "tətil", "eskalasiya", "istefa" kimi ifadələr bir çoxlarının siyasi leksikonunda yer alır.

Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycana qarşı ittihamlar hadisələrə reaksiya çərçivəsindən çoxdan çıxıb və rəsmi İrəvan üçün siyasi texnologiyanın tərkib hissəsinə çevrilib. Bu texnologiya reallığı təhrif etmək, həm daxili auditoriyaya, həm də beynəlxalq ictimaiyyətə təsir göstərmək vasitəsidir. Yəni, bu, sadəcə, ekspert fəaliyyəti ilə məhdudlaşmayıb, reallığı təhrif etməyə yönəlmiş məqsədyönlü dezinformasiya siyasətidir.

*

İllər boyu rusların "ətəyindən yapışan", amma qəflətən əlləri üzülən, sonra da İranın böyrünə qısılan haylar həm də ümidsizlik girdabına düşməyin qorxusunu yaşayırlar. Bu qorxunun özlərinə böyük problem yaratdığını isə gec də olsa anlamağa başlayıblar. İran Prezidenti Məsud Pezeşkianın Bakıya səfərində "Burada özümü yad ölkədə hiss etmirəm. Sanki Təbrizdə, Ərdəbildəyəm. Sanki doğulub boya-başa çatdığımız və yaşadığımız Azərbaycandayam" sözləri ermənilərin gözlərini bərəldib, onları böyük qorxuya düçar edib.

Üzlərinə dirənən reallıqları görmək məcburiyyətində qalan haylar bundan əməlli-başlı bədbinliyə qapılıblar. Erməni cəmiyyətini qorxuya salan məqamlardan biri də son vaxtlar Azərbaycanın ABŞ kimi fövqəldövlətlə münasibətlərinin getdikcə daha da yaxşılaşmasıdır. Yəqin haylar yaxın zamanda ABŞ Prezidentinin də Azərbaycan barədə eynilə Məsud Pezeşkian kimi fikirlər səsləndirəcəyindən qorxurlar.

Rəsmi İrəvanın güzəştə getməkdən savayı yolu yoxdur. Ermənistanın ağıllı başları yaxşı başa düşürlər ki, çıxılmaz vəziyyətdədirlər. Onlar içlərinə transplantasiya edilmiş qorxu sindromundan xilas olmalı, həqiqəti yalandan ayırmağı bacarmalıdırlar. Yalnız bundan sonra irəliləyişdən danışmaq olar...

***İmran BƏDİRXANLI***
***XQ***

---

**"İstanbulda Prezident Rəcəb Tayyib Ərdoğanla ətraflı söhbətim oldu". Bunu Ermənistanın baş naziri Nikol Paşinyan özünün "X" sosial şəbəkəsindəki hesabında yazıb. Nikol həmçinin bildirib ki, tərəflər münasibətlərin normallaşma prosesini, regional inkişafı və daimi dialoqun vacibliyini vurğulayıblar. Paşinyanın verdiyi mesaj isə budur: "Ermənistan bölgəmizdə sülh və sabitliyin qurulmasına sadiq qalır".**

# Paşinyanın Türkiyə səfəri: Ankara–Bakı–İrəvan oxu

## *Ermənistan nəticə çıxarmalı, dərs götürməlidir*

Əslində, erməni baş nazirin pozitiv ovqata köklənməkdə yanılmadığını Türkiyə Prezidentinin Kommunikasiya İdarəsinin məlumatı da təsdiqləyir. İdarədən bildirilib ki, Prezident Ərdoğanla Paşinyanın görüşündə müzakirələr ikitərəfli münasibətlərin normallaşması və Cənubi Qafqazda dialoqun irəliyə doğru aparılması istiqamətlərini əhatə edib.

Məlumatda o da bildirilib ki, tərəflər Türkiyə və Ermənistan arasında mövcud təmasları, eləcə də normallaşma prosesi çərçivəsindəki növbəti perspektivləri nəzərdən keçiriblər. Xüsusi diqqət Bakı və İrəvan arasında sülh danışıqları nəticəsində əldə olunmuş razılaşmalara yönəlib. Ərdoğan bildirib ki, Ankara qarşılıqlı fayda prinsipləri əsasında regionun inkişafını hədəf seçən təşəbbüsləri dəstəkləmək kursunu davam etdirəcək.

Ərdoğan Paşinyanla görüşdə həmçinin qeyd edib ki, ölkəsi regionda sabitliyi möhkəmləndirmək üçün bütün diplomatik kanallardan yararlanır. Türkiyə lideri İsrail–İran qarşıdurmasının ayrı-ayrı məqamlarına diqqət çəkərək, gərginliyin azaldılması istiqamətində səylərin əhəmiyyətini vurğulayıb. O, vəziyyətin daha mürəkkəb xarakter almasının qarşısını almaq üçün region liderləri ilə sıx məsləhətləşmələr apardığını deyib. Vacib məqamlardan biri də budur ki, Türkiyə Prezidentinin Kommunikasiya İdarəsinin məlumatında Paşinyanın səfərinə sözügedən gərginliyin törətdiyi təhlükəsizlik çağırışları fonunda yaşanmış hadisə prizmasından yanaşılıb və səfər Ankaranın inkişafına çalışdığı dialoq prosesindəki mühüm addım kimi qiymətləndirilib.

Belə nəticəyə gəlmək olar ki, Türkiyə tərəfi Ermənistanın regiondakı mürəkkəb siyasi situasiyanın əlavə gərginlik mərkəzi olmayacağını vurğulayır. Əslində, Paşinyanın Prezident Ərdoğanla təmasdan əvvəl qardaş ölkənin erməni icması ilə görüşdə dedikləri də onu göstərir ki, rəsmi İrəvan regional gərginliyə motivə deyil, hansısa başqa planlar qurmur, onun öz gündəmi var. Gündəm isə aydındır. Birincisi, Azərbaycanla sülh müqaviləsinin imzalanması müstəvisində Cənubi Qafqazda sabitliyin və inkişafın qərarlaşması. İkincisi, Türkiyə ilə münasibətlərin normallaşması.

*

Bəli, hər şey yolunda getsə, deyə bilərik ki, bir ilk yaşanır. Söhbət erməni amilinin qlobal gərginliklərdə alətə çevrilməkdən uzaq durmasından gedir. Görəsən, vurğuladığımız tam mənada mümkün olacaqmı? Bunu zaman göstərəcək. Normallaşmadan söz düşmüşkən isə bildirək ki, Paşinyan Türkiyənin erməni icması ilə görüşdə məhz bu məsələnin üzərində geniş dayanıb: "Əslində, biz Türkiyə ilə münasibətlərə sıfır nöqtəsindən başladıq. Bu, yeni münasibətlər qurmaq imkanı deməkdir və ölkələrimizin maraqlarından irəli gəlir".



Paşinyanın bildirdiyinə görə, rəsmi İrəvan Türkiyə tərəfi ilə 2021–2022-ci illərdə aparılan müzakirələr nəticəsində belə nəticəyə gəlib ki, "əgər gündəliyi üzərimizə götürürüksə, onun mümkün və həyata keçirilə biləcəyinə inanmalıyıq. Əks halda, özümüzü aldatmış, cəmiyyətimizə, beynəlxalq tərəfdaşlarımıza, Türkiyəyə yanlış siqnal vermiş olarıq və bu, çox pis başlanğıc olar".

Əlbəttə, Paşinyanın dilə gətirdiyi fikirlərdə müəyyən pafos yükü var. Bununla belə, Ermənistanın Türkiyə ilə münasibətləri, həqiqətən, qaydaya salmaq istədiyi məlumdur. Çünki bu, ilk növbədə, onun özünə lazımdır. Deməli, rəsmi İrəvanın normallaşma prosesində daha irəli getmək istiqamətində cəhdlər göstərəcəyini söyləmək mümkündür. Normallaşmaya gəldikdə, Paşinyan hazırkı prosesin, faktiki olaraq, 2022-ci ildə Praqada Türkiyə Prezidenti Ərdoğanla ilk görüşdən sonra başladığını vurğulayıb. Onun sözlərinə görə, həmin görüşdən sonra Ermənistan və Türkiyə arasında xüsusi nümayəndələrin dialoqu olub, sonra isə xarici işlər nazirləri arasında fəal təmaslar başlanıb: "Keçən il Nyu-Yorkda mənim Türkiyə Prezidenti ilə görüşüm oldu. Bu müddət ərzində bir neçə dəfə telefonla danışmışıq və əlbəttə ki, bu, çox mühüm mərhələdir".

Onu da bildirək ki, Ankara–İrəvan normallaşmasının vacib seqmenti Türkiyə–Ermənistan sərhədlərinin açılmasıdır. Ancaq müxtəlif vaxtlarda erməni tərəfi normallaşmanı Azərbaycanla münasibətlərdən kənar tutmağa çalışıb, unudub ki, vaxtilə sərhədlər məhz ölkəmizə, daha doğrusu, ölkəmizin üzləşdiyi işğala görə bağlanmışdı. Deməli, ortaya məntiqi nəticə çıxır ki, yenə də məsələdə aparıcı söz sahibi Azərbaycandır və erməni iqtidarı, yumşaq desək, unutqanlığı bir kənara qoymalıdır. Paşinyanın Türkiyəyə səfərinin ümumi ritorikasına diqqət yetirsək, rəsmi İrəvanın reallığı anladığını söyləmək mümkündür. Amma Ermənistanın anlamalı olduğu daha bir məqam da var. Söhbət Zəngəzur dəhlizindən gedir.

*

Məlumdur ki, Paşinyanın Zəngəzur dəhlizinə alternativi – "Dünyanın kəsişməsi" təşəbbüsü var. O, məsələ barədə Ankarada ermənilər qarşısında çıxış edərkən də söz açdı, bəzi məqamları vurğuladı, öz aləmində prinsipiallıq göstərdi. Əlavə edək ki, Nikol bir müddət əvvəl "Dünyanın kəsişməsi"nə fokuslanan plan da təqdim etmişdi. Onun planına əsasən, regional kommunikasiyalar üçün iki seqment var: Dəmir yolu və avtomobil yolu. Paşinyan avtomobil yolu üzrə Laçın–Kornidzor–Marqara marşrutu üzərində dayanmışdı. Baş nazir yüklərin Azərbaycanın Laçınından Ermənistanın Kornidzoruna, oradan Türkiyə ilə sərhəddəki Marqaraya doğru hərəkətini cızmış, beləliklə regional kommunikasiyaları, bir başqa dildə desək, dağa-daşa salmışdı.

Dəmir yolu əlaqəsinə gəldikdə, Paşinyan Naxçıvana dəmir yoluna o halda razıdır ki, Ermənistan da həmin yoldan, yəni ümumən Naxçıvandan keçərək özünün digər ərazilərinə getmək imkanı qazansın. Başqa sözlə desək, Nikol Mehri–Yerasx dəmir yolu marşrutunu irəli sürmüşdü.

O da məlumdur ki, ölkəmiz Naxçıvana yolun "Azərbaycandan Azərbaycana yol" formatını məqbul sayır. Yəni, yolda hansısa gömrük və sərhəd yoxlanışı həyata keçirilməsin. Paşinyanın bir qədər əvvəl diqqətə çatdırdığımız planında isə dəmir yolu əlaqəsinin gömrük və sərhəd nəzarəti olmadan bərpası barədə söz açılmamış, prinsipial məqamın üzərindən sükutla keçilmişdi. Ümumən, belə təsəvvür formalaşdırmışdı ki, baş nazirin məqsədi vəziyyəti mürəkkəbləşdirmək, dəmir yolu əlaqəsini avtomobil yolu əlaqəsindən ayrı tutmaqla, habelə Laçın–Kornidzor–Marqara marşrutunun əhəmiyyətini artırmaqla Naxçıvana yolu lazımsız məsələyə çevirməkdir.

İqtisadi baxımdan da rentabelli olmayan belə yanaşmanı Azərbaycan məqbul saymadığı kimi, Paşinyanın düşüncəsi Türkiyənin də mənafeyinə uyğun deyil. Şübhəsiz, onun mövqeyi Türkiyə–Ermənistan sərhədlərinin açılması məsələsinə də təsirsiz ötüşmür. Çünki regional kommunikasiyaların işləklik fazasının, belə demək mümkünsə, Türkiyə uzantısı həlledicidir. Məhz bu səbəbdən Paşinyan təklif etdiyi avtomobil yolunun Türkiyə mənzilini müəyyənləşdirir. O daşımaların istiqamətinin hara olduğunu anlayır.

Ancaq niyəsə Nikol Ankaranın rentabelli dəmir yolu əlaqəsinə üstünlük verdiyini, daha doğrusu, Naxçıvan yolunu əsas götürdüyünü yaddan çıxarır. Halbuki, yaddan çıxarmasa, qardaş ölkənin erməni icması ilə görüşdə ünvanladığı "Ermənistan Türkiyə münasibətlərində nə dəyişdi" ritorik sualına dolğun cavablar tapar, xırda irəliləyişlər üzərində dayanmazdı. Məsələn, o deyir ki, bir neçə il əvvəl, hansısa durumla bağlı Türkiyənin mövqeyini aydınlaşdırmaq lazım gələndə və ya Türkiyə Ermənistanın mövqeyini bilmək istəyəndə, hər iki tərəf üçüncü ölkələrə müraciət edirdi. "Düşünürəm ki, artıq uzun müddətdir Türkiyə ilə birbaşa təmaslarımızın mövcudluğu vacibdir. Bu, müəyyən gündəliklərin formalaşdırılması və müzakirələrin aparılması üçün zəruri və əhəmiyyətli şərtdir. Mən təkcə ikitərəfli səviyyədə keçirilən görüşləri nəzərdə tutmuram. Əvvəlki dövrlə müqayisədə indi Türkiyə ilə təmaslarımız çox intensivdir. Müzakirələrimiz gələcək hadisələrin inkişafına müəyyən təsir göstərəcək və erməni–türk münasibətlərinə yeni təkan verəcək. Bu münasibətləri Ermənistan və Türkiyə arasında dövlətlərarası münasibətlər kimi formalaşdırmaq borcumuzdur", – deyən Paşinyan ictimai müstəvidə problemlərin qaldığını da vurğulayıb.

*

Sonda belə bir qənaətə gəlmək mümkündür ki, ümumən, Paşinyanın Türkiyəyə səfərini pozitiv qiymətləndirmək mümkündür. Axı Nikol Ərdoğanı Ermənistana dəvət etdiyini, Türkiyə liderini İrəvanda görməkdən məmnunluğunu diqqətə çatdırıb. Güman edirik ki, həmin səfər də reallaşacaq və Ankara–İrəvan gündəliyi zənginləşəcək. Başqa yol yoxdur. Çünki Türkiyə böyük və güclü dövlətdir. Ancaq yaxşı olar ki, Ermənistanda bu amil bütün spektrlər üzrə nəzərə alınsın.

Digər tərəfdən, Nikol Ankara ilə münasibətlər kontekstində daxili ictimai rəyi yenməyi bacarmalıdır. Diqqət yetirək, hazırda onun səfərini Ermənistanın maraq və mənafelərini təslim etmək kimi qiymətləndirən revanşist və şovinist kəsim xeyli aktivdir. Bu aktivlik fonunda rəsmi İrəvanın prinsipiallıq və qətiyyət göstərərək, Ermənistan–Türkiyə normallaşmasındakı ardıcıllığı qoruması, eyni zamanda, məsələyə kompleks şəkildə yanaşması son dərəcə vacibdir. Paşinyanın sosial şəbəkə paylaşımında ifadə etdiyi sülhə və sabitliyə sadiqliyin sınağı budur.

Kompleks və fundamental yanaşmanın detallarını isə vurğuladıq. Uzun sözün qısası, Ermənistan Türkiyə ilə yaxşı olmaq istəyirsə, Azərbaycanla da keçinməyə, səmimi və dürüst davranmağa məhkumdur. Fikrimizin təsdiqi baxımından saysız-hesabsız arqumentəri sadalaya bilərik. Onlardan yalnız birinin üzərində dayanaq və bildirək ki, Paşinyanla eyni vaxtda Prezident İlham Əliyev də Türkiyədə səfərdə idi. Nəzərə alaq ki, səfər zamanı təkcə qardaş ölkənin Kahramanmaraş bölgəsində Azərbaycan təntənəsinin yaşanmasının özü hər şeyi deyir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

REPLİKA

## Media peşəkarlığı – tərəqqi, yoxsa itki?

**Oxşar hallar bir çox media subyektlərində də təkrarlanır. Yəni, mənzərə aşağı-yuxarı eynidir, bir növ tendensiya şəklini alıb. Deməli, sosial şəbəkələrdə yayılmış və geniş rezonans doğurmuş videogörüntü telekanalların birində sujetə - materiala çevrilir, onun barəsində müzakirə aparılır. Bu an studiyaya əlaqədar rəsmi şəxs tərəfindən telefon zəngi edilir və həmin şəxsin dilə gətirdiyi fikirlər bütün mənzərəni dəyişir. Əsl reallığı bilən iki aparıcıdan biri isə təxminən belə deyir: "Zənginizə və aydınlıq gətirdiyinizə görə təşəkkür edirik". Ardınca isə həmin aparıcı sanki çalışdığı quruma bəraəət qazandırırmış kimi vurğulayır ki, bəs sosial şəbəkələrdə çox məsələlər yayılır və onların hamısını yoxlayıb təqdim etmək mümkünsüzdür.**




Aparıcın bu mövqeyi heyrət doğurmaya bilməz. Necə yəni hər şeyi yoxlamaq olmur? Bəs sosial şəbəkədə yayılan hər şeyi efirə vermək olar? Sual ritorikdir. Əlbəttə, olmaz. Amma olurmuş və göründüyü kimi, teleaparıcı "bəraətini" də tapdı. Elə isə görək itirilən nə oldu? Əslində, böyük ölçüdə bizi, bütövlükdə media cameəsini düşündürən bu suala verilən cavabdır. Cavab barədə sonda.

Əlqərəz, TV-nin, ondan əvvəl isə digər media orqanlarının sosial şəbəkələrdə yayılmış görüntü ilə bağlı hazırladıqları materiallardan elə təəssürat yaranır ki, ölkədə dərəbəylikdir, hüquq və hüquq anlayışları ümumiyyətlə işləmir. Heç şübhəsiz, yanlış videogörüntünü izləyən nə qədər şəxs yaranmış, daha doğrusu, "yaradılmış" durumdan əsəb, hiddət və gərginlik də keçirərək məhz qeyd etdiyimiz tərzdə düşünüb. İndi həmkarlarımız deyə bilər ki, məqsədləri ədaləti bərpa etmək olub. Buna şübhəmiz yoxdur. Amma qaş düzəldərkən, göz çıxarmaq düzgün deyil.

Əlbəttə, bütün bunlar ortaya bir məqamı çıxarır. Söhbət peşəkarlıqdan gedir. Peşəkar media işini, eyni zamanda, sosial şəbəkələrdən gələn siqnallar, bilgilər əsasında qurmalıdır. Yəni, əsl jurnalist həmin siqnal və bilgiləri şübhələndirməyi bacarmalıdır ki, meydana həqiqət çıxsın. İctimai reaksiyanı da məhz bu həqiqət formalaşdırmalıdır, hansısa sosial şəbəkə məhsulunun izlənilmə sayı yox.

Belə qənaətə gəlirik ki, bir qədər əvvəl diqqətə çatdırdığımız misaldakı teleaparıcının özünə, daha doğrusu, çalışdığı media orqanına bəraət şəklində səsləndirdiyi arqumentə də yer yoxdur. Çünki o, sosial şəbəkə materialını yoxlamadan efirə verməməli, yayımlamamalı idi. Amma bunu etdi və jurnalist, yumşaq desək, yol verdiyi yanlışın fərqinə varmırsa, onunla sıravi sosial şəbəkə istifadəçisi arasında heç bir fərq olmur. Əslində isə, çox böyük fərq olmalıdır.

Təbii ki, sosial şəbəkə istifadəçisinin vətəndaş olaraq məsuliyyəti var. Jurnalist məsuliyyəti isə ictimai hadisədir. Ən təəssüflüsü budur ki, bəzi həmkarlarımız ya daşıdıqları missiyanın önəmini dərk etmir, ya da onların ictimai fəaliyyət anlayışında yanlışlıqlar var. O zaman bu durumun doğurduğu böyük nəticə üzərində dayanaraq, jurnalistikanın nəyi itirdiyindən söz açaq.

Çox tez-tez bildirilir ki, mediaya önəm verilmir və s. Bəzən də media təmsilçiləri sözlərinin dəyərdən düşməsindən gileylənirlər. Əlbəttə, bu deyimlərin, elə yaranmış vəziyyətin bir çox səbəbləri var. Məsələn, internet əsridir, yeni informasiya texnologiyaları meydana çıxıb, sosial media ənənəvi medianı üstələyib və digər bu sayaq klişeləşmiş fikirlərlə hər birimiz tanışıq. Hələ dövrün dezinformasiya, yəni qəsdən yanlış bilgi yayıcılığı kimi təmayülləri də var.

Amma həqiqi, peşəkar media təmsilçisi adını daşıyan hər bir şəxs, ilk növbədə, öz fəaliyyətinə diqqət yetirməlidir. Məsələn, bu gün bir media orqanı müəyyən vəzifə sahibinin öz ərizəsi ilə işindən getməsinə dair sosial şəbəkə profilində paylaşdığı səmimi bilgini, az qala, həmin şəxsin vəzifəsindən qovulması şəklində sərlövhəyə çıxarırsa, buna nə deyəsən? Belə olan halda, jurnalist adı daşıyan, yaxud jurnalist olduğunu bildirən şəxsə cəmiyyət necə münasibət göstərəcək? Aydındır ki, ortada mənasız ajiotaj yaratmaq kimi bəsit əməl var. Həm də bu kimi əməllərə görə jurnalistika itirəcək. Bəli, jurnalistika, məhz hörməti, inamı və etimadı itirəcək. Heç şübhəsiz, jurnalistikanın timsalında söz yaradıcılığının hörmətdən düşməsi bütövlükdə cəmiyyət üçün böyük itkiyə çevriləcək.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Orta Dəhlizin yüksəlişi

(əvvəli 1-ci səhifədə)

Bu illər ərzində Bakı regionun nəqliyyat və logistika habına çevrilmək üçün məqsədyönlü, ardıcıl və strateji xarakterli infrastruktur yatırımlarına üstünlük verib. Dövlətin planlı şəkildə reallaşdırdığı layihələr – Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu, Ələt Azad İqtisadi Zonası, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsində yerləşən multimodal daşımalar sistemi – Azərbaycanın coğrafi üstünlüyünü funksional üstünlüyə çevirdi. Qeyd oluna bilər ki, son istiqamətdə həyata keçirilən layihələr Azərbaycanın geosiyasi statusunu dəyişdirən, onu regional tranzit aktorundan qlobal nəqliyyat siyasətində söz sahibi olan ölkəyə çevirən alətlərə çevrildi. Eyni zamanda, bu strategiya Azərbaycanın beynəlxalq tərəfdaşlıq imkanlarını da genişləndirdi, ölkənin Çin, Türkiyə, Avropa İttifaqı, Mərkəzi Asiya ölkələri ilə münasibətlərini yeni məzmunda və praktik əsasda inkişaf etdirməsinə şərait yaratdı. Yəni, Azərbaycan öz tranzit potensialını bir növ "yumşaq gücə" çevirdi, beynəlxalq aləmdə qarşılıqlı asılılıq və etimad üzərində qurulan yeni əməkdaşlıq modelini təşviq etdi.

***

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı – Xəzər hövzəsinin ən iri və müasir limanı olaraq Orta Dəhlizin qapısı funksiyasını yerinə yetirir. Liman Azərbaycanı Xəzər dənizi vasitəsilə Orta Asiya ilə, oradan isə Çinlə birləşdirən strateji qovşaqdır. Limanın yaxınlığında yerləşən Ələt Azad İqtisadi Zonası isə dövlətin logistika-sənaye sinergiyası yaratmaq planlarının mərkəzində dayanır. Burada yaradılan vergi və gömrük üstünlükləri, xarici sərmayəni cəlb edən hüquqi bazanın qurulması və multimodal daşımalar üçün imkanlar Azərbaycanın beynəlxalq investorlar üçün logistik cəlbediciliyini artırır.

Bakı–Tbilisi–Qars dəmir yolu isə Azərbaycanın quru üzərindən Avropaya çıxışını təmin edən, Qafqaz regionunu Avro–Asiya nəqliyyat xəritəsinə bağlayan mühüm arteriya kimi Azərbaycanın Gürcüstan və Türkiyə ilə əməkdaşlığını gücləndirən, regional sinerji yaradan siyasi akt kimi çıxış edir. Hazırda bu kompleks infrastruktur əsasları üzərində mərhələyə – Çinlə birgə tranzit sinergiyasının qurulmasına keçid üçün möhkəm zəmin yaradır. Xüsusilə, "Bir kəmər, bir yol" təşəbbüsünün Orta Dəhlizə inteqrasiyası fonunda Bakı dəhlizin memarı və modulyatoru funksiyasını icra edir.

Prezident İlham Əliyevin 2025-ci ilin fevralında Davosda Çinin CGTN telekanalına verdiyi müsahibədə bu yanaşma açıq şəkildə öz əksini tapdı. Dövlət başçısı vurğuladı ki, Çin hökumətinin Mərkəzi Asiyada maliyyələşdirdiyi infrastruktur layihələri, əslində, birbaşa Xəzər dənizinə, yəni, Azərbaycana doğru istiqamətlənir.

Mövcud dinamikalar Azərbaycanın qarşısında iki əsas nəticə doğurur. Birincisi, ölkə yeni iqtisadi imkanlar əldə edir: tranzit gəlirləri, yük daşımalarının artması, logistik xidmətlərin inkişafı və sənaye zonasının canlanması. İkincisi və bəlkə də daha önəmlisi, Azərbaycanın regional və qlobal siyasi çəkisi artır. Çünki tranzit yolları yalnız malları yox, həm də geosiyasi maraqları daşıyır.

Bakı bu gün yeni siyasi tənzimləmələrin və diplomatik yönəltmələrin mərkəzinə çevrilib. Bütün




bunlar Azərbaycanın nəqliyyat diplomatiyasını daha yüksək mərhələsinə – bütöv bir regionun strateji formatını müəyyən edən aktora çevrilmək dövrünə çıxarır.

Vizyon çərçivəsində Çin öz yük axınlarını müxtəlif coğrafi istiqamətlərə yayaraq riskləri minimallaşdırmağa, ticarət asılılığını diversifikasiya etməyə və nəqliyyat marşrutlarını siyasi təsirlərdən azad etməyə çalışır. Ənənəvi Şimal Dəhlizinin – Rusiya üzərindən keçən marşrutun – sanksiyalar və münaqişələrlə zəiflədiyi bir vaxtda Pekin üçün Orta Dəhliz – Çindən Qazaxıstan və Türkmənistan üzərindən Xəzər dənizinə, oradan isə Azərbaycana və Avropaya uzanan alternativ həyati əhəmiyyət kəsb edir. Məhz bu kontekstdə Çinlə Azərbaycan arasında imzalanmış "Beynəlxalq multimodal daşımalar haqqında" hökumətlərarası saziş və "Bir kəmər, bir yol" təşəbbüsünün birgə təşviqinə dair razılaşma strateji istiqamətlənmənin hüquqi-siyasi rəsmiləşməsidir.

Bakı–Türkmənbaşı–Çin marşrutu üzrə ilk yüklü qatarın hərəkəti strateji əhəmiyyətli dönüş nöqtəsidir və Azərbaycanın bölgədə etibarlı tərəfdaş və sabit platforma kimi qlobal miqyasda qəbul olunduğunu sübut edir.

***

Hazırkı dünya nizamı qeyri-sabitliklərlə, böhranlarla və proqnozlaşdırılması çətin risklərlə doludur. Rusiya ilə Qərb arasındakı dərin qarşıdurma, Qırmızı dəniz və Hörmüz boğazı kimi strateji marşrutlarda artan təhlükələr ticarət və logistika sahəsində alternativ və etibarlı yolların aktuallığını son dərəcədə artırır. Belə şəraitdə Azərbaycanın Orta Dəhliz strategiyası məhz geosiyasi qeyri-müəyyənliklərə verilən ağıllı geoiqtisadi cavabdır. Bakı bu gün siyasi resurslarla texnoloji komponentləri birləşdirən, ölkələrin maraqlarını uzlaşdıran nəqliyyat diplomatiyasının yeni generasiyasını formalaşdıran aktora çevrilməkdədir. Orta Dəhlizin mühəndisi olmaq diplomatik çeviklik, hüquqi çevrə yaradıcılığı və strateji planlama mədəniyyəti tələb edir ki, Azərbaycan bu sahədə nümunəvi yanaşma sərgiləyir.

Əgər XX əsrin "böyük gücləri" enerji və hərbi resurslarla hegemonluq edirdilərsə, XXI əsrin yeni gücləri çevik tranzit strategiyaları ilə güc qazanırlar. Azərbaycanın yaratdığı bu yeni arxitektura – Çinlə, Mərkəzi Asiya ölkələri və Avropa ilə əlaqələrə əsaslanan, sabitlik və təhlükəsizlik üzərində qurulan logistik sistem də ölkəmizə söz və qərar hüququ qazandırır.

Dünya yenidən formalaşır və bu formalaşma prosesində tranzit dəhlizləri siyasi iradə, strateji uzaqgörənlik və diplomatik çevikliyin məkanıdır. Azərbaycan bu məkanın önündə addımlayan aktorlardan biridir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Fransa səfiri Şuşada açıqlama verir…

(əvvəli 1-ci səhifədə)

İndi Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri ölkəmizə gələn xarici qonaqların, mütəxəssislərin, eləcə də Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin diqqət mərkəzindədir. Onların bölgəyə səfərləri zamanı gördükləri reallıqlar və etirafları şahidi olduqları reallıqdan və aparılan işlərin miqyasından xəbər verir.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bələdçiliyi ilə baş tutan növbəti səfərin birinci günü diplomatlar Laçında "Hoqazfilm" yaradıcılıq studiyasına, "Yurd" qalereyasına baş çəkiblər.

Dünən Şuşa şəhərinə gedən nümayəndə heyətinin üzvləri, həmçinin Ermənistanın şəhərin işğalı dövründə törətdiyi cinayətlərin və vandalizm aktlarının nəticələri ilə tanış olublar. Onlara Azərbaycanın mədəni və tarixi abidələrinin məhv edilməsi ilə bağlı faktlar nümayiş etdirilib. Bildirilib ki, şəhər işğaldan azad olduqdan sonra geniş bərpa-quruculuq işlərinə başlanıb. İnfrastruktur layihələri çərçivəsində tarixi binalar bərpa olunur, yeni iaşə obyektləri inşa edilir, şəhər müasir şəhərsalma normalarına uyğun şəkildə formalaşdırılır. Bu, həm turistlər üçün cəlbedici mühitin yaradılması, həm də yerli əhalinin rahat yaşaması üçün mühüm əhəmiyyət kəsb edir.

Bəli, bu gün Şuşa yalnız daşlarla, binalarla deyil, insanlarla da dirçəlir. Artıq şuşalılar öz doğma yurdlarına qayıdır, yeni evlərdə yaşayır, şəhərdə açılan müəssisələrdə çalışırlar. Bir vaxtlar viran qoyulmuş bu torpaq bu gün yenidən Azərbaycan xalqını qucaqlayır. Prezident İlham Əliyevin "Şuşa bizi gözləyirdi. Biz gəldik – qalib xalq kimi!" sözləri bu prosesin mənəvi mahiyyətini ifadə edir. Bu qayıdış sadəcə fiziki bir qayıdış deyil, həm də milli qürurun, azadlıq duyğusunun, haqqın təntənəsinin ifadəsidir. Diplomatlar da bu qayıdışın uğurlu nəticələrini öz gözləri ilə gördülər. Onların Şuşa ziyarəti zamanı yadda qalan maraqlı məqamlardan biri Azərbaycanın görkəmli opera müğənnisi, musiqişünas və folklorşünas Bülbülün ev-muzeyinə baş çəkmələri oldu. Bülbülün həyat və yaradıcılığı barədə məlumat verilən xarici diplomatlar erməni işğalından azad edildikdən sonra bərpa edilmiş muzeyi öz gözləri ilə görmək imkanı qazandılar.

**QEYD:** *Bülbülün ev-muzeyində təmir-bərpa işləri 2021-ci il avqustun 29-da başa çatdırılıb. Bərpa zamanı bütün yükdaşıyıcı divarların bünövrəsi möhkəmləndirilib, çat olan hissələrdə yenidənqurma işləri aparılıb, binanın tarixi görkəmini qorumaq şərti ilə yenilənib.*



***

"Bu, mənim Şuşaya ilk səfərimdir və bu şəhəri kəşf etmək imkanı qazandığım üçün çox şadam. Əvvəllər də dediyim kimi, bu şəhərin Azərbaycan xalqının qəlbində əziz bir yeri var, çünki o, Azərbaycan mədəniyyətində çox mühüm rol oynayır". Bu sözləri yerli mediaya açıqlamasında Fransanın Azərbaycandakı səfiri Ann Buayon deyib.

"Şuşa Azərbaycan mədəniyyətini başa düşmək, anlamağa imkan verən bir şəhərdir. Həqiqətən də burada olmaqdan böyük sevinc hissi keçirirəm. Bilirəm ki, Şuşa Azərbaycan üçün mədəniyyət və incəsənətin rəmzidir. Bundan əlavə, Şuşa dünyaya bir çox məşhur insanlar bəxş edib. Tikinti işlərindən və bu mühüm sənət ocaqlarının, Azərbaycan mədəniyyətinin simvollarının yenidən canlandırılaraq ziyarətçilərin üzünə açılmasından çox təsirləndim. Bəli, insanlara Şuşaya səfər etməyi tövsiyə edirəm. Düşünürəm ki, bu, Azərbaycanı daha yaxından tanımaq üçün yaxşı bir fürsətdir", – deyən A.Buayon, həmçinin vurğulayıb ki, Azərbaycan Qarabağ regionunda aparılan tikinti-bərpa işlərinin miqyasına heyran qalıb.

Bu məqamda bir il bundan əvvələ qayıtmağa ehtiyac var. O zaman Fransanın Ermənistandakı səfiri Olivye Dekotini "Azadlıq radiosu"na müsahibəsində ölkəsinin Azərbaycandakı səfirinin digər səfirlərlə birgə Şuşaya getməsini istisna hal hesab etmişdi. O, "Fransanın Azərbaycandakı səfiri, Azərbaycan mətbuatının yazdığı kimi, Bakıya qayıdıb, yoxsa Parisdədir?" – sualına diplomatik ritorika naminə kifayət qədər şəffaf cavab verərək bildirmişdi ki, bir şeyi dəqiq deyə bilər: "Fransa səfiri Şuşada deyil".

ABŞ-ın Azərbaycandakı səfirinin Qarabağa səfərinə qoyduğu "moratorium" pozaraq keçən yay Şuşaya həyat yoldaşı ilə birgə baş çəkməsini unutmamışıq. Əslində, səfir Mark Libbinin "Şuşaya səfər etməklə hansısa şounun bir hissəsi olmaq istəmədiyi, zamanı gələndə Qarabağa gedəcəyi" ilə bağlı bəyanatından cəmi iki gün sonra Şuşa ziyarəti Vaşinqtondan verilən təlimatın icrası olduğu gün kimi aydın idi. Amma hayparəst Paris bunu etməyə tələsmirdi.

Bəli, 44 günlük müharibədən sonra özünün "tarixi xidmətini" başa vurmuş ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən birinin – Fransanın Azərbaycandakı səfiri uzun müddət Şuşaya ayaq basmadı. Amma Rusiya və ABŞ-ın ardınca rəsmi Parisin də analoji addım atacağı gözlənilən idi.



***

Dünən günün ikinci yarısında Azərbaycanda akkreditə olunmuş xarici diplomatlar və hərbi attaşelərdən ibarət heyət Ağdama gəlib. Qonaqlar Ermənistanın işğal illəri ərzində törətdiyi dağıntıları, "Qafqazın Xirosiması" adlandırılan Ağdamda hay vandalizminin izlərini görə biliblər.

Sonda onu da qeyd edək ki, azad edilmiş ərazilərdə aparılan bütün layihələr – istər hava limanları, istər kəndlərin salınması, istərsə də sənaye infrastrukturları Azərbaycan xalqının gələcəyinə qoyulan sərmayədir. Bu sərmayə təkcə maddi deyil, həm də mənəvi dəyərlərin bərpasına, milli kimliyin qorunmasına yönəlib. Bu gün Qarabağda, Şərqi Zəngəzurda nəinki erməni vandalizminin izləri silinir, eyni zamanda, gələcəyin istiqaməti müəyyən edilir. Azərbaycanda akkreditə olunmuş xarici diplomatlar bölgəyə səfərlərində bu gerçəkliyin canlı şahidləri olurlar.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Kazino sənayesi turizmin inkişafını sürətləndirir

**Müasir dövrdə qlobal iqtisadi sistemin çoxşaxəli və dinamik strukturu çərçivəsində əyləncə və oyun sənayesi özünəməxsus yer tutur. Bu sektorun ən önəmli sahələrindən biri olan kazino biznesi isə dünya miqyasında iqtisadi inkişafın müəyyən göstəricilərinə təsir göstərən mühüm fəaliyyət istiqamətləri sırasında xüsusi diqqət çəkir. Müxtəlif dövlətlərin iqtisadi siyasətlərində bəzən mübahisəli mövqe tutsa da, kazino biznesinin yaratdığı gəlirlər, iş yerləri və turizmə verdiyi töhfələr onu nəzərəçarpacaq dərəcədə əhəmiyyətli edir.**

Statistikaya əsasən, dünya üzrə illik qumar və kazino gəlirlərinin ümumi həcmi 2024-cü ilin sonunda 450 milyard ABŞ dollarına yaxınlaşıb. ABŞ, Makao (Çin Xalq Respublikasının xüsusi inzibati bölgəsi), Sinqapur, Böyük Britaniya və Avstraliya kimi ölkələr bu sahədə liderlik edir. Ənənəvi fiziki kazinolarla yanaşı, rəqəmsal transformasiya bu sektoru da əhatələyib, onlayn kazino platformalarının sayı və əhatə dairəsi sürətlə artmağa başlayıb.

Hazırda yalnız Las Veqas və Makao deyil, həmçinin Filippin, Cənubi Koreya, Monako, Malta və Gürcüstan kimi ölkələr də kazino infrastrukturu vasitəsilə xarici investisiyaları cəlb edir, turizm sektorunu stimullaşdırır və büdcə gəlirlərini artırır. Bu baxımdan kazino biznesi qlobal iqtisadiyyatda özünəməxsus bir sinerji yaradır.

Kazino və qumar sənayesi bir çox ölkənin dövlət büdcəsi üçün əhəmiyyətli vergi mənbəyi hesab olunur. Məsələn, ABŞ-da bu sənaye ildə 10 milyard dollardan çox vergi gəliri formalaşdırır. Makao kimi şəhərlər isə, ümumilikdə, büdcə gəlirlərinin 70 faizini yalnız kazino fəaliyyətindən əldə edir. Burada dövlətin apardığı ciddi nəzarət və lisenziyalaşdırma siyasəti həm şəffaflığı, həm də vergi daxilolmalarının sabitliyini gerçəkləşdirir. Eyni zamanda, vergi siyasətinin düzgün qurulması bu biznesin dövlətə olan faydasını artırmaqla yanaşı, qeyri-leqal fəaliyyətlərin də qarşısını alır. Onlayn platformalarda isə bu nəzarət sistemləri daha mürəkkəbdir və əlavə tənzimləmə mexanizmlərinə ehtiyac duyulur.

Kazino biznesi turizm sektoruna verdiyi töhfə ilə seçilir. Las Veqas, Monako, Makao və Batumi kimi şəhərlər, əslində, kazinolar sayəsində beynəlxalq turizmin mərkəzinə çevrilib. Bu isə otelçilik, restoran, əyləncə, nəqliyyat və digər xidmət sahələrində minlərlə iş yerinin yaranmasına səbəb olub. ABŞ-ın təkcə Las Veqas bölgəsində kazino sənayesi sayəsində 400 mindən çox insanın işlə təmin olunması reallaşıb.

Turistlərin cəlb edilməsi, onların uzun müddət bölgədə qalması və yüksək məbləğdə vəsait xərcləməsi iqtisadi dövriyyəyə müsbət təsir göstərir. Bu, əsasən, kiçik iqtisadiyyatlı ölkələr üçün yüksək imkan şəraiti kimi dəyərləndirilir.

Kazino biznesi təkcə birbaşa maliyyə gəlirləri ilə deyil, eyni zamanda, şəhərsalma və infrastrukturun inkişafı baxımından da iqtisadi proseslərə təsir göstərir. Yeni kazino komplekslərinin inşası yolların, hava limanlarının, ictimai nəqliyyatın və elektrik – enerji şəbəkələrinin yenilənməsini sürətləndirir. Sinqapurda "Marina Bay Sands" kompleksi buna bariz nümunədir – təkcə bu layihə ölkənin turizm imicini köklü şəkildə dəyişir və şəhərin simasını yeniləyir.



Bununla belə, kazino biznesinin mənfi təsirləri də mövcuddur. Asılılıq riski, ailə münasibətlərinin pozulması, borc yükü və cinayət hallarının artması bu sahənin sosial sferada yaratdığı problemlərdəndir. Bu səbəbdən əksər ölkələrdə kazino fəaliyyəti ciddi şəkildə tənzimlənir, məsuliyyətli oyun prinsipləri təşviq olunur, sosial risklərə qarşı maarifləndirmə və dəstək proqramları həyata keçirilir. Ən uğurlu nümunələrdən biri kimi Kanada və Avstraliyanı göstərmək olar. Bu ölkələrdə kazino gəlirlərinin bir hissəsi asılılıqla mübarizə fondlarına yönəldilir, mütəmadi olaraq psixoloji dəstək xidmətləri göstərilir və monitorinq sistemləri vasitəsilə oyunçuların davranışı izlənilir.

Rəqəmsal texnologiyaların inkişafı ilə onlayn kazinolar sürətlə genişlənməkdədir. 2025-ci ilə qədər bu seqmentin illik 100 milyard dollara yaxın dövriyyəyə çatacağı proqnozlaşdırılır. Kriptovalyutaların və süni intellektin tətbiqi bu sahədə yeniliklərə yol açıb, həm də qanunsuz platformaların artmasına səbəb olub.

Bəzi dövlətlər onlayn kazinoları qadağan etsə də, digərləri onları lisenziyalaşdıraraq nəzarət altında saxlayır. Bu yanaşma həm vətəndaşların hüquqlarını qorumağa, həm də dövlətin iqtisadi maraqlarını təmin etməyə imkan verir.

Kazino biznesi qlobal iqtisadiyyatda həm imkanlar, həm də risklər vəd edən bir sektordur. Onun düzgün tənzimlənməsi və idarə olunması ilə dövlətlər büdcə gəlirlərini artıra, turizm və məşğulluq sahəsində canlanma yarada bilər. Lakin bu sahənin sosial mənfi təsirlərini nəzərə almamaq da mümkün deyil. Buna görə hər bir ölkə öz milli və mədəni xüsusiyyətlərinə, iqtisadi strategiyasına uyğun şəkildə bu sahəyə yanaşmalı, balanslı və davamlı siyasət həyata keçirməlidir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, düzgün hüquqi baza, şəffaf lisenziyalaşdırma və məsuliyyətli oyun prinsiplərinin tətbiqi ilə bu sektor respublikamızda da cəmiyyətə zərər yetirmədən iqtisadi artıma təkan verə bilər. Yeri gəlmişkən, Azərbaycan coğrafi mövqeyi, sabit ictimai-siyasi mühiti, turizm infrastrukturuna böyük sərmayələr yönəltməsi və zəngin mədəni-tarixi irsi ilə kazino biznesinin inkişafı üçün nəzəri baxımdan əlverişli şəraitə malikdir. Ölkə artıq Qafqazın aparıcı turizm məkanlarından birinə çevrilməkdədir. Xüsusilə Şuşa, Naftalan, Qəbələ, Quba, Lənkəran, Şəki və Xəzəryanı istirahət zonaları turizmin gələcək lokomotivləri kimi formalaşır. Əgər bu regionlarda beynəlxalq təcrübəyə uyğun şəkildə xüsusi kazino zonaları yaradılarsa, həmin ərazilərə turist axını sürətlənə, regionlarda məşğulluq artaraq kənd təsərrüfatı və xidmət sektoruna dolayısı dəstək verilə bilər.

Hazırda Azərbaycanda kazino fəaliyyəti qanunla qadağandır. Bu qadağa, əsasən, 1990-cı illərin sonlarında yaşanan mənfi təcrübələrin nəticəsində tətbiq edilib. Həmin dövrdə sektorun qeyri-rəsmi strukturlar tərəfindən istismarı, sosial asılılıq hallarının artması və nəzarətsizliyin yaratdığı fəsadlar bu qərara səbəb olub. Lakin bu gün Azərbaycan hüquqi tənzimləmə, rəqəmsal nəzarət, elektron lisenziyalaşdırma və vətəndaşların maarifləndirilməsi baxımından çox fərqli bir mərhələdədir. Əgər dövlət bu sahədə müəyyən pilot layihələrə (məsələn, xüsusi iqtisadi zonalarda və ya xarici vətəndaşlara xidmət göstərən məkanlarda) icazə versə, bu, həm iqtisadi baxımdan faydalı ola bilər, həm də sosial risklərin qarşısını almağa imkan yaradar.

Azərbaycanın bölgələrində qeyri-neft sektorunun inkişafı prioritet istiqamət olaraq müəyyənləşdirilib. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə – Laçın, Zəngilan, Qubadlı, Şuşa və digər rayonlarda müasir turizm infrastrukturu yaradılır. Bu regionların "yaşıl" zona, ekoturizm və sağlamlıq turizmi ilə yanaşı, beynəlxalq kazino kompleksləri üçün də cəlbedici məkanlara çevrilməsi mümkündür.

Qeyd etmək lazımdır ki, bu layihələr yalnız xarici turistlərə xidmət göstərməklə tənzimlənə bilər. Bu üsul Gürcüstanda Batumi modelində uğurla tətbiq olunur: burada kazinolar yalnız xarici vətəndaşlara açıqdır, yerli əhaliyə isə giriş məhduddur. Nəticədə Gürcüstan büdcəsi ildə 200 milyon dollardan artıq vergi gəliri əldə edir.

Azərbaycanın iqtisadi strategiyasında qeyri-neft sektorunun inkişafı, turizmin stimullaşdırılması və regionların iqtisadi canlandırılması əsas prioritetlərdəndir. Bu kontekstdə kazino biznesinin beynəlxalq təcrübə əsasında düşünülmüş şəkildə tətbiqi, xüsusilə regional və xüsusi iqtisadi zonalarda, yeni investisiya imkanları aça və dövlət büdcəsinə alternativ gəlir mənbəyi təmin edə bilər.

Göründüyü kimi, kazino turizminin üstün cəhəti ondan ibarətdir ki, o, müxtəlif ölkələrdən çoxlu sayda insanı cəlb edə və onları bir məkanda birləşdirə bilir. Kazinolar ətrafında sürətlə yeni infrastruktur formalaşır. Bu, digər sahələrə də fayda gətirir.

Kazinoların olduğu yerdə təkcə otellər və restoranlar deyil, digər turistik məkanlar da inkişaf edir. Yerli restoranlar kazinodan gələn bir çox xarici qonaqları qarşılayır. Üstəlik, əcnəbilər yerli mətbəxi dadmaq imkanı qazanırlar. Bu, ölkədə turizmin inkişafına daha böyük töhfə verir. Beləliklə, kazino turizmin digər sahələrinin də inkişafına təkan verir.

Böyük biznes kimi kazinolar müxtəlif sahələrdə minlərlə iş yeri yaradır. Buraya təkcə qumar salonlarında birbaşa işləyən işçilər deyil, həm də otellərdə, restoranlarda, salonlarda çalışan işçilər, həmçinin marketinq mütəxəssisləri və təhlükəsizlik işçiləri daxildir. Regionun iqtisadiyyatı bu iş yerlərindən bəhrələnir, nəticədə gəlirlər artır və sosial infrastruktur yaxşılaşır.

# Strateji-iqtisadi üstünlüyün nəqliyyat-tranzit imkanları



**Qlobal mühitdə mübarizənin əsas istiqamətlərindən birini əlverişli nəqliyyat-tranzit imkanları təşkil edir. Başqa sözlə desək, hansı ölkənin beynəlxalq bazarlara əlverişli çıxışı və geniş əhatəli nəqliyyat-tranzit imkanları varsa, o ölkələr daha sürətlə inkişaf edir, qlobal inteqrasiyasını intensivləşdirir və beynəlxalq tribunada söz sahibi olur. Təbii ki, mövcud potensial imkanlar, əlverişli coğrafi-strateji mövqe və həyata keçirilən siyasət, qəbul edilən qərarlar bir sistemlilik, komplekslilik təşkil etdikdə inkişafın lokomotivinə çevrilir.**

Prezident İlham Əliyevin uzaqgörənliklə ardıcıl şəkildə qəbul etdiyi qərarlar, uğurla həyata keçirilən layihə və proqramlar Azərbaycanın əlverişli coğrafi–strateji mövqeyindən irəli gələn potensial imkanları real üstünlüklərə çevirir. Məhz bunun nəticəsidir ki, Avropadan baxanda Asiyanın, Asiyadan isə Avropanın başlanğıcı kimi görünən Azərbaycan müasir Avrasiya məkanında mühüm nəqliyyat-tranzit qovşağı kimi aparıcı bir dövlətdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin strateji planlaşdırma şöbəsinin müdiri Aqil Əsədov bildirib ki, ölkəmizin qoşulduğu Şərq–Qərb, Şimal–Cənub, "Bir kəmər bir yol" və s. kimi mühüm beynəlxalq layihələr çərçivəsində üzərinə düşən öhdəlikləri vaxtında və keyfiyyətlə yerinə yetirməsi, eyni zamanda, ölkə daxilində müasir infrastrukturun formalaşdırılması Azərbaycana uzunmüddətli və zəngin tranzit imkanları yaradır. Prezident İlham Əliyevin "...bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil" fikirləri də qeyd edilənlərin parlaq ifadəsidir.

Müxtəlif nəqliyyat layihələrinin özünəməxsus əhəmiyyəti olmaqla yanaşı, Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsi olan Orta dəhliz Türk Dövlətləri Təşkilatının (TDT) əsas əlaqələndiricisi kimi bu gün həm də bir dəyər zəncirinə çevrilib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Asiyanı Avropa ilə birləşdirən marşrutdur.

Regionda yaranmış münbit geosiyasi şəraitdə, Avropa və Asiya arasında ən qısa və rahat marşrut olan Orta dəhlizə maraq daha da artıb. 2025-ci il yanvarın 29-da imzalanan "Ankara bəyannaməsi" də qeyd edilənləri bir daha təsdiq edir. Bu Bəyannamədə iqtisadiyyat, ticarət, investisiya, logistika, infrastruktur, rəqəmsallaşdırma, ətraf mühit və iqlim dəyişikliyi daxil olmaqla müxtəlif istiqamətlərdə əməkdaşlıq nəzərdə tutulmaqla yanaşı, "Orta Dəhlizin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılmasına çağırış" da sənədin əsas bəndlərindən biridir.

Aqil Əsədovun sözlərinə görə, Azərbaycan, Türkiyə və Özbəkistan arasında imzalanan "Ankara Bəyannaməsi" regional əməkdaşlıq, xüsusilə Orta Dəhliz vasitəsilə ticarət əlaqələrinin gücləndirilməsi, çevik və səmərəli daşımaların təşkili istiqamətində mühüm mərhələdir. Həm də ona görə ki, Özbəkistanın Avropaya nəqliyyat və tranzit axınlarında iştirakı ölkənin potensialına uyğun deyil və inkişaf üçün geniş imkanlar mövcuddur. Bu imkanların reallaşmasında Çin–Qırğızstan–Özbəkistan dəmir yolu layihəsi önəmli rol oynayacaq. Bu dəmir yolu Özbəkistanın potensial imkanlarını reallaşdırmağa dəstək göstərməklə yanaşı, Çin–Avropa arasında ticarət dövriyyəsinə də öz töhfəsini verəcək.

Avropa Mərkəzi Asiyada əsas oyunçulardan biri olaraq qalmaqla, Çin və Rusiyadan sonra Özbəkistanın üçüncü ən böyük ticarət tərəfdaşıdır. 6000-dən çox Özbəkistan məhsulu Avropa İttifaqı bazarlarına rüsumsuz daxil ola bilər ki, bu da ticarət həcmini artıraraq daha səmərəli yük və logistika marşrutlarına tələbat yaradır. 2024-cü ildə Özbəkistanda beynəlxalq yük daşımalarının həcmi 60 milyon ton civarında olub. 2024-cü ilin sonuna Avropa ilə qarşılıqlı ticarət dövriyyəsi 6,4 milyard dollara çatıb ki, bunun da 1,7 milyard dollarını Özbəkistanın ixracı təşkil edib.

Bütün bunlar beynəlxaq dəhlizlər üzərində daşınma intensivliyini daha da artıracaq. Nəzərə alsaq ki, Çin–Qırğıstan–Özbəkistan dəmir yolu layihəsi Çindən Avropaya daşınma məsafəsini 900 kilometrədək, daşınma müddətini isə 7-8 gün azaltmağa imkan verəcək, onda bu layihənin yük daşınma intensivliyinə təsiri aydın olar.

Məlumdur ki, Mərkəzi Asiya və Avropanı şimal marşrutu (Rusiya və Belarus Respublikası üzərindən), cənub marşrutu (İran üzərindən) və orta marşrut (Xəzər dənizi üzərindən) olmaqla 3 nəqliyyat dəhlizi əlaqələndirir.

Şimal marşrutuna həm dəmir yolu, həm də avtomobil yolları daxildir. İnfrastruktur baxımından, digər marşrutlara nisbətən inkişaf etmiş olsa da, Rusiyaya tətbiq edilən sanksiyalar, Rusiya-Ukrayna münaqişəsi səbəbindən bu dəhlizin funksionallığı məhduddur.

Mərkəzi Asiyadan Cənub Dəhlizi boyunca da yükdaşıma, təqribən, 1,8 milyon ton olmaqla, çox aşağıdır. Marşrut boyunca, ilk növbədə texniki problemlərə görə, eləcə də İran İslam Respublikasına qarşı sanksiyalar səbəbindən bu dəhliz də cəlbedici deyil. İsrail-İran münaqişəsi isə bu istiqamətin hələ uzun illər cəlbedici olmayacağını deməyə əsas verir.

Xəzər dənizi üzərindən keçən Orta dəhliz Şimal dəhlizindən 2000 kilometr qısadır və daha az daşınma müddəti tələb edir. Eyni zamanda, onun proqnozlaşdırılan yükgötürmə qabiliyyəti ildə 25 milyon ton həcmində qiymətləndirilir ki, bu da transxəzər marşrutu üzrə daşınmaların inkişafı üçün böyük perspektivlər vəd edir.

Bu mənada, Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu yükdaşıma həcminin artması, Avropaya istiqamətlənən marşrutlar üzrə, xüsusilə Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta dəhliz) üzrə daşınmaların intensivliyinin yüksəldilməsi baxımından diqqəti cəlb edir.

Regionda və dünyada baş verən proseslər, yaranmış hərbi-siyasi gərginliklər Xəzər dənizi üzərindən keçən istiqamətin daha etibarlı olmasını göstərir. Nəzərə alsaq ki, hərbi-siyasi münasibətlərin normallaşmasından sonra da hələ uzun illər tikinti-bərpa işlərinin aparılması zəruridir, onda belə nəticəyə gələ bilərik ki, Çin məhsullarının, eləcə də Mərkəzi Asiyanın Avropa bazarlarına çıxışı üçün ən əlverişli və təhlükəsiz marşrut Xəzər dənizi üzərindən keçməklə Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa istiqamətidir. Yaxın gələcəkdə isə Zəngəzur dəhlizinin istifadəyə verilməsi məsafəni qısalda, prosesləri daha da çevikləşdirə bilər ki, bu da marşrutun daha bir üstünlüyüdür.

# İşəgötürən – işaxtaran əlaqəsi sadələşdirilib

**Azərbaycanda yeni məşğulluq xidmətləri modeli ilə işəgötürənlərin və işaxtaranların qarşılıqlı əlaqəsi sadələşdirilib, vakansiya bankı vasitəsilə iş imkanlarına əlçatanlıq artırılıb, elektron informasiya sistemləri ilə məlumat mübadiləsi sürətləndirilib.**



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin monitorinq və qiymətləndirmə şöbəsinin müdir müavini Səbinə Cumazadə daha sonra bildirib ki, hazırda hər işəgötürən üzrə kvotanın miqdarı artırılıb və müraciətlərin əmək və məşğulluq altsistemi üzərindən qəbul edilməsi ilə iş yerləri ilə bağlı nəzarət gücləndirilib. Bu yanaşmalarla işsizliyin azaldılmasına, işəgötürənlərin ehtiyaclarına uyğun kadrların təmin olunmasına, eləcə də məşğulluq sahəsində şəffaflıq və ədalət prinsiplərinin daha yüksək səviyyədə tətbiqinə nail olunub.



S.Cumazadənin sözlərinə görə, işsizliyin azaldılması və məşğulluğun artırılması, sosial baxımdan həssas qrupların əmək bazarına inteqrasiyasının gücləndirilməsi, eləcə də işəgötürənlərin maliyyə yükünün yüngülləşdirilməsi məqsədilə əməkhaqqının birgə maliyyələşdirilməsi mexanizmi yenidən tərtib edilib. Bu mexanizmlə qeyri-rəsmi məşğulluğun azaldılması, daha geniş əhali kütləsinin rəsmi əmək münasibətlərinə cəlb olunması ilə sosial müdafiə sisteminin gücləndirilməsi reallaşıb. Fəal məşğulluq tədbirlərinin genişləndirilməsi, işçi qüvvəsinin bacarıqlarının artırılması və sosial dialoqun inkişaf etdirilməsi ilə əmək bazarının səmərəliliyi yüksəlib, beləliklə, həm işçilər, həm də işəgötürənlər üçün daha əlverişli şərait yaradılıb.

Mərkəzin şöbə müdirinin müavini qeyd edib ki, proaktiv xidmətlərin inkişafı istiqamətində görülən tədbirlər – işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi, prosedurların sadələşdirilməsi, sosial müdafiəyə xüsusi ehtiyacı olan və əmək bazarına inteqrasiya prosesində çətinlik çəkən şəxslərin dəstəklənməsi, özünüməşğulluğun genişləndirilməsi və icra mexanizminin təkmilləşdirilməsi Məşğulluq Strategiyasında müəyyən olunmuş hədəflərə çatmaqda həlledici rol oynayır. Eyni zamanda, qeyri-rəsmi məşğulluğun qarşısını almaq üçün əmək bazarında monitorinq və proqnozlaşdırma sistemlərinin gücləndirilməsi də bu prosesin ayrılmaz tərkib hissəsidir.

S.Cumazadə sonda deyib ki, "2019-2030-cu illər üçün Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı" çərçivəsində görülən tədbirlər Azərbaycanın əmək bazarında şəffaflıq və səmərəliyin artmasına, sosial ədalətin təmin olunmasına və inklüziv inkişafın dəstəklənməsinə mühüm töhfə verir. Strategiya təkcə məşğulluq imkanlarının artırılmasına deyil, həm də işçi qüvvəsinin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş tədbirləri əhatə edir.

Ümumilikdə, Məşğulluq Strategiyasının uğurlu icrası daha müasir və rəqabətqabiliyyətli əmək bazarı formalaşdırmaqla məşğulluq imkanlarının genişləndirilməsində, sosial rifahın gücləndirilməsində və ümumilikdə, Azərbaycanda daha dayanıqlı və inklüziv iqtisadi inkişaf modelinin qurulmasında əhəmiyyətli rol oynayacaq.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Dəmir Yollarında rəqəmsallaşma: sürət, təhlükəsizlik və inkişafın yeni mərhələsi

**Müasir dövrdə nəqliyyat sektorunun rəqəmsallaşdırılması yalnız texnoloji yenilənmə deyil, həm də strateji idarəetmənin və iqtisadi inkişafın əsas sütunlarından biri kimi çıxış edir. Azərbaycanın dəmir yolları sistemində həyata keçirilən rəqəmsallaşma prosesi də məhz bu baxımdan milli prioritetlər sırasında mühüm yer tutur. Bu proses ölkənin nəqliyyat-logistika sistemini qlobal bazarlara daha sürətlə inteqrasiya etməklə yanaşı, daxili idarəetmə mexanizmlərini təkmilləşdirir, xidmət keyfiyyətini artırır, vaxt və resurs itkilərini azaldır.**



## İslahatların açdığı yollar

Azərbaycanın nəqliyyat-logistika sahəsində son illər ərzində ciddi islahatlar həyata keçirilib, xüsusilə də dəmir yolu infrastrukturunun modernləşdirilməsi və rəqəmsallaşdırılması ilə bağlı nəzərəçarpacaq irəliləyişlər əldə edilib. Belə ki, Azərbaycan Dəmir Yolları QSC-də (ADY) rəqəmsal inkişaf konsepsiyası çərçivəsində rəqəmsal transformasiyaya prioritet istiqamət kimi yanaşılaraq, bir sıra innovativ həllərin tətbiqi diqqətdə saxlanılıb.

ADY bu gün informasiya texnologiyalarının inteqrasiyası sahəsində ardıcıl islahatlar aparır. 2020-ci ildən etibarən həyata keçirilən rəqəmsal transformasiya planı çərçivəsində sərnişin və yük daşımaları sahəsində 40-dan çox texnoloji yenilik tətbiq edilib. Bu yeniliklər sırasında xüsusi yer tutan "e-bilet" sistemi vasitəsilə 2024-cü ildə satılan sərnişin biletlərinin 92 faizi onlayn alınıb. Halbuki bu göstərici 2019-cu ildə cəmi 28 faiz olub. "myADY" adlı mobil tətbiq də istifadəyə verilib və 2024-cü ilin sonuna qədər 600 mindən çox istifadəçi bu platforma üzərindən biletlər əldə edib, qatar cədvəllərinə baxıb və real vaxtda məlumat alıb.

Azərbaycan Dəmir Yollarında tətbiq olunan SCADA (Supervisory Control and Data Acquisition) sistemi bu gün qatarların enerji istehlakını, hərəkət sürətini və texniki vəziyyətini real vaxtda nəzarətdə saxlamağa imkan verir. Bu sistem ilk dəfə Bakı–Sumqayıt sürətli sərnişin qatarı xəttində tətbiq edilib və nəticədə qrafik üzrə hərəkət dəqiqliyi 98 faizə çatıb. Yük daşımalarında isə "Freight Tracking System" (FTS) adlanan sistem tətbiq olunaraq, yük vaqonlarının marşrut, yükləmə və boşaltma proseslərinə dair məlumatlar 24/7 rejimində izlənir. Bu sistem TRACECA və Orta Dəhliz üzərində tranzit daşımaların daha şəffaf və sürətli idarə olunmasına imkan yaradır. Müqayisə üçün qeyd edək ki, Avropa Dəmir Yolları Birliyi (CER) statistikasına görə, rəqəmsal yük izləmə sisteminə malik ölkələrdə yüklərin orta çatdırılma vaxtı 20-25 faiz daha azdır. Azərbaycan bu standartlara yaxınlaşmaqla regionda rəqabət üstünlüyü əldə edir.

2020-ci ildən etibarən tam fəaliyyətə başlayan online bilet satış sistemi artıq illik sərnişinlərin, təqribən, 75 faizi tərəfindən istifadə olunur. ADY-nin "ady.az" saytı və mobil tətbiqi vasitəsilə hər bir istifadəçi biletləri real vaxt rejimində əldə edə, səyahət tarixlərini dəyişə və geri qaytarma əməliyyatlarını həyata keçirə bilir. Tətbiq həm iOS, həm də Android platformalarında əlçatandır və ildə 1 milyondan artıq fəal istifadəçiyə malikdir.

ADY-yə məxsus Yük MMC-nin tətbiqi əhatəsindəki "ADY Express" elektron platforması isə müştərilərə daşınma sifarişini tam rəqəmsal şəkildə təqdim etməyə imkan verir. Bu sistem vasitəsilə yükdaşıma sifarişlərinin 90 faizi artıq onlayn qəbul olunur. Platforma blok qatarların marşrutu, vaqonların texniki vəziyyəti, gömrük bəyannamələrinin vəziyyəti barədə məlumatların inteqrasiyasını gerçəkləşdirir. Həmçinin elektron TIR karneti, CMR sənədi və e-gömrük tətbiqləri ilə Avropa və Asiya marşrutlarında operativliyi gücləndirir.

ADY Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (QCS) və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti (ASC) ilə birlikdə "Bir pəncərə – rəqəmsal tranzit" sistemini həyata keçirib. Bu platforma isə Şərq-Qərb və Şimal-Cənub dəhlizlərində daşınan yüklərin bütün keçid proseslərini bir sistem üzərində avtomatlaşdırıb. Nəticədə Orta Dəhliz üzrə keçid müddətləri 14 gündən 9 günə düşüb.

## Rəqəmsal gələcəyə doğru

Azərbaycan Dəmir Yolları 2022-ci ildən etibarən "IBM" və Oracle şirkətləri ilə əməkdaşlıq çərçivəsində Big Data və AI əsaslı platformaların tətbiqinə başlayıb. Nəticədə qatarların hərəkət qrafikləri, sıxlıq zonaları və təmir planları optimallaşıb. Proqnozlaşdırıcı texniki baxış sistemi vasitəsilə nasazlıqların 30 faizinin əvvəlcədən müəyyənləşməsi nəticəsində qəza halları minimuma enib.

ADY-nin tətbiq etdiyi real vaxt videomüşahidə və GPS izləmə sistemləri ilə 2024-cü ilin sonuna qədər 4,5 min kilometr dəmir yol xəttinin tam monitorinqi gerçəkləşdirilib. Bundan başqa yolboyu sensorlar, avtomatik baryerlər və sürət məhdudlaşdırıcı sistemlər vasitəsilə sərnişin və yük qatarlarının hərəkətlərində təhlükəsizlik və sabitlik möhkəmləndirilib.

Ölkəmizin dəmir yollarında rəqəmsal transformasiya prosesində bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsisi diqqət yetirilib. Dünya Bankı, eləcə də Avropa Yenidənqurma və İnkişaf Bankının maliyyələşdirdikləri "Azərbaycan Dəmir Yollarının modernləşdirilməsi" layihəsi çərçivəsində 400 milyon dollara yaxın vəsait rəqəmsallaşmaya yönəldilib. Həmçinin TRACECA və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu çərçivəsində rəqəmsal platformaların uyğunlaşdırılması üçün pilot layihələr həyata keçirilib.

ADY-nin yaxın 5 illik planlarına blokçeyn texnologiyası ilə sənəd dövriyyəsinin avtomatlaşdırılması, tam avtomatlaşdırılmış logistik mərkəzlərin qurulması, "yaşıl" enerji ilə işləyən elektrik lokomotivləri və avtomatik idarə olunan qatar sistemlərinin sınaqdan keçirilməsi daxildir. Bu texnologiyalar həm xərclərin azalmasınlı, həm də tranzit ölkə kimi respublikamızın mövqeyinin güclənməsini şərtləndirir.

Azərbaycan Dəmir Yolları rəqəmsallaşma sahəsində atdığı sistemli və strateji addımlarla ölkənin nəqliyyat sektorunda lokomotiv rolunu oynayır. Rəqəmsal texnologiyalar sayəsində sərnişin və yük daşımalarında keyfiyyət, sürət və təhlükəsizlik getdikcə əhəmiyyətli dərəcədə artır. Bu isə Azərbaycanın qlobal tranzit və logistika xəritəsində strateji əhəmiyyətini daha da möhkəmləndirir.

Onu da qeyd edək ki, sözügedən sahədə "yaşıl" enerji əsaslı rəqəmsal idarəetməyə üstünlük verilməsinin nəticəsidir ki, bu sistemdə 2023-cü ildə karbon emissiyaları 9 faiz azalıb, elektrikləşdirilən dəmir yolu xətləri 63 faizə çatdırılıb. Bu rəqəmlər Almaniya və İsveçrə kimi ölkələrlə müqayisədə aşağı göstərici sayılsa da, Qazaxıstan və Rusiya ilə nisbətdə daha yüksək olması ilə seçilib. ADY-də Günəş panellərinin quraşdırılması və "yaşıl" enerjiyə keçid təşəbbüslərinin gerçəkləşdirilməsi ilə qurumun rəqəmsal idarəetmə fəaliyyəti daha da güclənib.

Azərbaycan Dəmir Yollarında rəqəmsallaşmanın diqqət mərkəzində saxlanılması həm də o deməkdir ki, daşımalarda yavaşlama aradan qaldırılır, xərclərin səviyyəsi aşağı salınır, normal rəqabətə nail olunur. Bütün bunlar isə müvafiq texnologiyalar – real vaxt izləmə (GPS, IoT), elektron yük sənədləri (e-CMR, e-TIR), gömrük və sərhəd keçidlərinin rəqəmsal koordinasiyası, tranzitin avtomatlaşdırılmış planlaşdırılması kimi sistemlər nəticəsində gerçəkləşir. Ən başlıcası isə tranzit yüklərin bölgələrarası hərəkətinin sürətlənməsinə nail olunur və bu məsələdə logistikanın rəqəmsal bacarıq məsələsi həlli reallaşır.

## Regional tranzit qovşaq

Yeri gəlmişkən, bu məqamda mühüm bir məsələyə də toxunmaq istərdik. Belə ki, hazırda Azərbaycan Dəmir Yollarının qarşısında duran əsas hədəflərdən biri ölkəmizin regional tranzit qovşağına çevirilməsidir. Bu baxımdan rəqəmsallaşma Orta Dəhliz üzrə daşımaların daha səmərəli və izləniləbilən şəkildə həyata keçirilməsini gerçəkləşdirir. Bu məqsədin gerçəkləşməsində coğrafi mövqeyimiz də öz müsbət təsirini göstərir. Çünki uzun illərdir ki, Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən körpü rolunu oynayır. Ancaq bu körpünü səmərəli və gəlirli etməyin yolu artıq yalnız fiziki yollar salmaqdan deyil, həmin yolları rəqəmsal zəka ilə idarə etməkdən keçir.

Respublikada rəqəmsallaşmanın diqqət mərkəzində saxlanılmasının nəticəsidir ki, hazırda ölkə ərazisindən keçən Bakı – Tbilisi – Qars dəmir yolu üzərindən daşınan yüklərin ildə 1 milyon tondan artıq hissəsi rəqəmsal sistemlərlə izlənir. Bu göstəricinin yaxın 3 il ərzində ikiqat artırılması nəzərdə tutulur. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Azərbaycan hissəsində rəqəmsal inteqrasiya sistemlərinin tətbiqi nəticəsində ölkəmizin logistik dəyəri regional miqyasda davamlı şəkildə yüksəlir.

Azərbaycan dəmir yollarının rəqəmsallaşması nəticəsində qatarların orta hərəkət sürəti 2023-cü ildə 65 km/saatdan 82 km/saatadək yüksəlib. Bu, MDB ölkələri üzrə orta göstərici olan 76 km/saatdan yüksəkdir. Bakı–Tbilisi–Qars xəttində isə yük qatarlarının sürəti bəzi hissələrdə 100 km/saatadək çatır.

Təhlükəsizlik baxımından da rəqəmsal sistemlər ciddi nəticə verib. 2018–2023-cü illər arasında qatarların texniki nasazlıq səbəbindən ləngimə halları 38 faizdən 9 faizə enib. Bu da qabaqcıl diaqnostika və texniki monitorinq sistemlərinin sayəsində mümkün olub.

Azərbaycanın yerləşdiyi coğrafi mövqe ölkəni bir neçə əsas beynəlxalq dəhlizin kəsişmə nöqtəsinə çevirir. Rəqəmsallaşdırılmış dəmir yolu şəbəkəsi bu imkanlardan maksimum istifadə etməyə şərait yaradır. Məsələn, Orta Dəhliz üzərində hərəkət edən yüklər üçün tranzit vaxtı 2017-ci ildə 16 gün olduğu halda, 2024-cü ildə bu rəqəm 8 günə qədər azalıb.

Azərbaycan Dəmir Yolları Beynəlxalq Dəmir Yolları Birliyi (UIC) və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) ilə əməkdaşlıq edir və bu qurumlar tərəfindən "Rəqəmsal tranzit modeli"nin tətbiqinə pilot ölkə kimi seçilib. Bununla da respublikamızın beynəlxalq nüfuzu daha da güclənib.

Rəqəmsal idarəetmə sistemləri yalnız səmərəliliyi deyil, həm də ekoloji dayanıqlığı təmin edir. Qatarların optimal marşrut seçimi sayəsində illik 10 min tona qədər yanacaq qənaəti və təqribən 28 min ton karbon emissiyasının azaldılması mümkün olub. Bu göstəricilər "yaşıl" logistikaya keçid baxımından olduqca mühüm önəm daşıyır.

Eyni zamanda, 2023-cü ildə ADY-nin yükdaşımalardan əldə etdiyi gəlir əvvəlki ilə nisbətən 22 faiz artaraq 612 milyon manata çatıb. Bu artımın 60 faizi məhz rəqəmsal idarəetmənin tətbiqi ilə bağlı olub.

Azərbaycan Dəmir Yollarında həyata keçirilən rəqəmsallaşma prosesi təkcə nəqliyyat sisteminin modernləşdirilməsi deyil, eyni zamanda, iqtisadi inkişafın sürətləndirilməsi, regional inteqrasiyanın dərinləşdirilməsi və ölkənin strateji mövqeyinin möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir. Beynəlxalq göstəricilər və nümunələr sübut edir ki, Azərbaycan bu sahədə qabaqcıl təcrübə modellərindən istifadə etməklə regionda lider mövqeyini daha da möhkəmləndirir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Azərbaycan Dəmir Yolları" QSC və Mətbuat Şurasının "Azərbaycan Dəmir Yolları – 145 illik inkişaf yolu" mövzusundakı birgə müsabiqəsinə təqdim olunur.*

# Ermənistanın işğal etdiyi ərazilərimizdə qanunsuz məskunlaşma ilə bağlı yeni faktlar açıqlanıb

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 21-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasa təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar qatılıblar.

Məhkəmə iclasında 2007–2020-ci illərdə Azərbaycanın vaxtilə Ermənistan işğalı altında olan ərazilərində yaradılmış qondarma qurumun "rəhbəri" olmuş Bako Sahakyana növbəti suallar ünvanlanıb. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran B.Sahakyan vaxtilə "Hayastan" ümumermәni fondunun (həmin fond 1992-ci ildə Ermənistan prezidenti Levon Ter-Petrosyanın fərmanı ilə yaradılıb – red.) üzvlərindən biri olduğunu təsdiqləyib.

O, Ermənistan hakimiyyətinin nümayəndələrinin, qondarma qurumun "rəhbərləri"-nin fondun üzvü olduqlarını söyləyib.

Təqsirləndirilən şəxs fonda dünyanın müxtəlif ölkələrində yaşayan ermənilərin, habelə Ermənistan vətəndaşı olan biznesmenlərin ianələr etdiklərini diqqətə çatdırıb. "Avropa ərazisində radio, Amerikada isə hər il televiziya vasitəsilə tədbirlər keçirilirdi. Bu tədbirlər zamanı vəsaitlər toplanırdı", - deyə o əlavə edib.

B.Sahakyan bildirib ki, fonda yığılan vəsaitlərin bir hissəsi Ermənistanda, bir hissəsi isə qondarma rejimdə müxtəlif işlərin görülməsinə (infrastruktur, səhiyyə, təhsil) sərf olunub. O, fondun gördüyü işlərdən birini də açıqlayıb. Bildirib ki, fondun vəsaiti hesabına Ermənistandan Xankəndiyə iki yol çəkilib. Bunlar İrəvan–Gorus–Xankəndi və İrəvan–Basarkeçər–Xankəndi magistral yollarıdır.

Prokurorun sualını cavablandıran B.Sahakyan Ermənistandan verilən hərbi texnikaların həmin magistral yollarla Azərbaycanın vaxtilə işğal altında olan ərazilərinə gətirildiyini də təsdiqləyib. Bildirilib ki, fondun vəsaitlərinin bir hissəsi isə Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində qanunsuz məskunlaşmaya sərf edilib.

Məhkəmə prosesinin davamında Azərbaycanın vaxtilə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərində qanunsuz məskunlaşma aparılması sübuta yetirilib.

Eyni zamanda, vaxtilə işğal altında olmuş ərazilərdə qanunsuz məskunlaşma aparılmasına dair bir sıra sənədlər, o cümlədən Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən, Xarici Kəşfiyyat Xidmətindən və Dövlət Təhlükəsizliyi Xidmətindən daxil olan və istintaq materiallarına əlavə edilmiş sənədlər tədqiq edilib.

Sənədlərlə əksəriyyəti Suriya və Livan, habelə bəzi digər ölkələrin vətəndaşlarının Azərbaycanın vaxtilə işğalda olan ərazilərində qanunsuz şəkildə məskunlaşdırıldığı təsdiqlənib. Bu ərazilərə Azərbaycanın Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı rayonları və digər yerlər daxildir. Məhkəmədə qanunsuz məskunlaşmış şəxslərin Suriya, Livan və digər ölkələrdə anadan olmalarını sübuta yetirən pasportların surətləri də nümayiş etdirilib.

Ermənilər tərəfindən hazırlanmış və məhkəmədə tədqiq edilən videomaterialda danışan şəxs aşpaz olduğunu, Beyrutdan gəldiyini bildirərək deyib: "Mən Beyrutdan gəlmişəm. Ermənistan vasitəsilə Qarabağa gəldim. Adım Toni Hacardır. Gəldim və gördüm ki, bura çox yaxşıdır. Bizə ev verdilər. Burada işləmək üçün kifayət qədər imkan var".

Digər videomaterialda Şuşa "icra hakimiyyətinin nümayəndəsi" Elik Harutunyan bildirir ki, yerli "hökumət" (qondarma rejimi nəzərdə tutur – red.) Toni Hacarın ailəsinə müvəqqəti mənzil verib, onların kommunal xərclərini ödəyir. Növbəti günlərdə isə "hökumət" Hacarın ailəsinə ev verəcək.

"Nümayəndə" qeyd edir ki, 10 il həmin orada yaşadıqdan sonra həmin ev onların özəl mülkiyyətinə çevriləcək.

Tədqiq edilən növbəti sənədə əsasən, qondarma rejim 2001-ci ildə qanunsuz məskunlaşdırma planı ilə bağlı 10 illik proqramı təsdiqləyib. Orada qanunsuz məskunlaşdırmanın məqsədləri və coğrafi əraziləri göstərilib. Həmin layihəyə əsasən, 10 min mənzil, 200 məktəb və digər ictimai müəssisələr tikilməli, su xətləri, yollar və digər infrastruktur qurulmalı idi. Qeyd edilib ki, "Tüfəngiyan" fondu Azərbaycanın vaxtilə işğal altında olan ərazilərində 2003-cü ildə fəaliyyətə başlayıb. Layihənin əsas məqsədləri "məskunlaşma və iqtisadi inkişaf" olub. Bu məqsədlə təxminən 4 milyon ABŞ dolları məbləğində sərmayə qoyulub.

B.Sahakyan prokurorun suallarına cavabında Azərbaycanın vaxtilə işğal olunmuş ərazilərinə əsasən Suriya və Livan vətəndaşlarının, habelə digər ölkələrdən bəzi vətəndaşların gətirilərək məskunlaşdırıldığını deyib.

B.Sahakyan söyləyib ki, bu işlərlə qondarma qurumun "sosial müdafiə nazirliyi" məşğul olub.

"Əvvəllər "dövlət miqrasiya xidməti" "sosial müdafiə nazirliyi"nin tabeliyində idi. Amma sonradan bu struktur ayrıldı. Bu layihə bizim üçün strateji əhəmiyyətli idi. Çünki Birinci Qarabağ müharibəsindən sonra əhalinin sayı kəskin şəkildə azalmışdı", - deyə o əlavə edib.

B.Sahakyan daha sonra qeyd edib: "Bu layihələr o qədər də cəlbedici deyildi ki, adamlar canfəşanlıqla gəlsinlər, qəbul etsinlər, bu layihələrə cəlb olsunlar. Adamlar olurdu ki, gəlirdilər, ərazi ilə tanış olurdular və sonra burada qalmamaq (məskunlaşmamaq – red.) barədə qərar verirdilər. Çünki istənilən ailə üçün bu cür qərar verməklə bağlı da müəyyən səbəblər var. İnfrastruktur, səhiyyə təminatı, məktəblər olmalıdır".

O, qanunsuz məskunlaşdırma üçün gətirilən şəxslərə imtiyazların verildiyini, onlarla bağlı bir sıra təşviqedici hərəkətlər icra olunduğunu da etiraf edib. Bu sıraya müxtəlif kompensasiyalar, vergi güzəştləri və s. daxil idi.

Təqsirləndirilən şəxsin sözlərinə görə, qondarma rejimin ərazisində elə yerlər olub ki, bir kvadratkilometrdə bir nəfər yaşayıb. O, layihənin uğurla başa çatmadığını da bildirib. Əlavə edib ki, əhalinin sayını 200 minə çatdırmaq istəsələr də, bu mümkün olmayıb.

B.Sahakyan Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində ağacların kəsildiyini də təsdiqləyib və deyib: "Meşələrin kəsilməsinin harada aparılmasına ehtiyac yaranırdısa, bu, yalnız aidiyyəti "nazirliyin məsul şəxslərinin icazəsi" ilə həyata keçirilə bilərdi. Amma konkret ağac növü də deyə bilmərəm".

O, ağacların ixtisaslaşmış şirkətlər tərəfindən şərabçılıq şirkətlərinə satılmaq üçün kəsildiyini də etiraf edib: "Müxtəlif ölçüdə çəlləklər hazırlayırdılar".

B.Sahakyanın sözlərinə görə, kəsilmiş ağacların bir hissəsi qondarma rejimdə istifadə edilib, bir hissəsi isə istifadə üçün Ermənistana göndərilib.

Məhkəmə prosesi iyunun 23-də davam etdiriləcək.

***XQ***

**İslam Ələsgərli – 100**

# Ulu Ələsgər irsinə sədaqət

**Azərbaycan ozan sənətinin Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Aşıq Alı, Aşıq Ələsgər kimi görkəmli nümayəndələri olub. Bu aşıqlar öz dövrlərində el arasında yüksək nüfuz qazanmış, dastan, qoşma, gəraylı və təcnisləri ilə aşıq ədəbiyyatının zənginləşməsinə böyük töhfələr vemişlər. Bu zəngin ədəbi irsi dünəndən bu günə gətirib çıxaranlar isə tədqiqatçı alimlər, ədəbiyyatşünaslardır. Belə istedadlı şəxsiyyətlərdən biri də İslam Ələsgərli idi.**

Babasının bədii irsini tədqiq edib kitablarında yaşadan İslam Ələsgərli digər elmdaşları ilə bərabər ədəbiyyatımızda bir Ələsgərşünaslıq sahəsi yaradıb. O, ilk növbədə, şairin həyatını, yaradıcılığını və əsərlərinin sosial-mədəni kontekstini araşdırıb. Poetik üslubunu, lirikasındakı mövzu və simvolları, fəlsəfi və etik yönləri hərtərəfli tədqiq edib. Ölməz əsərləri yarandığı dövrün siyasi, ictimai və mədəni şəraiti ilə əlaqələndirib. Ələsgərşünas alim şairin əsərlərini yalnız ədəbiyyat deyil, həm də musiqi mədəniyyəti baxımından qiymətləndirib, onun müasir dövrün ədəbiyyatında oynadığı rolu da layiqincə dəyərləndirib.



Azərbaycan ədəbiyyatşünaslığı və mədəniyyətşünaslığına böyük töhfələr verən İslam Ələsgərli 22 iyun 1925-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olub. 1954-cü ildə Azərbaycan Dövlət Universitetini bitirib. Diplom işi "Aşıq Ələsgər ədəbi irsinin öyrənilməsi" olub. O, 1941-ci ildən Basarkeçər rayonunun Zod kənd orta məktəbində 48 il müəllim, direktor işləyib. Göyçə aşıqlarının və şairlərinin şeirlərini toplayıb, 1956-cı ildən başlayaraq Aşıq Ələsgərin əsərlərini dəfələrlə çap etdirib və haqqında sanballı məqalələr yazıb. 1973-cü ildə "Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları" adlı namizədlik dissertasiyası müdafiə edib.1997-ci ildə ulu öndər Heydər Əliyevin "Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı ilə bağlı "Haqq aşığı Ələsgər" monoqrafiyasını yazıb. İslam Ələsgərli 6 oktyabr 2014-cü ildə 89 yaşında Göygöl rayonunda vəfat edib və orada dəfn olunub.

İslam Ələsgərli Zod kənd orta məktəbində çalışdığı illər ərzində yalnız təhsil və elmi araşdırma sahəsində deyil, həm də ictimai-sosial işlərdə fəal olub. 1958–1961-ci illərdə doğma kəndində kolxoz sədri vəzifəsində çalışaraq təsərrüfat, infrastruktur sahələrində şəraitin yaxşılaşdırılması üçün mühüm tədbirlər görüb.

Yorulmaz tədqiqatçının yazdığı əsərlər arasında "Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları", "Ələsgər ocağı", "Haqq aşığı Ələsgər", "Sazlı-sözlü Göyçə" və digərləri ədəbiyyatşünaslığımızı xeyli zənginləşdirib. Dövri mətbuatdakı məqalələrində aşıq sənətinin müxtəlif aspektləri, xüsusən də Aşıq Ələsgərin yaradıcılığı və onun Azərbaycan aşıq sənətindəki roluna sistemli şəkildə işıq tutub.

İslam Ələsgərlinin elmi irsi əsasən aşıq ədəbiyyatının, xüsusilə də Dədə Ələsgərin yaradıcılığının tədqiqinə həsr olunmuşdur. Onun bir-birindən gözəl əsərləri təkcə elmi auditoriya üçün deyil, həm də geniş oxucu kütləsi üçün yazılmış dəyərli mənbələrdir. O, həmçinin dövri mətbuatda onlarla məqalə ilə çıxış etmiş, müxtəlif konfrans və tədbirlərdə iştirak etmişdir.

Aşıq Ələsgərin 175 illik yubileyi münasibətilə təşkil olunan tədbirlərdə iştirakı və çıxışları İslam Ələsgərlinin necə fədakar fəaliyyət göstərdiyini sübut edib. Təsadüfi deyil ki, o, həm də gənc tədqiqatçılar üçün bir məktəb, Aşıq Ələsgər irsini öyrənmək istəyənlər üçün danılmaz zəngin məlumat mənbəyi olub. Bu gün onun əsərləri Azərbaycan aşıq sənəti və ədəbiyyatşünaslıq elminin mühüm qaynaqları sayılır.

İslam Ələsgərli adı xalqın yaddaşında təkcə Dədə Ələsgərin nəvəsi olaraq deyil, həm də bu irsi elmi ciddiyyət və məhəbbətlə araşdırıb yaşadan müdrik ziyalı kimi qalıb. O, sözün əsl mənasında, bir "mədəniyyət keşikçisi" idi.

***Fatma HACIYEVA,***
***tibb elmləri doktoru, professor***

# Təsviri sənətimizin fədakar daşıyıcısı

**O, uşaqlıqdan rənglər dünyasının aludəçisi olub. Karandaşla, qələmlə, təbaşirlə dəftərə, daşa-divara cızmaqaralar edib. Tədricən fırçaya, akvarelə, yağlı boyalara keçib. Uğurlu təxəyyül məhsullarını görən valideynləri, müəllimləri Fikrətin istedadını itib-batmağa qoymayıb, onun yolunu təsviri sənətə yönəldiblər. Doğma Neftçalada ilk ustadı Adil Hacıyevdən ilkin sənət dərsləri alıb, incəlikləri öyrənib. Beləcə, rəssamlığa ömürlük bağlanıb.**

Nənəsinin qədimi sandığının naxışları, Xəzərin ləpədöyəninin özəllikləri, dünyanın çeşidli gözəllikləri Fikrət İbrahimlinin ilk ilham mənbəyi olub. Əvvəlcə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirib, daha sonra Mədəniyyət və İncəsənət Universitetində rəngkarlıq ixtisası üzrə oxuyub. Xalq rəssamı Toğrul Nərimanbəyovun tələbəsi olub. Rəssamlar İttifaqının üzvüdür. 2022-ci ildə "Ruhumun təqdimatı – Ömür səhifələrim" adlı fərdi sərgisi keçirilib. Hazırda yaşının 70-ci zirvəsində qərar tutan rəssamın sənət söhbətlərini dinləmək bu sahədən uzaq olanları da özünə cəlb edir. Zahirən sakit adam olsa da, sənətdən ayrı bir şövqlə, tükənməz yanğı ilə danışır, daxili dünyasını maraqlı bir tərzdə sərgiləyir.





Fikrət İbrahimlinin yaradıcılığı əsasən rəngkarlıq əsərlərindən ibarətdir. O, süjetli tablo, portret, mənzərə və natürmort janrında çəkdiyi bir çox cazibədar əsərlərin müəllifi kimi tanınır. Mənzərə janrında yaratdığı əsərlər onun yaradıcılığında geniş yer tutur. Adam baxanda gözünü ayıra bilmir. Onun rəsmləri Azərbaycanın və bir sıra xarici ölkələrin muzey və qalereyalarında, eləcə də şəxsi kolleksiyalarda saxlanılır. Ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva vaxtilə onun "Xurcunlar" adlı natürmortunu bəyənib seçərək, Fransaya səfəri zamanı həmin ölkənin prezidenti Jak Şiraka hədiyyə edib.

Redaksiyamızın qonağı olan Fikrət İbrahimli dedi ki, sənətinə vurulduğu fırça ustaları çoxdur. Amma Modilyaninin portretlərinə və Van Qoqun yaxılarına daha çox üstünlük verir, çünki bunlar onun ruhuna daha yaxındır, daha məhrəmdir. Söhbət zamanı Fikrət müəllimdən ustadı – Xalq rəssamı Toğrul Nərimanbəyovu necə xatırladığını soruşduq.

– Toğrul Nərimanbəyovun dərs dediyi ilk qrup biz olmuşuq, – dedi. – Burada çox dərs demədi, cəmi 2 il çəkdi. Sonra qızı Əsməri nahaq yerə institutda imtahandan kəsdilər. Onu oxumağa Tiflisə apardı. Özü də inciyib institutdan çıxdı...

Toğrul müəllim mənə çox dəstək olub. Tələbə vaxtı emalatxanasının açarlarını vermişdi ki, orada rahat işləyim. Bir gün isə dedi ki, al bu kətanı, rəngi, get, hazırlaş. Fransada ikimizin sərgisi olacaq. Bax, mənə bu qədər etibar edirdi. Düzdür, müəyyən səbəblərdən o sərgiyə getmək alınmadı, amma Toğrul müəllimin işıqlı obrazı daim başım üstündədir. "Toğrulun nağıl dünyası" əsərim bu sevgidən yaranıb.

O, görkəmli şəxsiyyətlərin portretlərini xüsusi sevgi ilə yaradıb. Hazırda XX əsr Azərbaycan-türk ictimai fikrinin azmanı, yazıçı, publisist Əli bəy Hüseynzadənin eskizləri üzərində işləyir. Rəssamın bir tablosu da var ki, orada, əsasən, Şuşadan olan ünlü şəxsiyyətlərin obrazlarını canlandırıb. Tablo "Şuşa nağılı" adlanır. Bu barədə söz düşəndə deyir ki, mərhum deputat Qənirə Paşayevanın təşkil etdiyi sərgidə Polad Bülbüloğlu da tabloya baxdı və "Bəs, atam hanı, – deyə soruşdu. Bülbülün təsvirini ona göstərəndən sonra tez telefonunu çıxarıb tablonun fotosunu çəkdi.

Yeri gəlmişkən, həmin dəyərli tablo hələ alıcısını tapmayıb. Fikrət İbrahimli deyib: "Vəsiyyət eləmişəm ki, sağlığımda tablonu alan tapılmasa, məndən sonra bir muzeyə bağışlasınlar".

Rəssamın, istisnasız olaraq, bütün əsərləri diqqət çəkəndir: "Tərsanə", "Neftçala balıqçıları", "Zəfər günü", "Muğam", "İçərişəhər"... Hazırda YARAT-da davam edən "Bir zamanlar dəniz" adlı sərgidə onun "Balıqçılar" rəsmi də ekspozisiyanı bəzəyir.

Rejissor Seyran Bədəlovun Kür çayı ilə bağlı bədii-sənədli filmi çəkilir. Orada şair Əlisəmid Kür şeirlərini səsləndirir və təsvirlərdə rəssam Fikrət İbrahimlinin naturadan Kürlə Arazın qovuşuğunu çəkdiyi kadrlar göstərilir.

Abşeron mənzərələrini xüsusi həvəslə çəkir. Doğulub böyüdüyü Neftçala ilə yaşadığı Abşeron arasında nə kimi oxşarlıqların olması barədə suala cavabında Fikrət müəllim dedi:

– Kolorit fərqi olsa da, müəyyən oxşarlıqlar var. Həm də mən ağlım kəsəndən Səttarı, Toğrulu görmüşəm, bu gün çəkdiklərim həm də onlardan eşitdiklərimə əsaslanır. Üstəlik, özüm də Bakıya köçəndən sonra uzun illər İçərişəhərdə yaşamışam. Bakını hiss etməmək mümkün deyil. Neftçalaya gəldikdə isə mənim ora dair xeyli işlərim var. Xüsusilə də yaradıcılığımın ilk illərində…

**– Bilirik ki, mərhum qardaşınız Altay da rəssam olub. Övladlarınızdan necə, sizin yolunuzu davam etdirən varmı?**

– Altay da Əzim Əzimzadəni bitirmişdi. Doxsanıncı illərdə qardaşımgil briqada düzəldib evlərdə təmir işləri görürdülər. Bir ara mən də onlara qoşulmaq istədim. Razı olmadı. Dedi ki, payını mən gətirəcəyəm, sən otur işlə. Mənə tez-tez kətan, rəng gətirirdi. Novxanıda ikimərtəbəli bağ evi vardı, üçüncü mərtəbəsini artırıb mənə emalatxana eləmişdi ki, rahat işləyim. Onun xatirəsinə "Yenə o bağ olaydı" adlı kompozisiya yaratmışam. Nə isə… Qızım Ayturan xalçaçı rəssamdır, DOST xidmətində işləyir. Oğlum Əli isə iqtisadçıdır. Ancaq onun da yaxşı rəsmləri var.

**– Sizin üçün rəngmi öndə gəlir, yoxsa kompozisiya?**

– Əsas kompozisiyanı qurmaqdır. Bundan sonra içərisini doldurmağa nə var ki? Kompozisiyanı işləyə-işləyə rəng gözünün önünə gəlir. Bəzən olur ki, əsərə bir rənglə başlayıb, başqa rənglə bitirirsən.

Fikrət İbrahimli əsasən realist üslubda əsərlər yaradır. Bu barədə söz düşəndə deyir:

– Əslində, mənim də abstrakt işlərim var. Sadəcə elə mövzular olur ki, onları abstrakt işləmək olmur. Xüsusilə də söhbət tarixi mövzulardan, şəxsiyyətlərdən gedirsə. Bu yaxınlarda abstrakt işlərdən ibarət bir sərgiyə getmişdim. Onlarla işin içərisində cəmi bir-iki əsərin qarşısında dayandım, vəssalam. Müəlliflərin də çoxu gənc rəssamlar idi. Bu gün onların getmək istədiyi yolu Avropa çoxdan keçib. Abstrakt işləməyin də öz qayda-qanunu var, axı. Üstəlik, abstrakt işləyənlərin çoxu kompüterdə çəkir. Ora-bura baxa-baxa əsər işləməyin nə mənası var?..

Bu günlərdə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa Azərbaycan təsviri sənətinin inkişafında özünəməxsus dəst-xətti, duyumu ilə seçilən ictimai və sənət xadimini yubileyi ilə bağlı təbrik edib. Təbrik mətnində qeyd olunub ki, rəssamın təbiət və tarix, insan və ruh, məkan və zaman, eləcə də mənəvi dəyərlər kontekstində yaratdığı əsərlər sənət estetikasına və milli-mənəvi yaddaşa xidmət edir. Fikrət İbrahimli Azərbaycan təsviri sənətində seçilən rəssam kimi həm də milli mədəniyyətimizin fədakar daşıyıcılarındandır.

Əminik ki, Fikrət İbrahimli yaradıcılığı ilə bundan sonra da Azərbaycan rəssamlıq məktəbinin zəngin xəzinəsinə töhfələr verəcək, nəsillərin estetik zövqünün formalaşmasında öz təsirini göstərəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Azərbaycan və Türkiyənin ortaq filmi



**"Ultra Production", "Poetika Film" (Türkiyə) və Azərbaycan Kinematoqrafçılar İttifaqının istehsalı olan "Ölü Həsən" filminin son çəkilişləri gedir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA), İctimai televiziya, Dev Film və Özsüt restoranlar şəbəkəsinin (ketrinq dəstəyi) dəstəyi ilə reallaşdırılır.**



Filmin prodüserlərindən biri olan Əli İsa Cabbarov XQ-yə açıqlamasında bildirib ki, filmin rejissorluğunu Türkan Hüseyn yerinə yetirir. Ssenari müəllifləri Türkan Hüseyn və İsmayıl İman, quruluşçu operator Vasif Vəlizadə, quruluşçu rəssam Turan Yusifova, bəstəkar Nigar Süleyman, səs operatoru Emin Mahmudovdur. Filmin qəhrəmanı Həsənin öldüyünü zənn edən kəndliləri o, gözlərini açınca mistik güclərə sahib olduğuna inanırlar. Hadisələrin sonrakı gedişatı Həsənin ətrafında cərəyan etməyə başlayır və ssenari bu mistik atmosfer əsasında inkişaf etdirilir. Eyni zamanda, mistik realizmlə yanaşı, film dram, triller və qara-yumor elementlərini də özündə birləşdirir.

Ekran əsərində Qurban Əhmədov, Natavan Abbaslı, Qurban İsmayılov, Türkay Cəfərli, Orxan İskəndərli, Ülvi Həşim, Ramil Məmmədov, Mətləb Abuşov, Sevinc Əliyeva, Eltəkin Xan, Nigar Məmmədova, Əzizə Həşimli, Leyli Vəliyeva və Vaqif Kərimov çəkiliblər. Filmin kastinqini "Next Cast" Agentliyi yerinə yetirib.

Çəkiliş prosesləri Şamaxı rayonunda, Bakının mərkəzi hissələrində, eləcə də Qobustan, Zirə və Sahil qəsəbələrində aparılıb. Tammetrajlı bədii film 13+ yaş kateqoriyası üçün nəzərdə tutulub. İstehsalı 2026-cı ildə başa çatacaq film əvvəlcə beynəlxalq festivallarda nümayiş olunacaq, daha sonra isə kinoteatrlarda tamaşaçılara təqdim ediləcək.

***XQ***

# "Muğam aləmi"nin qalibləri məlum olub

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Muğam aləmi" 7-ci Beynəlxalq Musiqi Festivalı davam edir. Festival çərçivəsində Azərbaycan Milli Konservatoriyasında beynəlxalq muğam ifaçıları müsabiqəsi təşkil olunub.**



İki turdan ibarət müsabiqədə Azərbaycan, Türkiyə, Tacikistan, Özbəkistan, Səudiyyə Ərəbistanı, Çin və digər ölkələrdən ümumilikdə 31 gənc muğam ifaçısı iştirak edir.

Beynəlxalq münsiflər heyətinin qərarı ilə 14 iştirakçı finala vəsiqə qazanıb. Onların sırasından 6 ifaçı qalib seçilib: ölkəmizi təmsil edən Məftun Səfərli ən yaxşı nəticə göstərərək müsabiqənin Qran-prisini qazanıb. Farangiz Mahmudova (Özbəkistan) 1-ci yerə, Nurəddin Tağıyev və Məhta Məhəmmədəlizadə Behnam (hər ikisi Azərbaycandan) 2-ci yerə, Alibek Saparboyev və Dilnoza Akbarova (hər ikisi Özbəkistandan) 3-cü yerə layiq görülüblər. Azərbaycan Milli Konservatoriyasının "Ənənəyə sadiqliyə görə" xüsusi mükafatı isə Çin təmsilçisi – Sintzyan Uyğur muxtar rayonundan musiqi qrupuna təqdim edilib.

Münsiflər heyətində Özbəkistan, Azərbaycan, Türkiyə və Almaniya təmsil olunub.

Müsabiqə laureatlarının yekun konserti bu gün Ağdam Muğam Mərkəzində keçiriləcək.

***XQ***

# Erməni xalqı yalana sitayişin faciəsini yaşayır



**Zəmanəmiz bir daha sübut etdi: O xalq xoşbəxtdir ki, qonşusu sülhsevər olsun. Çox təəssüf ki, antitürk siyasəti ilə zəhərlənmiş erməni toplumu ilə qonşuluq xalqımıza zaman-zaman faciələr yaşadıb. Erməni xislətini araşdıran, onların Azərbaycana qarşı düşmənçiliyinin əsaslarını açıb göstərən tədqiqat əsərləri yeni nəsillərin bu bəladan özünü qorumasında mənəvi silahdır. Belə araşdırmaçılardan biri bu günlərdə 70 yaşı tamam olan, Birinci Qarabağ savaşının acılarını, ağrılarını öz taleyində vətəndaş yanğısı ilə yaşayıb, qələmə alan müharibə veteranı, dünya erməniliyini ifşa edən iki əsərin – “Dünya ermənilərinin gerçək tarixi” və “Erməni elitası”nın etirafları və ya “mənim günahlarım” adlı kitabların müəllifi, tarixçi alim, Bakı Dövlət Universitetinin Asiya və Afrika ölkələri tarixi kafedrasının dosenti Atamoğlan Məmmədlidir.**

**– Atamoğlan müəllim, bu günlərdə 70 yaşınız tamam oldu. Ömür yolunuzu özünüzün Birinci Qarabağ müharibəsinin veteranı, oğlunuz Orxan Məmmədlinin isə 44 günlük Vətən müharibəsinin qazisi olmağı şərəfləndirir.**

– Bəli, insan ömrünün müəyyən mərhələsində ömür qatarına necə mindiyini və hansı sınaqlarla qarşılaşdığını yadına salmalı olursan. Mən də, ömrümün 70-ci ilində düşündüm: “Geriyə baxanda qürur hissi keçirirəm. Tələbəlik illərində demişdim: Şükür ki, müstəqilliyimiz gözümüzün önündə baş verdi və bu günü gördük. Tələbələrimə də deyirəm həmişə tarixi Azərbaycan 6 yerə bölünüb. Bunun bir hissəsi bizim Azərbaycan Respublikasıdır. Diaspor nümayəndələri ilə görüşümdə onlara da anladıram ki, 50 milyonluq dünya azərbaycanlılarının gözü bizim respublikadadır. Xalqımızın döyünən ürəyi Azərbaycandır, hamının gözü buradadır. Bütün dünya azərbaycanlılarının ümid yeri Azərbaycandır. Ona görə də tarixi müstəqilliyimizi qazananda zorla bizi müharibəyə cəlb etdilər, torpaqlarımız işğal olundu. Böyük imperiyalar dağılanda onun dalğası çox fəlakətlərə səbəb olur. Bu illər ərzində 12 kitabım nəşr olunub. 19-u isə nəşrə hazırdır.

Mən birinci Qarabağ savaşının iştirakçısıyam. Xocalı faciəsindən sonra auditoriyada dərs keçə bilmirdim, indiki kimi yadımdadır, auditoriyaya girdim, mühazirə saatı idi. 120 nəfər tələbəyə – 4 qrupa müraciət etdim: Əziz tələbələr, mövzumuz “Orta əsrlərdə Çin “ adlanır. Amma bu gün dərsimiz olmayacaq.

Soruşdular, səbəb nədir? Dedim ki, mən cəbhəyə gedirəm. Belə deyəndə 20, 30 nəfər gənc ayağa qalxdı ki, müəllim, biz də gedirik. Dedim siz genofonumuzsunuz, vaxtı gələndə gedərsiniz. Əyləşin yerinizə. Cavan müəllim idim. Bakı Dövlət Universitetində işləyirdim. Azərbaycan böyük imperiyanın caynağından çıxıb, müstəqilliyini élan etsə də, torpaqlarımızın başı üstündə qara yellər əsməyə başlamışdı. Bu o illər idi ki, 1988-ci ildən başlayaraq qədim İrəvan torpaqlarından o yerlərin azərbaycanlı vətəndaşları vəhşicəsinə qətliama məruz qalaraq qovulmuşdular və ümid yeri kimi Azərbaycana pənah gətirmişdilər. Bir sözlə, zorən müharibəyə məcbur edilmişdik.

6 ay səngərdə düşmənlə üz-üzə dayandıq. Ön xətdə olarkən çox böyük təcrübə qazandım. Özünümüdafiə batalyonlarının tərkibində döyüşürdüm, xatirə fotolarımı da sizə təqdim edəcəyəm.

Bəli, o illərdən tanıdığım ziyalılardan qeyrətliləri silaha sarılıb özünümüdafiə batalyonlarına qoşuldular. “Ermənilərin gerçək tarixi” kitabımın yaranma tarixi də səngərdən başlayıb. Orada özümə söz verdim ki, ermənilərin Qarabağ hadisələri başlayan vaxtacan, (Türkiyədə yazılmış rəsmi mənbələr əsasında) törətdikləri cinayətlərdən yazım. Ermənilər hesablamışdılar ki, 1988-1989-cu ilədək bütün dünyadakı ermənilər və onların havadarları tərəfindən Azərbaycana və Türkiyəyə qarşı Yer kürəsində 26 mindən çox kitab, məqalə, əsər çıxıb. Fikir verin ki, bunlar ideoloji cəhətdən çoxdan hazırlaşmışdılar.

**– Onlar tarix boyu bu düşüncə ilə yaşayıblar.**

– Bəli, illərlə onlar ideoloji cəbhədə silahlanıblar. Gecələr səngərdə olarkən Ayı müşahidə edirdim. Bir gecə Ayın işığının qarşısında fikirləşdim və söz verdim ki, əgər sağ qalsam, mən düşmənə elmi mənbələr əsasında cavab verəcəyəm. Döyüşdən sağ-salamat qayıtdıqdan sonra 20 ilə yaxın topladığım materialları, xüsusilə xristian mənbələrindən yeni-yeni məlumatları yığdım və işləməyə başladım. Akdemik Yaqub Mahmudov mənə yüksək dəyər verərək dedi: Atamoğlan, bu kitab iki doktorluq dəyərindədir. Kitabım Milli Təhlükəsizlik Nazirliyinin xüsusi mükafatına layiq görüldü. Sonra əsərin rus dilində olan variantını Rusiyadakı diasporamız üçün hazırladıq: “İstinnaya istoriya armyan” Mənən bir az rahatlıq tapdım ki, düşmənin hiyləgər ideologiyasını alt-üst etdim. 200 il idi ki, Azərbaycan analarının göz yaşı qurumurdu, şükürlər olsun ki, 44 günlük Vətən müharibəsində qisasımız alındı.




**– Qisas qiyamətə qalmadı. Qarşımda bir kitab var: “Mənim günahlarım” – Mea Gulfa (latın dilində) və ingilis dilində tərcümə olunan “Erməni “elitasının” etirafları” elmi mənbələr əsasında yazdığınız elmi-publisistik əsərlər. Bu barədə ətraflı danışmağınızı xahiş edirəm.**

– Latın dili ölü dil olsa da, bilərəkdən bu dildən istifadə etdim. “Mənim günahlarım” erməni elitasının adından etiraf olunur. Kitab 5 dilə tərcümə olunub. Erməniləri müdafiə edənlərin - qərbi avropalıların öz dilində onlara demək istəyirik ki, gerçək faktları erməni elitasının öz dilindən eşidin, agah olun.

**– Bu kitabın əsasında sənədli film də hazırlanıb.**

– Məni ağrıdan məsələyə toxundunuz. Bu əsər 5 min manat mükafat qazanmışdı. Həmin məbləğin əsasında sənədli film hazırlanmasını rəğbətlə qarşıladım. Bacardığımız qədər bəşəriyyətə ermənilərin ideoloji silahının hədəfinin iç üzünü – yalanlarını çatdırmalıyıq. Kitabdakı faktlar detallarla, xronikadan istifadə edilməklə mükəmməl sənədli film səviyyəsində işıqlandırılıb. Bir sözlə, reallığa söykənən süjet xəttinin işlənib hazırlanması məni çox sevindirdi. Lakin filmin göstərilməsindən az bir müddət sonra video-material yutubdan silindi. Çox mütəəssir oldum, bu günə kimi narahatam, bu film haradadır, niyə silindi? Filmin orijinalı ilə maraqlansam da, mənə dəqiq cavab verilmədi. Təəssüf edirəm.

**– Bəlkə, filmi düşmənin hakerləri pozublar?**

– 14 əsrdir ki, ermənilərin kilsəsi bütün yer üzündəki ermənilərdən pul yığır ki, özlərinə dövlət yaratsınlar. Bu kitabda onlar ifşa olunurlar. Ona görə də həqiqətlərin açılmasına əngəl olmaq üçün bütün çirkin vasitələrdən istifadə edirlər. Erməni mənbələri deyir ki, bizim torpağımız olmayıb, biz şər – böhtanla əraziləri zəbt edib özümüzünküləşdirmişik. Mən bütün faktları arxivlərdən yığıb, istinadlar əsasında təhlil aparmışam. Gerçəkliklərdən qaçmaq mümkün deyil.

“Erməni elitasının “etirafları” və yaxud “Mənim günahlarım” kitabımda haylar özləri – özlərini ifşa edirlər. XX əsrin əvvəllərində yaşamış Morqan adında məşhur bir arxeoloq olub, haylar bir yerə toplaşıb gedirlər onun yanına ki, bizə tarix yaz. Bütün bu dediklərim erməni mənbələrindədir. XX yüzilliyin əvvəlləri 1-ci Dünya müharibəsi ərəfəsində baş vermiş bu hadisənin təfərrüatlarını o dövrün arxeoloqları ermənilərin məkrli planını gülünc və qəzəb içində yaymağa başlayıblar. Belə ki, arxeoloq Morqan onunla danışığa gələn daşnak yığnağından soruşur ki, faktlarınız, dəlilləriniz varsa verin, yazım. Bunu eşidən haylar çıxılmaz vəziyyətə düşürlər və mənbələr axtarışına çıxırlar. Həmin arxeoloq Morqana nağıllar, əsatirlər, bir sözlə, heç bir əsası olmayan yazılar təqdim edirlər.

İllərin imtahanından çıxmış arxeoloq ona təqdim edilən “mənbələrə” baxıb təəssüf hissi keçirərək deyir ki, sizin gətirdiyiniz bu “yazılar” nağıldan başqa bir şey deyil, tarixi yazmaq üçün isə faktlar, sübutlar lazımdır. İnsanların mənə olan inamını əgər itirərəmsə, canlı ikən ölümümü qəbul edərəm. Bu hadisə o illərdə bütün Avropa arxeoloqlarına yayılır və tarixin səhifəsinə erməni hiyləgərliyinin xisləti kimi yazılır.

İrəvanın hər addımında, daşında, parçasında müsəlman – türk tarixi yatır. Yer kürəsində Azərbaycan və Türkiyəyə qarşı ermənilərin təşkilatlanmış formada 600-dən çox qurumu fəaliyyət göstərir. Ona görə də düşmənin ideoloji silahına qarşı mübarizəni gücləndirməliyik. “Erməni yalanlarına” faktlarla, dəlillərlə cavab verməliyik.

44 günlük Vətən müharibəsindəki Zəfərimiz sübut etdi ki, Azərbaycan xalqı yumruq kimi birləşməyi bacarır. Qüdrətli ordumuz və Ali Baş Komandanımıza arxalanırıq. Bir məqamı unutmaq olmaz. Azərbaycan qısamüddətli döyüşü, ildırım sürətli qələbəsi ilə dünya hərb tarixinə düşdü. Bizim tərəfdən aparılan döyüş ədalətli idi, çünki zorla bizdən qoparılan və 30 il işğal altında qalan torpaqlarımızı xilas etmək üçün silaha sarılmışdıq.

Erməni generalları da, xarici mənbələrdə yazılanlar da sübut etdi ki, bizim yenilməz, polad kimi ordumuzun qarşısında silaha əl atanlar məğlubiyyətlə qarşılaşacaqlar.

Vətən bizim içimizdə, ruhumuzda olmalıdır. Belə bir ruhla silahlanmış ordunun mükafatı Zəfər olmalı idi, oldu da! Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şərəfinə “Şəhidlərə kəfən lazım deyil” adlı 2 hissəli, 6 şəkilli dram əsərini yazmışam. Bu pyesi ilk olaraq Mübarizin atasına aparıb verdim, o kitabı oxuyandan sonra kövrək səslə mənə dedi: “Sanki siz onun yanında olmusunuz”.

Mən də kövrəldim, dedim ata, mən müəlliməm, Mübarizlərin amalı, döyüş yolu mənim dərsimin baş mövzusudur, onlar Vətən əxlaqının mücəssəməsidir.

1992-ci ildə anasının qucağında məni döyüşə yola salan oğlum 2020-ci ildə könüllü olaraq Vətən Müharibəsinə getdi, düşməndən qisasımızı alanların cərgəsində şərəfli bir tərcümeyi-hal yazdı və qazi kimi qayıtdı. Sonda deyim ki, övladımla qürur hissi keçirirəm. Mənim 30 il əvvəl nakam qalan arzularımı oğlum gerçəkləşdirdi, daha doğrusu, ordumuzun yüzlərlə qəhrəmanlarından biri oldu. Milli şüurun formalaşdığı Bakı Dövlət Universitetində fədakar, millətini sevən gəncləri yetişdirmək bizim Vətən borcumuzdur.

***Söhbəti qələmə aldı:***
***Kəmalə Abdinova***
***XQ***

## BEYNƏLXALQ HƏYAT

# Yaxın Şərqdə vəziyyət gərgindir

**İsrail ordusunun iyunun 13-nə keçən gecədən indiyədək İrana qarşı həyata keçirdiyi hava əməliyyatları davam edir. Hücumlar çərçivəsində İranın nüvə obyektləri, hərbi bazaları, generalları və ballistik raket sistemləri əsas hədəf kimi müəyyən olunub. İran tərəfi isə cavab zərbələri ilə İsrailin hərbi infrastrukturlarına ballistik raket və PUA-larla hücumlar təşkil edib. Gərginlik yüksəlməkdədir.**

Ötən gün İsrailin İranın qərb bölgəsinə endirdiyi növbəti hava zərbələri nəticəsində SEPAH-ın beş hərbçisi həyatını itirib. İranın rəsmi mənbələrinə əsasən, zərbələr Lurestan əyalətinin mərkəzi olan Xorremabad şəhərində qeydə alınıb. “Tasnim” agentliyinin məlumatına görə, zərbələr iyunun 21-də səhər saatlarında həyata keçirilib.



Hazırkı hərbi eskalasiya fonunda ABŞ və Avropa İttifaqının nümayəndələri İran rəhbərliyi ilə danışıqlar aparırlar. “CBS News” kanalının yaydığı məlumata görə, müzakirələrdə İranın nüvə obyektlərinin təhlükəsizliyi və ekoloji fəsadların qarşısının alınması məsələləri ön plandadır. Diplomatik mənbələr qarşıdakı iki həftəni İsrail-İran qarşıdurmasının qarşısının alınması üçün “son fürsət” kimi dəyərləndirirlər.

Regional gərginliyin fonunda Azərbaycan regionda sülh və sabitliyin təminatçısı kimi çıxış edir. Belə ki, iyunun 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas arasında telefon danışığı aparılıb. Söhbət zamanı İsrail–İran qarşıdurması kontekstində bölgədə təhlükəsizlik vəziyyəti ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Bayramov Azərbaycanın mövcud vəziyyətdə diplomatik həll yollarını dəstəklədiyini bildirib. Aİ nümayəndəsi də Azərbaycanın təşəbbüslərinə dəstək ifadə edib. Azərbaycanın əcnəbi vətəndaşların təxliyəsində fəal iştirakı, onun regional təhlükəsizlikdə etibarlı və məsuliyyətli aktor kimi qəbul edilməsinə səbəb olub. Eyni zamanda, ölkənin geostrateji mövqeyi və enerji-nəqliyyat imkanları onun Avropanın təhlükəsizlik sistemində mühüm yer tutduğunu göstərir.

Bu telefon danışığı bir daha təsdiq edir ki, Azərbaycan–Avropa İttifaqı münasibətləri sadəcə enerji və ticarət sahələri ilə məhdudlaşmır. Münasibətlər artıq təhlükəsizlik, humanitar və diplomatik sahələrdə də strateji xarakter daşıyır. Aİ-nin yüksək səviyyəli nümayəndəsi ilə keçirilmiş bu təmas Azərbaycanın Cənubi Qafqazda sabitlik arxitekturasının qurulmasında önəmli rol oynadığını sübut edir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Cəlilabadda 9 yaşayış məntəqəsinin yolu yenidən qurulur



**Cəlilabad rayonunda Sərhədabad–Əliabad–Zəhmətabad–Soltankənd marşrutu üzrə avtomobil yollarının yenidən qurulmasına başlanılıb. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən mətbuata bildirilib ki, layihə 7 mindən artıq əhalinin yaşadığı 9 yaşayış məntəqəsini əhatə edir.**

Uzunluğu 18 kilometr olan və uzun müddət təmir edilmədən istismarda olan bu yollar təbii amillərin təsiri nəticəsində yararsız vəziyyətə düşmüşdü. Bu səbəbdən yolun əsaslı şəkildə yenidən qurulması zəruri hesab olunub. Yol 4-cü texniki dərəcəyə uyğun şəkildə təkmilləşdirilir. Genişliyi 10 metrədək artırılır ki, bu da 6 metr hərəkət hissəsini və hər iki tərəfdə 2 metr çiyin hissəsini əhatə edir.

Yol boyu torpaq işləri, qazma və əks-dolğu işləri aparılır, suların ötürülməsi məqsədilə mövcud dəmir-beton borular bərpa olunur, zəruri sahələrdə isə müxtəlif diametrli yeni suötürücü borular quraşdırılır. Layihənin 2,3 kilometrlik Zəhmətabad–Soltankənd hissəsində qeyd olunan işlər artıq yekunlaşıb. Hazırda həmin hissədə yol yatağının tikintisi işləri davam etdirilir.

***XQ***

**1. “JUDO SC” QSC-nin (VÖEN: 1007677661) yenidən təşkili qaydasında təşkilati-hüquqi formasının dəyişdirilərək QSC-dən MMC-yə çevrilməsi ilə əlaqədar dövriyyədə olan 302000 (üç yüz iki min) manata bərabər tutulan 100 (bir yüz) ədəd ,hər birinin nominal dəyəri 3,020.00 (üç min iyirimi) manat olan adi, adlı, sənədsiz səhmləri dövriyyədən çıxarılır.**

**2. “INTER PROJECT” QSC-nin (VÖEN: 1805264931) yenidən təşkili qaydasında təşkilati - hüquqi formasının dəyişdirilərək QSC-dən MMC-yə çevrilməsi ilə əlaqədar dövriyyədə olan 2000 (iki min) manata bərabər tutulan 100 (bir yüz) ədəd ,hər birinin nominal dəyəri 20 (iyirmi) manat olan adi ,adlı, sənədsiz səhmləri dövriyyədən çıxarılır.**

**3. “AZƏRİGLOBALSERVİS” QSC-nin (VÖEN: 1600247821) yenidən təşkili qaydasında təşkilati- hüquqi formasının dəyişdirilərək QSC-dən MMC-yə çevrilməsi ilə əlaqədar dövriyyədə olan 2000 (iki min) manata bərabər tutulan 2000 (iki min) ədəd ,hər birinin nominal dəyəri 1 (bir) manat olan adi ,adlı, sənədsiz səhmləri dövriyyədən çıxarılır.**

**4. “AZ SOFTVARE SYSTEM” QSC-nin (VÖEN: 1304395731) yenidən təşkili qaydasında təşkilati-hüquqi formasının dəyişdirilərək QSC-dən MMC-yə çevrilməsi ilə əlaqədar dövriyyədə olan 150.000 (bir yüz əlli min) manata bərabər tutulan 20 (iyirmi) ədəd ,hər birinin nominal dəyəri 7500 (yeddi min beş yüz) manat olan adi, adlı, sənədsiz səhmləri dövriyyədən çıxarılır.**

**5. “AZINVEST TELECOM TECHNOLOGY” QSC-nin (VÖEN: 1702157761) yenidən təşkili qaydasında təşkilati- hüquqi formasının dəyişdirilərək QSC-dən MMC-yə çevrilməsi ilə əlaqədar dövriyyədə olan 202000 (iki yüz iki min) manata bərabər tutulan 400 (dörd yüz) ədəd, hər birinin nominal dəyəri 505 (beş yüz) manat olan adi ,adlı, sənədsiz səhmləri dövriyyədən çıxarılır.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 127 (30821) 22 iyun 2025-ci il, bazar

İdrakın kodları

# İnsan beyni və kodların labirinti

VIII YAZI



### Nevronlar arasında informasiya axını

İnsan beyninin təməl strukturu – milyardlarla neyron və onların bir-birilə yaratdığı trilliyonlarla sinaptik əlaqə – sanki canlı bir kod sistemidir. Hər bir neyronun "söz"ü, sinapsın "cümləsi" var. Beyindəki elektrik impulsları məlumatı bir nöqtədən digərinə ötürərkən, bu informasiya axını həm kimyəvi, həm də elektrik təbiətlidir. Lakin bu ötürülmə prosesi kodlaşdırılmış bir mexanizmlə baş verir: bir neyron digərinə siqnal ötürmək üçün müəyyən nizamda, müəyyən sıxlıqda impulslar göndərir. Bu impulslar, bir baxıma, beynin öz "protokolları", yəni bioloji proqramlaşdırma sistemidir.

### Beynin özünü proqramlaşdırması

Müasir neyroelm beynin "özünü proqramlaşdırma" bacarığına malik olduğunu təsdiqləyir. Bu bacarıq plastiklik adlanır. İnsan beyni yeni biliklərlə qarşılaşdıqca, travmalardan sonra, yaxud gündəlik təcrübələrlə öz sinaptik əlaqələrini dəyişə bilir. Bu isə o deməkdir ki, insan beyni həm proqramdır, həm də proqramçıdır. O, özü-özünü dəyişə, kodunu yeniləyə və bəzən köhnə "yazılımı" silə bilir. Sanki həyatın hər yeni təcrübəsi ilə beyin yeni bir "update" alır.

### Şüurun kodlaşdırılması ehtimalı

Əsrlərdir ki, şüurun sirri filosoflar, alimlər və mistiklər üçün cavabsız sualdır. Ancaq son dövrlərdə bəzi neyroinformatika tədqiqatçıları şüurun da kodlaşdırıla bilən bir hadisə ola biləcəyini irəli sürürlər. Yəni şüur – müəyyən neyron şəbəkələrinin spesifik şəkildə aktivləşməsi nəticəsində yaranan yüksək səviyyəli bir "proqram" ola bilərmi? Əgər "bəli" isə, bu proqramlaşdırılmış şüur kodlaşdırıla bilər və bir gün süni intellektdə simulyasiya oluna bilərmi?

Bəlkə də biz öz şüurumuzu yalnız yaşantılarla deyil, eyni zamanda içimizdəki kodlarla qururuq – genetik, neyron və təcrübə əsaslı kodlarla. Həyat dediyimiz hadisə bu kodların bir labirint kimi insan beynində dolaşmasıdır.

### Bioloji idrak və süni şəbəkələr arasında paralellər

Süni neyron şəbəkələri (ANN – Artificial Neural Networks) insan beyninin sinaptik mexanizmlərini modelləşdirərək yaradılıb. Hər bir süni neyron giriş siqnallarını alır, onları çəki sisteminə əsasən hesablayır və nəticə olaraq çıxış siqnalı verir – bu, bioloji neyronun davranışına bənzəyir. Lakin süni şəbəkələrdə şüur yoxdur. Onlar öyrənirlər, lakin anlamırlar. Reaksiya verirlər, lakin hiss etmirlər.

Buradakı maraqlı paralel odur ki, süni şəbəkələrin davranışı da kodla müəyyən olunur – onlar da proqramlaşdırılmış strukturlar əsasında işləyir. Bu isə insan beynindəki davranışın müəyyən dərəcədə proqnozlaşdırıla biləcəyini göstərir. Bəlkə də, beyin – kodlaşdırılmış bir labirint, şüur – həmin labirintin ortasında parlayan işıqdır.

*Oğuz ARİF*

Turan abidələri

# Buxara – açıq səma altında muzey-şəhər!



**Buxara dünyanın zəngin tarixi-mədəni irsə malik qədim şəhərlərindəndir. Şərq və Qərbdə Buxara "açıq səma altında muzey, möhtəşəm tarixin parlaq aynası" kimi tanınır. Şəhər erkən orta əsrlərdən etibarən Orta və Mərkəzi Asiyanın sənətkarlıq və ticarət mərkəzlərindən biri olmuşdur. 1997-ci ildə Buxaranın 2500 illik yubileyi beynəlxalq səviyyədə qeyd edilmişdir.**

Alimlər Buxaranın bizim eradan əvvəl I minilliyin ortalarında yarandığını bildirirlər. Qədim uyğur dilində Buxara məbəd, namaz evi mənasında işlənir. Maraqlıdır ki, Buxaranı tarix boyu ələ keçirmək niyyətinə düşən hökmdarlar az olmayıb. Amma çoxlarına bu, qismət olmayıb. IX-X əsrlərdə Buxara Samanidlər dövlətinin paytaxtı olub.

Burada İbn Sina, Rudəki, Ömər Xəyyam kimi Şərqin böyük mütəfəkkirləri yaşayıb yaradıblar. Dahi İbn Sina Buxara haqqında belə yazırdı: "...Bu yerin kitabxanasında elə kitablar tapdım ki, onları nə əvvəllər, nə də sonralar heç bir yerdə görmədim. Onları oxuduqca mənə dünyanın sirləri açıldı..."

Əmir Teymurun (1336–1405-cu illər) dönəmində Buxara özünün çiçəklənmə dövrünü yaşayıb. Şəhərdə bir-birindən möhtəşəm məscidlər, mədrəsələr ucaldılıb. O dövrdən başlayaraq bugünə kimi Buxara müsəlman Şərqinin əsas dini mərkəzlərindən biri sayılır.





Deyilənlərə görə, Əmir Teymur İranın böyük şairi Hafiz Şirazinin "Əgər o şiraz gözəli mənim qəlbimi ələ gətirsə, onun bir qara xalına Səmərqənd ilə Buxaranı bağışlaram") beyti olan şerini oxuyub bərk qəzəblənib. Teymur Şirazı fəth edəndə qoca şairi hüzuruna çağırtdırıb demişdir:

– Mən dünyanı fəth etdim ki, Səmərqənd ilə Buxaranın şöhrətini bütün aləmə yayım, sən nə cürət edib mənim ən gözəl şəhərlərimi bir qara xala verirsən? Hafiz belə cavab verib:

– Ey dünyanın fatehi, mən elə deməmişəm, demişəm ki, əgər o gözəl qəlbimi ələ gətirsə, onun bir qara xalna "se mən qəndu" (3 batman qənd) və "do xurmara (iki xurma) bağışlaram".

Əmir Teymur Hafizin bu hazırcavablığından xoşlanmış və soruşmuşdur:

– Doğrusunu söylə, əgər o şəhərlər sənin olsaydı, o gözələ onlara bağışlardınmı?"

Hafiz bunun cavabında köhnə, nimdaş paltarını Teymura göstərərək deyib:

–Əgər mən var-yoxumu gözəllərə bağışlamasaydım, bu günə qalardımmı?!

Bəli, Buxara, həqiqətən, çox yaraşıqlıdır! Bu gözəl şəhərin hər küçəsi, xiyabanı, meydanı və abidələri keçmişin izlərini yaşadır. Buradakı uca minarələr, tarixi məkanlar və qədim əşyalar insan zəkasının möhtəşəmliyini əks etdirir.

Qeyd edək ki, hazırda Buxarada 140-dan artıq memarlıq abidəsi qorunub saxlanılır. Şəhərdə indi onlarla məscid və dini kollec fəaliyyət göstərir. Bu abidələrin əksəriyyəti orta dövrünə aiddir. "Poi-Kalon", "Kos mədrəsəsi", "İsmayil samani mavzoleyi", "Kalian minarəsi" kimi tarixi abidələr diqqəti daha çox cəlb edir. Şəhər dar küçələr, yaşıl park və bağlar, müxtəlif eposların qəhrəmanlarını təsvir edən heykəl və mozaik pannolar ilə də zəngindir. Təsadüfi deyil ki, Buxaranı açıq səma altında "muzey-şəhər" adlandırırlar.

Buxaradakı məşhur Ərk qalası şəhərin mərkəzində yerləşir. Abidənin tarixi eradan əvvəl V əsrə qədər gedib çıxır. Qala dəfələrlə dağıdılıb, bir müddət sonra isə yenidən daha gözəl qiyafədə inşa edilib. Qala uzun müddət Buxara hakimlərinin iqamətgahı rolunu oynayıb. 1920-ci ildə bolşevik işğalından sonra qalada güclü yanğın baş verib.

Yeri gəlmişkən, Buxara sufizmin görkəmli nümayəndəsi şeyx Bahəddin Nəqşibəndinin yaşadığı şəhərdir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dövlət başçısı kimi bölgəyə ilk səfərlərindən birinə məqbərəni ziyarət etməklə başlamışdır. Burada müqəddəs yerlərin abadlaşdırılması və ziyarətçilər üçün daha əlverişli şərait yaradılması istiqamətində göstərişlər verilmişdir.

Özbəkistan bu gün turizmin inkişafına böyük önəm verir və əcnəbi turistləri Buxara, Səmərqənd və Xivə kimi tarixi şəhərlərə cəlb etmək üçün geniş tədbirlər həyata keçirir. Qardaş ölkədə 2019-2025-ci illər üçün turizmin inkişafı konsepsiyası qəbul edilmiş və bu çərçivədə elektron vizaların verilməsi və viza rejiminin sadələşdirilməsi kimi addımlar atılmışdır. Buxaranın tarixi hissəsində böyük abadlıq işləri aparılmaqdadır.

Buxarada hazırda 300 minə yaxın insan yaşayır. Şəhər Xəzərin "Cənub mirvarisi" sayılan bizim Lənkəranla qardaşlaşıb. İki şəhər arasında bütün sahələrdə əlaqələr ilbəil genişlənir. Hər iki şəhərin sakinləri bir-birlərinə qonaq getməyi özlərinə şərəf bilirlər. Lənkəranlı dostum Mirbağır Yaqubzadə dedi ki, macalı olan kimi, ailəsi ilə birlikdə Buxaranı ziyarət etmək, üstəlik, dadlı, özbək plovundan dadmaq arzusundadır!

*M.HACIXANLI*
*XQ*

İdman

## Avropa çempionatında 39 güləşçi ilə təmsil olunacağıq



**Azərbaycan iyunun 25-dən 28-dək İtaliyanın Kaorle şəhərində təşkil olunacaq U-15 Avropa çempionatında 39 güləşçi ilə təmsil olunacaq.**

Reqlamentə əsasən, ölkələr hər növdə 13 idmançı ilə təmsil oluna bilər. 2022-ci ildən bu yana sərbəst və yunan-Roma güləşində U-15 Avropa çempionatlarında tam heyətlə mübarizə aparırdıqsa, bu dəfə qadın güləşində də tam heyətlə təmsil olunacağıq.

Məsul yarışa sərbəst güləşçilər start verəcək. İyunun 26-da qızlar mübarizəyə qoşulacaq. Qitə birinciliyinə yunan-Roma güləşçiləri yekun vuracaq.

Yarışı idarə edəcək hakimlər sırasında III kateqoriyaya sahib Kənan Hacıəliyev və Sevinc Yusibova da yer alacaq.

## Boksçularımız Astanada



**Azərbaycanın kişi boksçulardan ibarət millisi Qazaxıstan paytaxtında təlim-məşq toplanışı keçəcək. İdmançılarımız dünən Astanaya yollanıblar.**

Millimiz iyunun 28-də yekunlaşacaq toplanışda ABŞ, Kanada, Belçika, Qazaxıstan, İsveçrə və Avstraliya ilə birgə məşq edəcək, sınaq döyüşləri keçirəcək.

Hazırlığın yekununda boksçularımız Qazaxıstanda keçiriləcək Dünya Kubokuna qatılacaqlar. Bu yarış iyunun 30-dan iyulun 7-dək davam edəcək. Dünya Kubokunda həmçinin qadın boksçularımızdan Marjona Savriyeva, Zeynəb Rəhimova və Aynur Mikayılova mübarizə aparacaqlar.

## UEFA "Qarabağ" klubuna ödəniş edib




**UEFA 2024/2025 mövsümündə Avropa Liqasının liqa mərhələsində iştirak edən "Qarabağ" klubuna ödəniş edib.**



AFFA-nın rəsmi saytı xəbər verir ki, Ağdam təmsilçisinə 753 min 608 avro verilib. Vəsait milli assosiasiyanın vasitəçiliyi ilə klubun hesabına köçürülüb.

*M.HACIXANLI*
*XQ*

Hava

# Bakıda güclü külək, bölgələrdə yağış

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 19-21, gündüz 24-28 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək.**



Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 21-22, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 22-23 dərəcə isti olacaq.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22, gündüz 25-30, dağlarda gecə 6-11, gündüz 13-18 dərəcə isti olacağı ehtimal edilir.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3693
SİFARİŞ 1251
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00